# Yezekel

*Peyğəmbərin Kitabı*

#### *Giriş*

Yezekel peyğəmbər miladdan əvvəl 593-571-ci illərdə peyğəmbərlik edirdi. O, Babildə sürgündə yaşayırdı. Onun sözləri həm sürgündə yaşayan həmvətənlərinə, həm də Yerusəlim əhalisinə aid idi. *«Yezekel»* Kitabında təsvir olunan vacib hadisələr bunlardır:

Allah Yezekeli peyğəmbər olmağa çağırır. Sonra o, insanların üzərinə gələn Allah cəzası, Yerusəlimin süqutu və dağıdılması barədə xəbərdarlıq edir.

Yezekel Allahın xalqına zülm edən millətlərin Onun tərəfindən mühakimə edilməsi barədə peyğəmbərlik edir. Lakin Allah sədaqətlidir, buna görə də Yerusəlimin süqutu və dağıdılmasından sonra İsrail xalqına təsəlliverici sözlər və gələcəyə parlaq ümid verir.

Kitabın məzmunu bir qədər çətin anlaşılır, çünki onun bir hissəsini görüntülər təşkil edir.

Bu kitabda həm də bərpa olunmuş mə'bəd və İsrail Yezekelin təsvirində böyük maraq doğurur. Yezekel böyük imana malik idi. O, ürəklərin və ruhani vəziyyətin yeniləşməsinin zəruriliyini, hər insanın öz günahlarına görə məs'uliyyət daşımasını vurğulayırdı. Yezekel xalqın həyatının yeniləşməsi barədə car çəkirdi. O, kahin və peyğəmbər kimi mə'bədin bərpa olunmasına və İsrailin qanuna uyğun pak olmasına ehtiyac duyurdu.

#### *Kitabın məzmunu:*


Allah Yezekeli peyğəmbər olmağa çağırır 1:1-3:37

Yerusəlimin süqutu və dağıdılması barədə xəbərdarlıq 4:1-24:27

Allahın millətlər üzərində məhkəməsi 25:1-32:32

Allahın Öz xalqına və'dləri 33:1-37:28

Qoqa qarşı peyğəmbərlik 38:1-39:29

Gələcək mə'bəd və ölkə barədə görüntü 40:1-48:35


### *Yezekelin ilk görüntüsü*

1 [1] Otuzuncu ildə[1] dördüncü ayın beşinci
günü mən Kevar çayı sahilində, sürgündə
yaşayanlar arasında olanda göylər açıldı və
Allahdan gələn görüntüləri gördüm. [2] Padşah
Yehoyakinin sürgün olunmasının beşinci
ilində, həmin ayın beşinci günü [3] Xaldey
ölkəsində, Kevar çayı sahilində Buzinin oğlu
kahin Yezekelə Rəbbin sözü nazil oldu. Orada
Rəbbin əli onun üzərində idi.

[4] Mən gördüm ki, budur, şimaldan çovğun
yeli və dayanmadan şimşək çaxan böyük bir
bulud gəlir. Onun ətrafında parıltı var idi,
ortasında isə od içində kükrəyən metal kimi
bir şey var idi. [5] Ən ortasında canlı məxluqa
bənzəyən dörd varlıq mövcud idi. Onların
görünüşü insana bənzəyirdi. [6] Hər birinin dörd
üzü və dörd qanadı var idi. [7] Onların bacaqları
düz idi. Ayaqları dana ayaqlarına oxşayırdı və
cilalanmış tunc kimi parıldayırdı. [8] Dörd
yanlarında, qanadları altında insan əlləri var
idi. Dördü də üzlərə və qanadlara malik idi.
[9] Onların qanadları bir-birinə toxunurdu. İrəli
gedərkən sağa-sola dönmürdülər, hər biri üz
tutduğu tərəfə irəliləyirdi.

[10] Onların dörd tərəfə yönələn üzlərinin
bənzəyişi belə idi: qabaq tərəfdə insan üzü,
sağ tərəfdə aslan üzü, sol tərəfdə öküz üzü,
arxada isə qartal üzü var idi. [11] Onların üzləri
və qanadları yuxarıya doğru açılmışdı. Hər
canlının iki qanadı yanda o biri canlının
qanadına toxunur, iki qanadı da bədənlərini
örtürdü. [12] Hər biri üz tutduğu tərəfə
irəliləyirdi. Ruh hara gedirdisə, onlar da ora
gedirdi. İrəli gedərkən sağa-sola dönmürdülər.
[13] Bu canlılar görünüşcə yanar köz kimi,
məş'əl kimi bir şeyə bənzəyirdi. Canlı
məxluqların arasında od hərəkətdə idi. Od
parıldayırdı və ondan şimşək çaxırdı. [14] Canlı
məxluqlar şimşək çaxan kimi cəld o tərəf-bu
tərəfə hərəkət edirdi.

[15] Mən canlı məxluqlara baxıb gördüm ki,
hər birinin yanında yerə dəyən bir təkər var.
[16] Təkərlərin görünüşü və quruluşu belə idi:
onlar sarı yaqut kimi parıldayır və dördü də

---

***1:1** – Vəhy 19:11*
[1] **1:1** *Otuzuncu ildə* yaxud *otuz yaşında ikən.*
***1:2** – 2Pad. 24:10-16; 2Saln. 36:9-10*
***1:5** – Vəhy 4:6*
***1:10** – Yez. 10:14; Vəhy 4:7*
***1:13** – Vəhy 4:5*
***1:15-21** – Yez. 10:9-13*

bir-birinə oxşayırdı. Onların görünüşü və
quruluşu elə idi ki, sanki bir təkər o biri təkər
içində yerləşmişdi. [17] Getdikləri zaman dörd
tərəfə də gedə bilirdilər. İrəli gedərkən sağa-
sola dönmürdülər. [18] Təkərlərin sağanaqları
hündür və qorxunc idi. Dördünün də
sağanaqları hər tərəfdən gözlərlə dolu idi.
[19] Canlı məxluqlar irəlilədikcə təkərlər də
yanında fırlanır, canlı məxluqlar yerdən
qalxdıqca təkərlər də qalxırdı. [20] Ruh hara
gedirdisə, onlar da ora gedirdi, təkərlər də
onlarla bərabər qalxırdı, çünki canlı
məxluqların ruhu təkərlərdə idi. [21] Onlar
irəliləyəndə bunlar da irəliləyirdi, onlar
dayananda bunlar da dayanırdı. Onlar yerdən
qalxanda yanlarındakı təkərlər də qalxırdı,
çünki canlı məxluqların ruhu təkərlərdə idi.

[22] Yuxarı tərəfdə, canlı məxluqların başı
üzərində büllur kimi parıldayan göy
qübbəsinə oxşayan qorxunc bir şey uzanırdı.
[23] Qübbənin altında hər canlı məxluq
qanadlarını yanındakılara doğru uzadır, başqa
iki qanadla da bədənini örtürdü. [24] Onlar
irəlilədikləri zaman qanadlarının gurultusunu
eşitdim: sanki gur suların səsi, Külli-İxtiyarın
sədası, güclü gurultu, qoşunun tappıltısı
gəlirdi. Onlar dayandıqları zaman qanadlarını
endirirdi. [25] Onlar qanadları enmiş halda
dayanarkən başları üzərindəki qübbədən bir
səs gəldi. [26] Başları üzərindəki qübbənin
üstündə sanki göy yaqutdan düzəldilmiş taxta
oxşar bir şey var idi. Yüksəkdə, taxta oxşayan
şeyin üzərində insana bənzər bir Şəxs var idi.
[27] Mən gördüm ki, Onun belindən yuxarı
hissəsi kükrəyən metala oxşayır, içi isə hər
tərəfdən alov kimi idi. Mən Onun belindən
aşağı görünüşünü də gördüm: sanki bir alov
idi və ətrafında parıltı var idi. [28] Yağış günü
buludda olan göy qurşağının görünüşü necə
olursa, hər tərəfdən gələn parıltının görünüşü
də elə idi. Bu, Rəbbin izzətinə bənzər bir
görüntü idi.

Bunu görəndə mən üzüstə yerə yıxıldım və
danışan bir Şəxsin səsini eşitdim.

### *Allahın Yezekelə çağırışı*

2 [1] O mənə dedi: «Ey bəşər oğlu, ayağa
qalx, Mən səninlə danışacağam». [2] O mənimlə
danışarkən Ruh daxilimə girdi və məni ayağa
qaldırdı. Mənimlə danışan bir Şəxsin səsini
eşitdim. [3] O mənə dedi: «Ey bəşər oğlu, səni
Mənə qarşı üsyan edən İsrail övladlarının –
asi bir millətin yanına göndərirəm. Onlar
ataları ilə birgə bu günə qədər Mənə qarşı
üsyan edir. [4] Səni yanlarına göndərəcəyim
xalq dikbaş və inadkardır. Sən onlara
deyəcəksən: “Xudavənd Rəbb belə deyir!”
[5] İstəyirlər sənə qulaq assınlar, istəyirlər yox,
çünki onlar asi bir xalqdır. Ancaq bilsinlər ki,
aralarında bir peyğəmbər var.

[6] Ancaq, ey bəşər oğlu, sən qanqallar və
tikanlar arasında olsan da, əqrəblər içində
otursan da, o adamlardan qorxma, onların
sözlərindən çəkinmə. Asi bir xalq olsalar da,
onların sözlərindən çəkinmə, onlardan
qorxma. [7] Sən onlara Mənim sözlərimi söylə,
istəyirlər sənə qulaq assınlar, istəyirlər yox,
çünki onlar asidir.

[8] Ey bəşər oğlu, sənsə Mənim
söylədiklərimə qulaq as, bu asi xalq kimi sən
də asi olma. Ağzını aç və Mənim sənə
verəcəyim şeyi ye». [9] Mən baxıb gördüm ki,
mənə tərəf bir əl uzandı və əlin içində bir
tumar var. [10] O, tumarı qabağımda açdı.
Tumarın önü və arxası yazılı idi, üzərində
«mərsiyə, matəm, bəla» sözləri yazılmışdı.

3 [1] O yenə mənə dedi: «Ey bəşər oğlu,
aldığın şeyi – bu tumarı yeyib get və
İsrail nəslinə söylə». [2] Onda mən ağzımı
açdım və O, tumarı mənə yedirdi. [3] Sonra
mənə dedi: «Ey bəşər oğlu, mə’dəni bununla
doldur, sənə verdiyim bu tumarla qarnını
doydur». Mən yedim, ağzım bal kimi şirin
oldu.

[4] O mənə dedi: «Ey bəşər oğlu, qalx İsrail
nəslinin yanına get və sözlərimi onlara söylə.
[5] Sən ləhcəsi, danışığı anlaşılmaz, dili çətin
olan bir xalqın yanına deyil, İsrail nəslinin
yanına göndərilirsən, [6] ləhcəsi, danışığı
anlaşılmaz, dili çətin olan çoxlu xalqların
arasına göndərilmirsən. Əgər Mən səni
onların yanına göndərsəydim, onlar sənə
qulaq asardı. [7] Ancaq İsrail nəsli sənə qulaq
asmaq istəməyəcək, onlar Mənə də qulaq
asmaq istəmir, çünki bütün İsrail nəsli inadkar
və dikbaşdır. [8] Bax Mən səni də onlar kimi

***1:18*** *– Vəhy 4:8*
***1:22*** *– Vəhy 4:6*
***1:24*** *– Vəhy 1:4-15; 19:6*
***1:26*** *– Yez. 10:1; Vəhy 4:2-3*
***1:27*** *– Yez. 8:2*

***2:9-10*** *– Vəhy 5:1*
***3:1-3*** *– Vəhy 10:9-10*

inadkar edəcəyəm, onlar kimi dikbaş
edəcəyəm. 9 Sənin inadını çaxmaq daşından
möhkəm olan almaz kimi möhkəm edəcəyəm.
Asi bir xalq olsalar da, onlardan qorxma,
qarşılarında vahiməyə düşmə».

10 O yenə mənə dedi: «Ey bəşər oğlu,
mənim dediyim bütün sözləri ürəyində saxla
və qulaqlarınla eşit. 11 Qalxıb sürgün olunmuş
soydaşlarının yanına get, onlarla danışıb söylə:
“Xudavənd Rəbb belə deyir!” Onlar istəyirlər
sənə qulaq assın, istəyirlər yox».

12 Sonra Ruh məni yuxarı qaldırdı və
arxamdan böyük bir gurultu eşitdim: «Rəbbin
izzətinə Öz yerində alqış olsun». 13 Canlı
məxluqların qanadları bir-birinə toxunduqca
onların səsini, yanlarındakı təkərlərin
şaqqıltısını – böyük gurultunu eşitdim. 14 Ruh
məni yuxarı qaldırdı və götürüb apardı. Mən
də kədərli və acıqlı halda getdim. Rəbb əlini
mənim üzərimdə möhkəm tutmuşdu. 15 Mən
Tel-Avivdə olan sürgün olunmuş adamların –
Kevar çayının sahilində yaşayanların yanına
gəldim və onların yaşadıqları yerdə qaldım.
Orada onların arasında yeddi gün çaşqınlıq
içində yaşadım.

### *Rəbb Yezekeli İsrailə gözətçi qoyur*

16 Yeddi gün keçdikdən sonra mənə Rəbbin
bu sözü nazil oldu: 17 «Ey bəşər oğlu, səni
İsrail nəslinə gözətçi qoydum. Sən sözü
ağzımdan eşidəndə Mənim adımdan onlara
xəbərdarlıq et. 18 Mən pis adama “hökmən
öləcəksən” dediyim zaman sən ona
xəbərdarlıq etməsən, həyatı qurtulsun deyə
pis adamı öz şər əməlindən döndərmək üçün
xəbərdarlıq sözü söyləməsən, onda o pis adam
öz təqsiri içində öləcək, lakin onun qanı üçün
məs’uliyyəti Mən sənin üzərinə qoyacağam.
19 Ancaq sən pis adama xəbərdarlıq etsən, o
isə pisliyindən və şər əməlindən dönməsə, öz
təqsiri içində öləcək, lakin sən bunun
məs’uliyyətindən qurtarmış olursan.

20 Əgər bir saleh adam öz salehliyindən
dönüb pislik etsə və Mən onun qarşısına
maneə qoysam, o öləcək. Ona xəbərdarlıq
etmədiyin üçün o adam öz günahı içində
öləcək və etdiyi saleh əməlləri hesaba
alınmayacaq, lakin onun qanı üçün
məs’uliyyəti Mən sənin üzərinə qoyacağam.
21 Ancaq günah etməməsi üçün saleh adama
xəbərdarlıq etsən və o günah etməsə, hökmən
yaşayacaq, çünki xəbərdarlığı qəbul etmişdir,
sənsə məs’uliyyətdən qurtarmış olursan».

22 Orada Rəbbin əli mənim üzərimdə idi. O
mənə dedi: «Qalx düzənliyə çıx, Mən səninlə
orada danışacağam». 23 Mən qalxıb düzənliyə
çıxdım. Orada da Kevar çayının sahilində
gördüyüm izzət kimi Rəbbin izzəti durmuşdu.
Mən üzüstə yıxıldım. 24 Ruh daxilimə girdi və
məni ayaq üstə qaldırdı. O mənimlə danışıb
belə dedi: «Get evində qapını arxadan bağla.
25 Ey bəşər oğlu, sənə kəndir vuracaqlar, səni
kəndirlərlə bağlayacaqlar, daha xalqın
arasında gəzə bilməyəcəksən. 26 Dilini
damağına yapışdıracağam və sən lal
olacaqsan, asi bir xalq olsalar da, onları
məzəmmət edə bilməyəcəksən. 27 Yalnız Mən
səninlə danışmağa başlayanda dilini
açacağam, sən də onlara deyəcəksən:
“Xudavənd Rəbb belə deyir”. Qoy eşitmək
istəyən eşitsin, eşitmək istəməyən eşitməsin,
çünki onlar asi bir xalqdır.

### *Yerusəlimin mühasirəsinin təsviri*

4 1 Sən ey bəşər oğlu, özün üçün bir
kərpic götür və onu qarşına qoyub
üstündə Yerusəlim şəhərini təsvir et. 2 Onu
mühasirəyə al, önündə mühasirə divarı tik,
qarşısında torpaq qalağı düzəlt, ətrafında
ordugahlar qur və ona qarşı hər tərəfdən
qoçbaşı alətləri qoy. 3 Bir dəmir sac götürüb
onu dəmir divar olmaq üçün özünlə şəhərin
arasına qoy və üzünü ona çevir. Şəhər
mühasirədə olacaq və sən onu mühasirəyə al.
İsrail nəslinə bu, bir əlamət olacaq.

4 Sən sol yanın üstünə uzan və İsrail
nəslinin cəzasını öz üzərinə götür, o tərəfə
uzandığın günlərin sayına görə onların
cəzasını çəkəcəksən. 5 Mən onların cəza
illərinin sayı qədər sənin üçün gün ayırdım.
Beləcə üç yüz doxsan gün İsrail nəslinin
cəzasını çəkəcəksən. 6 Bunu etdikdən sonra bu
dəfə sağ yanın üstündə uzan və Yəhuda
nəslinin cəzasını çək. Sənin üçün qırx gün –
hər il üçün bir gün ayırdım. 7 Üzünü
Yerusəlimin mühasirəsinə çevir, çılpaq
qolunu qaldırıb ona qarşı peyğəmbərlik et.
8 Bax Mən səni kəndirlə bağlayacağam və
təsvir etdiyin mühasirə günləri qurtarmayınca
bir yanından o biri yanın üstünə çevrilə
bilməyəcəksən.

9 Sən buğda, arpa, paxla, mərci, darı və
pərinc götürüb onları bir qaba qoy. Onlardan

özünə çörək yap. Bir yanın üstünə uzandığın
üç yüz doxsan gün ərzində onu ye. 10 Gündəlik
yeməyinin çəkisi iyirmi şekel olacaq, onu
müəyyən vaxtlarda ye. 11 Həmçinin suyu da
ölçü ilə – bir hinin altıda biri qədər iç, onu da
müəyyən vaxtlarda iç. 12 Ondan arpa kökəsi
düzəldərək hamının gözü qabağında insan
nəcisinə od vurub üstündə bişirib ye». 13 Rəbb
yenə dedi: «Bax İsrail övladları da aralarına
sürgün edəcəyim millətlərin içində beləcə
murdar yemək yeyəcək». 14 Mən dedim:
«Aman, ya Xudavənd Rəbb! Mən heç vaxt
murdar olmamışam. Cavanlığımdan indiyə
qədər nə leş, nə də heyvan parçalamış ət
yemişəm, bir murdar ət mənim ağzıma
dəyməyib». 15 O mənə dedi: «Yaxşı, Mən
insan nəcisini mal təzəyi ilə əvəz edirəm.
Çörəyini onun üstündə bişir». 16 Yenə mənə
dedi: «Ey bəşər oğlu, Mən Yerusəlimdən
çörəyin kökünü kəsəcəyəm. Çörəyi dərd
içində çəki ilə yeyəcəklər, suyu da çaşqınlıq
içində ölçü ilə içəcəklər. 17 Çünki çörəyə və
suya möhtac olacaqlar. Hər kəs çaşqınlığa
düşərək öz təqsiri içində əriyib yox olacaq.

5 1 Sən ey bəşər oğlu, bir iti qılınc
götürüb ondan dəllək ülgücü kimi
istifadə et, onu başına və saqqalına çək. Sonra
bir tərəzi götür və qırxdığın tükləri hissələrə
ayır. 2 Onların üçdə birini şəhərin mühasirə
vaxtı qurtaranda şəhərin ortasında odda
yandırar, üçdə birini götürüb şəhərin ətrafında
doğrayar, üçdə birini isə küləyə sovurarsan,
Mən də onların arxasınca qılınc çəkəcəyəm.
3 Tüklərin bir azını da götürüb paltarının
ətəyinə bağlayarsan. 4 Onlardan bir qədər də
götürüb odun içinə atar və onları odda
yandırarsan. Bundan bütün İsrail nəslinin
üstünə od yağacaq».

5 Xudavənd Rəbb belə deyir: «Bu,
Yerusəlimdir. Mən onu millətlərin, ətrafında
olan ölkələrin arasında yerləşdirdim. 6 Onun
xalqı isə başqa millətlərdən, ətrafındakı
ölkələrdən də çox pislik edərək hökmlərimə
və qaydalarıma qarşı üsyan etdi, çünki
hökmlərimi rədd etdilər, qaydalarıma əməl
etmədilər». 7 Buna görə də Xudavənd Rəbb
belə deyir: «Siz ətrafınızda olan millətlərdən
də çox azğınlıq etdiniz, qaydalarıma əməl
etmədiniz, hökmlərimi yerinə yetirmədiniz,
hətta ətrafınızda olan millətlərin hökmlərinə
görə də davranmadınız».

8 Buna görə də Xudavənd Rəbb belə deyir:
«Budur, Mən Özüm də sənə qarşı durmuşam
və başqa millətlərin gözü qabağında səni
cəzalandıracağam. 9 Bütün iyrənc işlərindən
ötrü indiyə qədər etmədiyim və bundan sonra
da bir daha etməyəcəyim şeyi sənin başına
gətirəcəyəm. 10 Buna görə də sənin torpağında
atalar oğullarını, oğullarsa atalarını yeyəcək.
Səni cəzalandıracağam, salamat qalanlarının
hamısını hər tərəfə sovuracağam».

11 Xudavənd Rəbb bəyan edir: «Buna görə
də, varlığıma and olsun, bütün iyrənc və
murdar şeylərinlə müqəddəs məkanımı
murdarladığın üçün Mən hökmən səni qırıb-
çatacağam, sənə yazığım gəlməyəcək və rəhm
etməyəcəyəm. 12 Sənin əhalinin üçdə biri
vəbadan öləcək, sənin içində aclıqdan tələf
olacaq, üçdə biri ətrafında qılıncla həlak
olacaq, üçdə birini isə hər tərəfə sovurub
arxalarınca qılınc çəkəcəyəm.

13 Beləcə hədsiz qəzəbimi göstərəcəyəm,
onlar üzərində qızğınlığımı söndürüb
sakitləşəcəyəm. Onlara hədsiz qəzəbimi
göstərəndə biləcəklər ki, Mən Rəbb
qısqanclıqdan onlara belə söylədim.
14 Ətrafında olan millətlər arasında, yoldan
keçən hər kəsin gözü önündə səni viranəliyə
və rüsvayçılıq hədəfinə çevirəcəyəm. 15 Qəzəb
və hiddətimlə, qızğın məzəmmətlərimlə səni
cəzalandırarkən ətrafında olan millətlər üçün
rüsvayçılıq, təhqir, ibrət və dəhşət hədəfi
olacaqsan. Mən Rəbb bunu söylədim. 16 Mən
sizi məhv etmək üçün üstünüzə aclığın
amansız oxlarını göndərəcəyəm. Aranızda
aclığı gücləndirəcəyəm və çörəyin kökünü
kəsəcəyəm. 17 Üstünüzə aclıq və vəhşi
heyvanlar göndərəcəyəm, sizi uşaqlarınızdan
məhrum edəcəklər. Aranızdan vəba və
tökülən qan keçəcək, üstünüzə qılınc
gətirəcəyəm. Mən Rəbb bunu söylədim».

### *Bütpərəstliyin pislənilməsi*

6 1 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, üzünü İsrail dağlarına
çevir və onların əleyhinə peyğəmbərlik edib
3 söylə ki, ey İsrail dağları, Xudavənd Rəbbin
sözünü dinləyin, dağlara, təpələrə, vadilərə və
dərələrə Xudavənd Rəbb belə deyir: “Baxın
Mən üstünüzə qılınc gətirəcəyəm və
səcdəgahlarınızı məhv edəcəyəm.

---

***5:10*** *– Qanun. 28:57; Mərs. 4:10*
***5:17*** *– Vəhy 6:8*

4 Qurbangahlarınız xarabalığa çevriləcək,
buxur qurbangahlarınız sındırılacaq.
Öldürülmüş adamlarınızı bütlərinizin
qabağına atacağam. 5 İsrail övladlarının
cəsədlərini bütlərin qarşısında yerə sərəcək,
sümüklərinizi qurbangahlarınızın ətrafına
səpələyəcəyəm. 6 Məskən saldığınız bütün
yerlərdə şəhərlər viran olacaq, səcdəgahlar
dağıdılacaq ki, qurbangahlarınız xarabalığa və
viranəliyə çevrilsin,[2] bütləriniz sındırılıb yox
edilsin, buxur qurbangahlarınız kəsilsin və
düzəltdiyiniz şeylər yer üzündən silinsin.
7 Aranızda öldürülənlər yerə səriləcək. Onda
biləcəksiniz ki, Rəbb Mənəm.
8 Lakin Mən bə'zilərinizi sağ buraxacağam.
Ölkələr arasına səpələndiyiniz zaman
millətlər içində qılıncdan qaçıb-
qurtaranlarınız olacaq. 9 Sizin qaçıb-
qurtaranlarınız aralarına sürgün edildikləri
millətlər arasında Məni yada salacaq. Mənə
xəyanət edən ürəklərinə, bütlərə dikdikləri
xəyanətkar gözlərinə görə pərt oldum.
Etdikləri pisliklərdən, bütün iyrənc işlərindən
ötrü öz-özlərindən ikrah edəcəklər. 10 Onda
biləcəklər ki, Rəbb Mənəm və onların başına
bu bəlanı gətirəcəyimi nahaq yerə
söyləməmişəm".
11 Xudavənd Rəbb belə deyir: "Əllərini bir-
birinə vur, ayaqlarını yerə çırpıb söylə ki,
İsrail nəslinin bütün pis və iyrənc işlərinə görə
vay onların halına! Çünki qılıncdan, aclıqdan
və vəbadan həlak olacaqlar. 12 Uzaqda olan
vəbadan öləcək, yaxında olan qılıncla həlak
olacaq, mühasirə zamanı sağ qalan aclıqdan
öləcək, Mən onlara hədsiz qəzəbimi
göstərəcəyəm. 13 Öz bütləri arasında,
qurbangahların ətrafında, hər yüksək təpədə,
hər dağın zirvəsində, hər kölgəli ağac altında,
sıx yarpaqlı hər palıd ağacı altında, bütün
bütlərinə ətirli buxur təqdim etdikləri yerlərdə
onların həlak olanları yerə səriləcək. Onda
biləcəksiniz ki, Rəbb Mənəm. 14 Onlara qarşı
əl qaldıracağam, səhradan Divlaya doğru
yaşadıqları bütün yerlərdə ölkəni xaraba və
sakinsiz qoyacağam. Onda biləcəklər ki, Rəbb
Mənəm"».

### *İsrailin aqibəti*

7 1 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Sən ey bəşər oğlu, Xudavənd Rəbb
İsrail torpağına belə deyir: "Axırı çatdı,
ölkənin dörd tərəfinin axırı çatdı. 3 İndi sənin
axırın çatdı. Qəzəbimi sənin üstünə
göndərəcəyəm, öz əməllərinə görə səni
cəzalandıracağam, bütün iyrənc işlərinin
əvəzini başına gətirəcəyəm. 4 Sənə yazığım
gəlməyəcək və rəhm etməyəcəyəm, öz
əməllərinə görə səni cəzalandıracağam, iyrənc
işlərinin əvəzini alacaqsan. Onda biləcəksiniz
ki, Rəbb Mənəm".
5 Xudavənd Rəbb belə deyir: "Budur, bir
bəla, tayı olmayan bir müsibət gəlir. 6 Axırın
çatıb, axırın çatıb, sənə qarşı qalxır. Budur,
tezliklə gəlir! 7 Ey ölkənin sakini, qiyamət
günün çatdı, vaxt gəldi, gün yaxındadır.
Dağların üstündən sevinc nidası deyil,
çaxnaşma səsi gəlir. 8 Tezliklə qızğınlığımı
üstünə tökəcəyəm, sənə qarşı qəzəbimi
bütünlüklə göstərəcəyəm, öz əməllərinə görə
səni cəzalandıracaq, bütün iyrənc işlərinin
əvəzini başına gətirəcəyəm. 9 Sənə yazığım
gəlməyəcək və rəhm etməyəcəyəm, öz
əməllərinə görə səni cəzalandıracağam, iyrənc
işlərinin əvəzini alacaqsan. Onda biləcəksiniz
ki, zərbə vuran Mən Rəbbəm.
10 Budur o gün! Gün gəldi, sənin qiyamət
günün çatdı: əsa çiçəkləndi, qürur gül açdı.
11 Zorakılıq çoxalıb pisliyin əsası oldu. Buna
görə də xalqdan, onların izdihamından, var-
dövlətindən və əzəmətindən əsər-əlamət
qalmayacaq. 12 Vaxt gəldi, gün yaxınlaşdı.
Alıcı sevinməsin, satıcı heyfsilənməsin, çünki
bütün kütlənin üstünə qəzəb yağacaq. 13 Hətta
onlar yaşasalar da, satıcı satdığı torpağa
qayıtmayacaq, çünki onların bütün camaatına
aid olan bu vəhy hədəfindən dönməyəcək.
Heç kəs təqsiri ilə həyatını davam etdirə
bilməyəcək.
14 Şeypur çalındı və hər şey hazırlandı,
ancaq müharibəyə gedən yoxdur. Çünki
qəzəbim bütün camaatın üstünə yağacaq.
15 Bayırda qılınca, içəridə vəba və aclığa tuş
gələcəklər, çöldə olan qılıncdan öləcək,
şəhərdə olanı aclıq və vəba yeyəcək. 16 Sağ
qalanları qaçıb-qurtulsa da, dərələrdəki
göyərçinlər kimi dağlarda yaşayacaq, hər kəs
təqsirindən ötrü ah-zar edəcək. 17 Hamının əli
yanına düşəcək, hər kəsin dizləri titrəyəcək.
18 Çula bürünəcəklər, onları dəhşət saracaq.

[2] **6:6** *Xarabalığa və viranəliyə çevrilsin* – arami, süryani və latın tərcümələrində belədir, ibrani mətnində isə *xarabalığa çevrilsin və təqsirkar çıxarılsın.*

Hamının üzündə xəcalət olacaq, hamının başı daz olacaq. 19 Gümüşlərini küçələrə atacaqlar, qızılları napak sayılacaq. Rəbbin qəzəb günündə qızıl-gümüşləri onları qurtara bilməyəcək, bədənlərini qidalandırmayacaq, qarınlarını doydurmayacaq, çünki bu şeylər onların təqsirlərinə bais oldu. 20 Bər-bəzəklərinin gözəlliyi onları qürurlandırdı. Öz iyrənc və mənfur bütlərini bu şeylərdən düzəltdilər. Ona görə də bunları özləri üçün murdar bir şeyə çevirdim. 21 Bunları qənimət kimi özgələrə, qarət malı kimi dünyadakı pis adamların əlinə verəcəyəm və onları murdarlayacaqlar. 22 Mən xalqdan üz döndərəcəyəm, müqəddəs məskənim murdarlanacaq, quldurlar içəri girib oranı murdarlayacaq.

23 Sən zəncir düzəlt, çünki ölkə qanlı cinayətlərlə, şəhər zorakılıqla dolub. 24 Millətlərin ən qəddarını onların üstünə gətirəcəyəm və evlərini əllərindən alacaqlar. Güclülərin qüruruna son qoyacağam, müqəddəs yerləri murdarlanacaq. 25 Dəhşət gəlir. Əmin-amanlıq axtaracaqlar, amma tapmayacaqlar. 26 Bəla üstündən bəla gələcək, qara xəbər dalınca qara xəbər çatacaq. Peyğəmbərlərdən görüntü istəyəcəklər, kahinin qanun öyrətməyi bitəcək, ağsaqqallar nəsihət verməyəcək. 27 Padşah yas tutacaq, əmirləri mə'yusluq bürüyəcək, ölkə xalqının əli yanına düşəcək. Onları əməllərinə görə cəzalandıracağam, hökmlərinə görə hökm edəcəyəm. Onda biləcəklər ki, Rəbb Mənəm"».

### *Rəbbin mə'bədində bütpərəstlik*

8 1 Sürgünlüyümüzün altıncı ilində, altıncı ayın beşinci günü mən evdə oturmuşdum və Yəhuda ağsaqqalları da qarşımda əyləşmişdi. O zaman orada üstümə Xudavənd Rəbbin əli endi. 2 Mən baxıb insana[3] oxşar bir surət gördüm: belindən aşağı oda bənzəyir, belindən yuxarı isə metal kimi parıldayırdı. 3 O, ələ bənzər bir şey uzatdı və məni saçımdan tutdu. Onda Ruh məni yerlə göy arasına qaldırdı və Allahın görüntülərində Yerusəlimə, içəri həyətin şimal qapısının giriş yerinə gətirdi. Orada Allahda qısqanclıq oyadan qısqanclıq bütü qurulmuşdu.

**8:2** – *Yez. 1:27*

[3] **8:2** *İnsana* – qədim yunan tərcüməsində belədir, ibrani mətnində isə *oda.*

4 Düzənlikdə gördüyümə bənzər İsrail Allahının izzəti də orada idi.

5 O mənə dedi: «Ey bəşər oğlu, indi başını şimal tərəfə qaldır». Mən başımı şimal tərəfə qaldırıb gördüm ki, həmin qısqanclıq bütü qurbangah qapısının şimalında – giriş yerindədir. 6 O mənə dedi: «Ey bəşər oğlu, görürsənmi nə edirlər? İsrail nəsli burada çoxlu iyrənc işlər edir ki, Mən müqəddəs məkanımdan uzaqlaşım. Hələ bundan da iyrənc şeylər görəcəksən».

7 O məni həyətin giriş yerinə gətirdi. Mən baxıb gördüm ki, divarda bir dəlik var. 8 O mənə dedi: «Ey bəşər oğlu, gəl divarı dəl». Mən divarı dəlib gördüm ki, bir qapı var. 9 O mənə dedi: «İçəri gir, onların orada pis və iyrənc işlərini gör». 10 Mən içəri girib gördüm ki, hər cür sürünənlərin, mənfur heyvanların surəti və İsrail nəslinin bütlərinin hamısının təsviri hər tərəfdən divara çəkilib. 11 İsrail nəslinin ağsaqqallarından yetmiş nəfər onların önündə durmuşdu. Şafan oğlu Yaazanya da onların arasında dayanmışdı. Hər birinin əlində buxurdan var idi və buxurun ətri bulud kimi göyə qalxırdı. 12 O mənə dedi: «Ey bəşər oğlu, görürsənmi İsrail nəslinin ağsaqqalları öz bütlərinin otaqlarında, qaranlıq yerlərdə nə edir? Ona görə ki onlar "Rəbb bizi görmür, Rəbb ölkəni tərk etdi" deyir». 13 O yenə mənə dedi: «Hələ onların bundan da iyrənc işlərini görəcəksən».

14 O məni Rəbbin mə'bədinin şimal tərəfdəki qapısının giriş yerinə gətirdi. Mən gördüm ki, Tammuz bütü üçün ağlayan qadınlar orada oturub. 15 O mənə dedi: «Görürsənmi, bəşər oğlu? Hələ bundan da iyrənc şeylər görəcəksən».

16 O məni Rəbbin mə'bədinin içəri həyətinə gətirdi. Gördüm ki, Rəbbin mə'bədinin giriş yerində eyvanla qurbangah arasında arxaları Rəbbin mə'bədinə, üzləri isə şərqə çevrilmiş təxminən iyirmi beş kişi var. Onlar şərqə üz tutaraq günəşə sitayiş edirdi. 17 O mənə dedi: «Görürsənmi, bəşər oğlu? Məgər Yəhuda nəsli üçün burada etdikləri iyrənc işlər az idi ki, üstəlik ölkəni zorakılıqla doldurur və bununla Məni daha da qəzəbləndirirlər? Bax indi onlar budağı burnuma soxaraq Məni təhqir edir. 18 Buna görə Mən də qəzəblə rəftar edəcəyəm, onlara yazığım gəlməyəcək və

**8:4** – *Yez. 1:28*

rəhm etməyəcəyəm. Məni ucadan çağırsalar
da, onlara qulaq asmayacağam».

### *Yerusəlimin cəzalandırılması*

9 [1] Sonra Onun «qoy şəhəri
cəzalandıranların hər biri öz qırğın silahı
əlində şəhərə yaxınlaşsın» deyə ucadan
qışqırdığını eşitdim. [2] Mən gördüm ki, şimal
tərəfdəki yuxarı qapının yolu ilə altı nəfər
gəldi. Hər birinin toppuzu əlində idi. Onların
arasında kətan paltar geyinmiş, belində yazı
qutusu olan bir adam var idi. Onlar içəri girdi
və tunc qurbangahın yanında dayandı.
[3] İsrail Allahının izzəti dayandığı keruvun
üstündən qalxıb mə'bədin kandarına getdi.
Rəbb kətan paltar geyinmiş, belində yazı
qutusu olan adamı çağırıb [4] ona dedi:
«Yerusəlim şəhərini gəz və orada edilən
bütün iyrənc işlərdən ötrü ah-nalə edən
adamların alnına işarə qoy». [5] Sonra o biri
adamlara bunu dediyini eşitdim: «Onun
ardınca şəhəri gəzin və adamları qırın,
yazığınız gəlməsin və rəhm etməyin. [6] Qocanı,
cavanı, ərə getməmiş qızı, uşaqlarla qadınları
ölənəcən vurun. Ancaq üstündə işarə olan
adamlara toxunmayın. Mənim müqəddəs
məkanımdan başlayın». Onlar da mə'bədin
önündə olan ağsaqqalları qırmağa başladı.
[7] Rəbb onlara dedi: «Mə'bədi murdarlayın,
həyətləri cəsədlərlə doldurun. Haydı, işə
başlayın!» Sonra onlar gedib şəhərdəkiləri
qırdı. [8] Onlar adamları qırarkən mən tək
qalmışdım. Onda mən üzüstə düşərək fəryad
edib dedim: «Aman, ya Xudavənd Rəbb!
Yerusəlim üzərinə qəzəbini tökərkən İsrailin
bütün yerdə qalanlarını da həlak
edəcəksənmi?»
[9] O mənə dedi: «İsrail və Yəhuda nəslinin
təqsiri böyükdür, çox böyükdür. Ölkə qanla,
şəhər azğınlıqla doludur. Çünki onlar "Rəbb
ölkəni tərk etdi, Rəbb görmür" deyir.
[10] Mənim də onlara yazığım gəlməyəcək və
rəhm etməyəcəyəm, əməllərinin əvəzini
başlarına gətirəcəyəm». [11] Mən gördüm ki,
belində yazı qutusu olan, kətan paltar
geyinmiş adam «mənə əmr etdiyin şeyə əməl
etdim» deyib xəbər gətirdi.

### *Rəbbin izzəti mə'bədi tərk edir*

10 [1] Mən baxıb gördüm ki, keruvların
başı üzərindəki qübbənin üstündə göy yaqut
daşı kimi görünüşcə taxta bənzər bir şey
peyda oldu. [2] Rəbb kətan geyinmiş adama belə
söylədi: «Keruvların altında olan fırlanan
təkərlərin arasına girib keruvların arasından
iki ovuc odlu köz götür və şəhərin üzərinə
səpələ». O adam gözümün qabağında oraya
girdi. [3] O adam oraya girəndə keruvlar
mə'bədin cənub tərəfində durmuşdu. Bu
zaman bulud içəri həyətə doldu. [4] Rəbbin
izzəti keruvun üstündən qalxıb mə'bədin
kandarına getdi. Mə'bədi bulud bürüdü və
həyət Rəbbin izzətinin nuru ilə doldu.
[5] Keruvların qanadlarının səsi bayır həyətə
qədər gəlirdi. Bu səs Külli-İxtiyar Allah
danışdığı zaman çıxan səs kimi uca idi.
[6] Rəbb kətan geyinmiş adama «keruvların
və fırlanan təkərlərin arasından od götür»
deyə əmr edəndə o girib bir təkərin yanında
durdu. [7] Onda keruvlardan biri keruvların
arasından əlini uzadıb onların ortasında olan
odu götürdü və kətan geyinmiş adamın
ovcuna qoydu. O adam da odu götürüb çıxdı.
[8] Keruvların qanadları altında insan əlinə
bənzər bir şey göründü.
[9] Mən baxıb gördüm ki, keruvların yanında
dörd təkər və hər keruvun yanında bir təkər
var. Təkərlər sarı yaqut kimi parıldayırdı.
[10] Dördünün də görünüşü eyni cür idi, sanki
bir təkər o biri təkər içində yerləşmişdi.
[11] Getdikləri zaman dörd tərəfə hərəkət
edirdilər, gedərkən sağa-sola dönmürdülər.
Baş hansı tərəfə yönəlmişdisə, o tərəfə də
gedirdilər, gedərkən sağa-sola dönmürdülər.
[12] Onların bütün bədəni, kürəyi, əlləri,
qanadları və təkərləri – dördünün də təkərləri
hər tərəfdən gözlərlə dolu idi. [13] Mən bu
təkərlərə «fırlanan təkərlər» deyildiyini
eşitdim. [14] Canlı məxluqların hər birinin dörd
üzü var idi: birincisi keruv üzü, ikincisi insan
üzü, üçüncüsü aslan üzü və dördüncüsü qartal
üzü idi.
[15] Keruvlar yerdən qalxdı. Bunlar Kevar
çayının sahilində gördüyüm həmin canlı
məxluqlar idi. [16] Keruvlar gedəndə onların
yanında olan təkərlər də gedirdi. Keruvlar
yerdən qalxmaq üçün qanadlarını qaldıranda
təkərlər də onların yanından ayrılmırdı.

---

***9:4*** *– Vəhy 7:2-3; 9:4; 14:1*
***10:1*** *– Yez. 1:26; Vəhy 4:2*
***10:2*** *– Vəhy 8:5*
***10:9-13*** *– Yez. 1:15-21*
***10:12*** *– Vəhy 4:8*
***10:14*** *– Yez. 1:10; Vəhy 4:7*

[17] Onlar dayananda bunlar da dayanırdı, onlar
yerdən qalxanda bunlar da birlikdə yerdən
qalxırdı, çünki canlı məxluqların ruhu
təkərlərdə idi.

[18] Rəbbin izzəti mə'bədin kandarından çıxdı
və keruvların üstündə durdu. [19] Keruvlar
gedəndə qanadlarını qaldırıb gözümün
önündə yerdən qalxdı, təkərlər də yanlarında
idi. Onlar Rəbbin mə'bədinin şərq
darvazasının giriş yerində dayandı. İsrail
Allahının izzəti yuxarıda, onların üzərində idi.

[20] Bunlar Kevar çayının sahilində İsrail
Allahının altında gördüyüm həmin canlı
məxluqlar idi. Mən bildim ki, onlar keruvdur.
[21] Hər birinin dörd üzü və dörd qanadı var idi.
Qanadları altında insan əllərinə bənzər bir şey
var idi. [22] Onların üzlərinin bənzəyişi Kevar
çayı sahilində gördüyüm üzlərə oxşayırdı. Hər
biri üz tutduğu tərəfə irəliləyirdi.

### *Allahın cəzası*

11 [1] Ruh məni yerdən qaldırdı və şərqə
yönəlmiş Rəbbin mə'bədinin şərq
darvazasına gətirdi. Orada darvazanın
girəcəyində iyirmi beş nəfər var idi. Mən
onların arasında xalqın başçıları Azzur oğlu
Yaazanyanı və Benaya oğlu Pelatyanı gördüm.
[2] Rəbb mənə dedi: «Ey bəşər oğlu, pis şeylər
niyyət edən və bu şəhərdə bəd məsləhətlər
verən adamlar bunlardır. [3] Onlar "ev tikmək
vaxtı deyil. Şəhər qazan, bizsə ətik" deyir.
[4] Buna görə də onlara qarşı peyğəmbərlik et,
ey bəşər oğlu, peyğəmbərlik et».

[5] Rəbbin Ruhu üzərimə endi və mənə dedi:
«Söylə ki, Rəbb belə deyir: "Ey İsrail nəsli,
siz nə deyirsiniz, nə düşünürsünüz, Mən
bilirəm. [6] Bu şəhərdə çoxlu adam öldürdünüz,
şəhərin küçələrini ölülərlə doldurdunuz".
[7] Buna görə də Xudavənd Rəbb belə deyir:
"Şəhərdə qoyduğunuz ölülər ət, şəhərsə
qazandır. Ancaq Mən sizi şəhərdən
çıxaracağam. [8] Siz qılıncdan qorxursunuz,
Mən də üstünüzə qılınc gətirəcəyəm"
Xudavənd Rəbb belə bəyan edir. [9] "Mən sizi
şəhərdən çıxarıb yadellilərə təslim edəcəyəm.
Sizi beləcə cəzalandıracağam. [10] Qılıncla
həlak olacaqsınız. Sizi İsrail ərazisində
cəzalandıracağam. Onda biləcəksiniz ki, Rəbb
Mənəm. [11] Bu şəhər sizə qazan olmayacaq, siz
də onun içində ət olmayacaqsınız. Sizi İsrail
ərazisində cəzalandıracağam. [12] Onda
biləcəksiniz ki, Rəbb Mənəm. Siz
qaydalarıma əməl etmədiniz, hökmlərimi
yerinə yetirmədiniz, ətrafınızda olan
millətlərin hökmlərinə görə davrandınız"».

[13] Mən peyğəmbərlik edən zaman Benaya
oğlu Pelatya öldü. Mən üzüstə yerə yıxıldım
və ucadan fəryad edib dedim: «Aman, ya
Xudavənd Rəbb! Məgər Sən İsrailin yerdə
qalanlarını tamamilə məhv edəcəksən?»

[14] Onda mənə Rəbbin bu sözü nazil oldu:
[15] «Öz qohum-əqrəbana, qəyyumlarına və
bütün İsrail nəslinə gəlincə, ey bəşər oğlu,
Yerusəlimdə yaşayanlar onların hamısına belə
deyir: "Rəbdən uzaq olun. Bu ölkə mülk
olaraq bizə verildi". [16] Buna görə də söylə ki,
Xudavənd Rəbb belə deyir: "Onları uzaqdakı
millətlərin arasına aparıb ölkələr arasına
səpələdimsə də, onlar üçün getdikləri
ölkələrdə qısa bir müddət müqəddəs məkan
oldum". [17] Buna görə də söylə ki, Xudavənd
Rəbb belə deyir: "Sizi xalqlar arasından
toplayacağam, səpələndiyiniz ölkələrdən
yığıb bir yerə gətirəcəyəm, İsrail torpağını
sizə verəcəyəm. [18] Oraya qayıdanda bütün
mənfur və iyrənc şeyləri o yerdən yox
edəcəklər. [19] Mən onlara eyni ürək verəcəyəm,
onların daxilinə yeni ruh qoyacağam.
Köksləriндən daş ürəyi çıxarıb onlara ətdən
olan ürək verəcəyəm ki, [20] qaydalarıma əməl
etsinlər, hökmlərimi saxlayıb yerinə
yetirsinlər. O zaman onlar Mənim xalqım,
Mən də onların Allahı olacağam. [21] Ancaq
ürəkləri öz mənfur və iyrənc şeylərinin
ardınca gedənlərə gəlincə, Mən onların
əməllərinin əvəzini başlarına gətirəcəyəm"
Xudavənd Rəbb belə bəyan edir».

[22] Bu zaman keruvlar qanadlarını qaldırdı,
təkərlər də onların yanında idi. İsrail
Allahının izzəti yuxarıda, onların üzərində idi.
[23] Rəbbin izzəti şəhərin mərkəzindən qalxdı
və şəhərin şərqindəki dağın üzərində dayandı.
[24] Ruh məni qaldırıb Allahın Ruhundan gələn
görüntüdə Xaldey ölkəsinə, sürgün
olunanların yanına gətirdi. Sonra mənə
görünən görüntü qeyb oldu. [25] Rəbbin mənə
göstərdiyi şeylərin hamısını sürgündə olanlara
danışdım.

---

***11:19-20*** – *Yez. 36:26-28*
***11:22-23*** – *Yez. 43:2-5*

### *Sürgünün rəmzi*

12 1 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, sən asi bir xalqın
arasında yaşayırsan. Onların görmək üçün
gözləri var, ancaq görmürlər, eşitmək üçün
qulaqları var, ancaq eşitmirlər, çünki onlar asi
bir xalqdır. 3 Ey bəşər oğlu, sən sürgünə
getmək üçün şeylərini hazırla və onların gözü
önündə günün günorta çağı köç, onların gözü
önündə öz yerindən başqa bir yerə köç et. Asi
bir xalq olsalar da, bəlkə bunu başa düşdülər.
4 Öz şeylərini sürgünə getmək üçün lazım
olan şeylər kimi onların gözü önündə günün
günorta çağı çıxart. Özün də hamının gözü
önündə axşamüstü sürgünə gedən kimi çıx.
5 Onların gözü önündə divarda deşik aç və
şeylərini oradan çıxart. 6 Hamının gözü
önündə şeylərini çiyanində daşı və qaranlıqda
çıxart. Üzünü də ört ki, torpağı görməyəsən,
çünki səni İsrail nəslinə əlamət göstərirəm».
7 Mənə necə əmr olunmuşdusa, eləcə də
etdim. Şeylərimi sürgünə getmək üçün lazım
olan şeylər kimi günün günorta çağı çıxartdım
və axşamüstü divarı əllərimlə deşdim.
Şeylərimi qaranlıqda çıxartdım və onların
gözü önündə çiynimdə daşıdım.
8 Səhər tezdən mənə Rəbbin bu sözü nazil
oldu: 9 «Ey bəşər oğlu, İsrail nəsli – o asi xalq
sənə "Nə edirsən?" demədimi? 10 Sən onlara
söylə ki, Xudavənd Rəbb belə deyir: "Bu
xəbərdarlıq Yerusəlimdə olan rəhbər və orada
yaşayan bütün İsrail nəsli üçündür". 11 Sən
belə de: "Mən sizin üçün əlamətəm. Mən necə
etdimsə, onlara da belə ediləcək, sürgünə və
əsarətə gedəcəklər. 12 Aralarında yaşayan
rəhbər şeylərini qaranlıqda çiynində
daşıyacaq və bayıra çıxacaq. Şeylərini
çıxarmaq üçün divarı deşəcəklər. O, üzünü
örtəcək ki, torpağı gözləri ilə görməsin.
13 Onun üstünə tor sərəcəyəm və Mənim
tələmə düşəcək. Onu Babilə – Xaldey
ölkəsinə gətirəcəyəm. Oranı görməyəcək,
amma orada öləcək. 14 Ətrafındakıların
hamısını – köməkçilərini və bütün qoşunlarını
küləyin əsdiyi dörd tərəfə səpəcək və onların
arxasınca qılınc çəkəcəyəm. 15 Mən onları
millətlər arasına yayanda və başqa ölkələr
arasına səpələyəndə biləcəklər ki, Rəbb
Mənəm. 16 Ancaq onlardan bir azını qılıncdan,
aclıqdan və vəbadan sağ buraxacağam ki, öz
iyrənc işlərinin hamısını aralarına gedəcəkləri
millətlərə danışsınlar. Onda biləcəklər ki,
Rəbb Mənəm"».
17 Mənə Rəbbin bu sözü nazil oldu: 18 «Ey
bəşər oğlu, çörəyini titrəyərək ye, suyunu əsə-
əsə, qorxu ilə iç. 19 Ölkə xalqına söylə ki,
İsrail torpağında, Yerusəlimdə yaşayanlar
üçün Xudavənd Rəbb belə deyir: "Onlar
çörəklərini qorxu ilə yeyəcək, sularını
dəhşətlə içəcək, çünki orada yaşayanların
hamısının zorakılığından ötrü ölkələri
bolluqdan məhrum olacaq. 20 Adam yaşayan
şəhərlər viran olacaq və ölkə xarabalığa
çevriləcək. Onda biləcəksiniz ki, Rəbb
Mənəm"».
21 Mənə Rəbbin bu sözü nazil oldu: 22 «Ey
bəşər oğlu, İsrail torpağında nə üçün "günlər
keçir, hər görüntü puç olur" məsəlini
işlədirsiniz? 23 Buna görə də onlara söylə ki,
Xudavənd Rəbb belə deyir: "Bu məsələ son
qoyacağam, artıq İsraildə bu məsəli
işlətməyəcəklər. Ancaq sən onlara söylə ki,
hər görüntünün yerinə yetəcəyi günlər
yaxınlaşdı. 24 Daha bundan sonra İsrail
nəslinin arasında heç bir boş görüntü və
aldadıcı falçılıq olmayacaq. 25 Çünki Rəbb
Mənəm, Mən deyirəm və dediyim söz yerinə
yetir, artıq tə'xirə salınmır. Ey asi xalq, bu
sözü sizin dövrünüzdə deyirəm və onu yerinə
yetirəcəyəm" Xudavənd Rəbb belə bəyan
edir».
26 Mənə Rəbbin bu sözü nazil oldu: 27 «Ey
bəşər oğlu, İsrail nəsli belə deyir: "Ona gələn
görüntü uzun müddət sonra olacaq, o, uzaq
gələcək barədə peyğəmbərlik edir". 28 Buna
görə də onlara söylə ki, Xudavənd Rəbb belə
deyir: "Heç bir sözümü tə'xirə salmayacağam,
dediyim söz yerinə yetəcək" Xudavənd Rəbb
belə bəyan edir».

### *Yalançı peyğəmbərlərin cəzalanması*

13 1 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, peyğəmbərlik edən
İsrail peyğəmbərlərinə qarşı peyğəmbərlik et
və öz-özlərindən peyğəmbərlik edən adamlara
söylə ki, Rəbbin sözünü eşitsinlər. 3 Xudavənd
Rəbb belə deyir: "O axmaq peyğəmbərlərin
vay halına! Onlar öz ruhları ilə ilhamlanır və
heç bir vəhy almayıb. 4 Ey İsrail, sənin
peyğəmbərlərin viranəliklərdə dolaşan
tülkülərə bənzəyir. 5 Ey peyğəmbərlər, siz

---

***12:2*** *– Yeş. 6:9-10; Yer. 5:21; Mrk. 8:18*
***12:13*** *– 2Pad. 25:7; Yer. 52:11*

divarın dəliklərinə çıxmadınız, Rəbbin
günündə döyüşdə bərk dayanmaq üçün İsrail
nəslinin ətrafında divar qurmadınız. [6] Onlar
boş şeylər görərək falçılıq edib yalan danışır.
Söyləyirlər ki, bunu Rəbb bəyan edir, Rəbb
isə onları göndərməyib. Yenə də ümid verirlər
ki, sözləri yerinə yetəcək. [7] Sizin gördüyünüz
görüntü boş və etdiyiniz falçılıq yalan deyilmi?
Siz bunlara ‹Rəbb bəyan edir› deyirsiniz,
Mənsə belə söyləmədim”.

[8] Buna görə də Xudavənd Rəbb belə deyir:
“İndi ki boş sözlər söyləyib yalan şeylər
gördünüz, Mən sizə qarşıyam” Xudavənd
Rəbb belə bəyan edir. [9] “Mən boş şeylər görən
və falçılıq edib yalan danışan peyğəmbərləri
Öz əlimlə cəzalandıracağam. Onlar Mənim
xalqımın məclisində olmayacaq, İsrail
nəslinin siyahısına yazılmayacaq və İsrail
torpağına girməyəcək. Onda biləcəksiniz ki,
Xudavənd Rəbb Mənəm. [10] Bunu ona görə
edəcəyəm ki, onlar sülh olmadığı halda ‹sülh›
deyib xalqımı azdırır. Biri bünövrəsiz divar
tikəndə o biri ona suvaq vurur. [11] Sən suvaq
vuranlara söylə ki, o divar uçacaq. Şiddətli
yağış yağacaq və dolu dənələrini yerə
salacağam. Tufan küləyi divara qarşı əsəcək.
[12] Bəs divar uçanda sizə ‹vurduğunuz suvaq
necə oldu› deməyəcəklərmi?”

[13] Buna görə də Xudavənd Rəbb belə deyir:
“Mən Öz qəzəbimlə tufan küləyi əsdirib, Öz
hiddətimlə şiddətli yağış və dolu
yağdıracağam ki, divar qızğınlığımla məhv
olsun. [14] Beləcə suvaq vurduğunuz divarı
uçurub yerlə yeksan edəcəyəm və bünövrəsi
görünəcək. Siz də yıxılan divarın altında
həlak olacaqsınız. Onda biləcəksiniz ki, Rəbb
Mənəm. [15] Öz qızğınlığımı divarın və ona
suvaq vuranların üzərində söndürəcəyəm.
Sizə deyəcəyəm ki, divar da yoxdur, ona
suvaq vuran İsrail peyğəmbərləri də. [16] O
peyğəmbərlər Yerusəlim üçün peyğəmbərlik
edir və sülh olmadığı halda orada sülh olacağı
barədə görüntülər görür” Xudavənd Rəbb belə
bəyan edir.

[17] Sən ey bəşər oğlu, öz-özlərindən
peyğəmbərlik edən xalqının qadınlarına
üzünü tut və onların əleyhinə peyğəmbərlik
edib [18] söylə ki, Xudavənd Rəbb belə deyir:
“Canları ovlamaq üçün hər kəsin biləyinə
yastıqçalar tikən və hər boyda olan adamın
başına örtüklər düzəldən qadınların vay halına!
Elə bilirsiniz ki, xalqımın canlarını ovlamaqla
öz canınızı salamat saxlayacaqsınız?
[19] Xalqımın önündə bir neçə ovuc arpa və bir
neçə parça çörək üçün Məni izzətdən saldınız.
Yalana qulaq asan xalqıma yalan söyləyərək
ölməyə layiq olmayanları öldürdünüz və
yaşamağa layiq olmayanları yaşatdınız”.

[20] Buna görə də Xudavənd Rəbb belə deyir:
“İndi Mən sizin ovsun yastıqçalarınıza
qarşıyam. Həmin yastıqçalarla siz orada
adamları quş kimi ovlayırsınız. Mən onları
qollarınızdan qoparacağam. Quş kimi
ovladığınız adamları azad edəcəyəm.
[21] Örtüklərinizi də yırtacaq və xalqımı
əlinizdən qurtaracağam. Onlar daha bir ov
kimi sizin əlinizdə əsir olmayacaq. Onda
biləcəksiniz ki, Rəbb Mənəm. [22] Mənim
kədərlənməsini istəmədiyim salehin ürəyini
siz yalanlarla kədərləndirdiniz, pis adamın
qoluna güc verdiniz ki, öz pis yolundan
dönməsin və canını qurtarmasın. [23] Buna görə
də artıq boş görüntülər görməyəcək və falçılıq
etməyəcəksiniz. Mən Öz xalqımı sizin
əlinizdən qurtaracağam. Onda biləcəksiniz ki,
Rəbb Mənəm”».

### *Rəbb bütpərəstliyi pisləyir*

14 [1] İsrail ağsaqqallarından bə’zisi
yanıma gəlib önümdə oturdu. [2] Onda
mənə Rəbbin bu sözü nazil oldu: [3] «Ey bəşər
oğlu, bu adamlar öz bütlərinə könül verdi və
təqsir etmələrinə bais olan şeyləri üzləri
önünə qoydu. Bundan sonra Mən onlara
cavab verəcəyəmmi? [4] Buna görə də onlara
müraciət edib söylə ki, Xudavənd Rəbb belə
deyir: “İsrail nəslindən öz bütlərinə könül
verib təqsir etmələrinə bais olan şeyləri üzləri
önünə qoyanlar peyğəmbərə müraciət etsə,
Mən Rəbb onlara bütlərinin çoxluğuna görə
cavab verəcəyəm. [5] Ona görə ki bütlərindən
ötrü Mənə yad olan bütün İsrail nəslinin
ürəyini yenidən Özümə cəlb edim”.

[6] Buna görə də İsrail nəslinə söylə ki,
Xudavənd Rəbb belə deyir: “Bütlərinizdən
dönün, onları rədd edin və bütün iyrənc
işlərinizdən üz döndərin. [7] Əgər İsrail
nəslindən hər kəs və İsraildə yaşayan
qəriblərdən kimsə Məni tərk etsə, öz bütünə
könül versə, təqsir etmələrinə bais olan bir
şeyi üzü önünə qoysa, sonra özü barədə
Məndən soruşmaq üçün peyğəmbərə müraciət
etsə, Mən Rəbb Özüm ona cavab verəcəyəm.

***13:10*** *– Yer. 6:14; 8:11*

8 Mən üzümü həmin adama qarşı çevirəcəyəm,
onu ibrət və kinayə hədəfi edəcəyəm,
xalqımın arasından silib atacağam. Onda
biləcəksiniz ki, Rəbb Mənəm.
9 Əgər peyğəmbər yoldan azıb bir söz
söyləsə, bilin ki, o peyğəmbərin yoldan
azmasına səbəb olan Mən Rəbbəm. Mən ona
qarşı əlimi qaldıracaq və onu xalqım İsrailin
arasından silib-atacağam. 10 Onlar öz
təqsirlərinin cəzasını çəkəcək. Peyğəmbərdən
soruşanın cəzası necə olacaqsa, peyğəmbərin
də cəzası elə olacaq. 11 Bunu ona görə
edəcəyəm ki, İsrail nəsli bir də Mənim
yolumdan sapmasın və bir daha bütün
günahları ilə özlərini murdar etməsin. Beləcə
onlar Mənim xalqım, Mən də onların Allahı
olacağam" Xudavənd Rəbb belə bəyan edir».
12 Mənə Rəbbin bu sözü nazil oldu: 13 «Ey
bəşər oğlu, əgər bir ölkə Mənə xain çıxıb
günah edərsə, Mən ona qarşı əlimi qaldıraram,
çörəyinin kökünü kəsib üstünə aclıq
göndərərəm və oradan insanla heyvanı silib
ataram. 14 "Əgər Nuh, Daniel və Əyyub – bu
üç adam orada olsa belə, salehlikləri ilə ancaq
öz canlarını qurtarar" Xudavənd Rəbb belə
bəyan edir. 15 "Əgər Mən bu ölkəyə vəhşi
heyvanlar göndərsəm, onlar oranı sakinsiz
qoysa və o torpaq bu heyvanlara görə xaraba
qalıb keçilməz olsa, 16 bu üç adam orada olsa
belə" bəyan edir Xudavənd Rəbb, "varlığıma
and olsun, nə oğullarını, nə də qızlarını
qurtarar, yalnız öz canlarını qurtarar, ölkə isə
xaraba qalar. 17 Yaxud o ölkənin üzərinə qılınc
gətirsəm və ona ‹ey qılınc, ölkəni qırıb keç›
deyərək insanı və heyvanı oradan silib atsam,
18 bu üç adam orada olsa belə" bəyan edir
Xudavənd Rəbb, "varlığıma and olsun, nə
oğullarını, nə də qızlarını qurtarar, yalnız öz
canlarını qurtarar. 19 Yaxud o ölkəyə vəba
göndərsəm, qan tökməklə onun üstünə
qəzəbimi yağdıraraq insanı və heyvanı oradan
silib atsam, 20 Nuh, Daniel və Əyyub orada
olsa belə" bəyan edir Xudavənd Rəbb,
"varlığıma and olsun, nə oğullarını, nə də
qızlarını qurtarar, salehlikləri ilə yalnız öz
canlarını qurtarar".
21 Çünki Xudavənd Rəbb belə deyir: "Hələ
Mən Yerusəlimdən insanı və heyvanı silib
atmaq üçün dörd ağır cəzamı – qılıncı, aclığı,
vəhşi heyvanları və vəbanı onun üzərinə
göndərəndə daha nələr olacaq! 22 Amma orada
bir dəstə salamat qalacaq. Sağ qalan oğlan və
qızlar oradan çıxarılıb sizin yanınıza gələcək.
Siz də onların əməllərini və işlərini
görəcəksiniz. Onda Yerusəlim üzərinə
gətirdiyim bəlaya görə, oraya etdiyim hər
şeydən ötrü təsəlli tapacaqsınız. 23 Onların
əməllərini və işlərini gördüyünüz zaman bu
sizə təsəlli olacaq. Onda biləcəksiniz ki, oraya
etdiyim hər şeyi boş-boşuna etmədim"
Xudavənd Rəbb belə bəyan edir».

### *Yerusəlimin tənəklə müqayisəsi*

15 1 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, üzüm tənəyinin
ağacı hər hansı bir meşə ağacındakı budağın
ağacından nə ilə üstündür? 3 Bir işdə istifadə
etmək üçün ondan ağac alınırmı? Üstünə
əşyalar asmaq üçün ondan payacıq
düzəldilirmi? 4 Budur, o yanmaq üçün oda
atılır. Od onun uclarını yandırandan və ortası
qovrulandan sonra daha bir işə yarayarmı?
5 Bütöv olanda da bir işə yaramırdı, od onu
yandırıb-qurtaranda və ortası qovrulanda heç
bir işə yaramayacaq.
6 Buna görə də Xudavənd Rəbb belə deyir:
"Meşə ağacları arasında üzüm tənəyini yanan
şey kimi necə oda verdimsə, Yerusəlimdə
yaşayanları da eləcə oda atacağam. 7 Mən
üzümü onlara qarşı çevirəcəyəm. Oddan
qaçsalar da, od yenə onları yandıracaq.
Üzümü onlara qarşı çevirəndə biləcəksiniz ki,
Rəbb Mənəm. 8 Ölkəni viran edəcəyəm, çünki
onlar xainlik etdi" Xudavənd Rəbb belə bəyan
edir».

### *Xəyanət etmiş Yerusəlim*

16 1 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, murdar əməllərini
Yerusəlimə bildirib söylə ki, 3 Xudavənd
Rəbb Yerusəlimə belə deyir: "Əslin və
mənşəyin Kən'an torpağındandır: atan
Emorludur, anan isə Xetli. 4 Doğulduğun gün
göbək bağın kəsilmədi, səni su ilə yuyub
təmizləmədilər, duzla ovulmadın və qundağa
bələnmədin. 5 Heç kəs sənə şəfqətlə baxmadı,
rəhm etmədi ki, bunların birini sənə etsin.
Doğulduğun gün səndən iyrəndikləri üçün
çölə atıldın.
6 Mən sənin yanından keçərkən öz qanın
içində qımıldandığını gördüm və öz qanında
ikən sənə ‹Yaşa!› dedim. Bəli, öz qanında
ikən sənə ‹Yaşa!› dedim. 7 Səni çöl bitkiləri

***14:21*** *– Vəhy 6:8*

kimi çoxaltdım. Sən boy atıb böyüdün və
həddi-büluğa çatdın. Döşlərin böyüdü,
saçların uzandı. Ancaq sən lüt və çılpaq idin.
8 Mən yanından keçəndə səni gördüm. Bu
vaxt sənin məhəbbət çağın idi. Mən sənin
üstünə ətəyimi atıb çılpaqlığını örtdüm. And
edib səninlə əhd bağladım" bəyan edir
Xudavənd Rəbb, "sən də Mənim oldun. 9 Mən
səni su ilə yudum, qanını tamamilə üstündən
təmizlədim, yağla məsh etdim. 10 Sənə əlvan
naxışlı paltar geyindirdim, ayağına
yunusbalığı dərisindən çarıq geydirdim,
belinə incə kətan qurşaq bağladım və səni
ipəklərlə örtdüm. 11 Səni bəzəklərlə bəzədim,
qollarına bilərzik, boynuna zəncir taxdım.
12 Burnuna halqa, qulaqlarına sırğa keçirdim
və başına şərəf tacı qoydum. 13 Sən qızıl-
gümüşlə bəzəndin, incə kətandan, ipəkdən və
əlvan naxışlı qumaşdan paltar geyindin. Narın
un, bal və zeytun yağı yedin. Həddindən artıq
gözəl oldun və padşahlıq əzəmətinə yüksəldin.
14 Gözəlliyinə görə millətlər arasında
şöhrətləndin. Mənim sənə bəxş etdiyim
əzəmətdən ötrü gözəlliyin qüsursuz idi"
Xudavənd Rəbb belə bəyan edir.

15 "Ancaq sən gözəlliyinə güvəndin,
şöhrətləndiyinə görə fahişəlik etdin, hər
yoldan keçənə özünü təslim edib pozğunluq
etdin. 16 Öz paltarlarından götürüb özünə
müxtəlif səcdəgahlar düzəltdin və onların
üstündə fahişəlik etdin. Beləsi nə olmuşdu, nə
də olacaq. 17 Mənim sənə verdiyim qızıl-
gümüşümdən hazırlanan zinətlərini götürüb
özünə kişi surətləri düzəltdin və onlarla
pozğunluq etdin. 18 Əlvan naxışlı paltarını
götürüb onların üstünə örtdün, zeytun yağımı
və buxurumu onların önünə qoydun. 19 Sənə
verdiyim çörəyimi, sənə yedirdiyim narın unu,
zeytun yağını və balı da ətirli buxur olaraq
onların önünə qoydun. Bu iş baş verdi"
Xudavənd Rəbb belə bəyan edir.

20 "Mənim üçün doğduğun oğul və qızlarını
götürüb bütlərə yemək olsun deyə qurban
etdin. Fahişəliyin az idi ki, 21 hələ övladlarımı
da kəsdin və onları bütlərə təqdim etdin?
22 Bütün iyrənc işlərini və fahişəliyini edərkən
öz cavanlıq günlərini xatırlamadın, o zaman
lüt və çılpaq idin, öz qanın içində
qımıldanırdın".

23 Xudavənd Rəbb bəyan edir: "Vay, vay
sənin halına! Sən bütün pis əməllərindən
sonra 24 özünə fahişəlik yuvaları qurdun və hər
meydanda səcdəgahlar düzəltdin. 25 Hər yolun
başında öz səcdəgahlarını düzəltdin. Öz
gözəlliyini murdar etdin, hər yoldan keçənə
ayaqlarını araladın və fahişəliyini artırdın.
26 Cinsiyyət üzvləri böyük olan qonşuların
Misirlilərlə pozğunluq etdin, Məni
qəzəbləndirmək üçün fahişəliyini artırdın.
27 Buna görə də əlimi sənə qarşı uzadıb sənə
tə'yin olunan yeməyi azaltdım. Sənə nifrət
edən Filişt qızları səninlə istədikləri kimi
rəftar etsinlər deyə səni onlara təslim etdim.
Hətta onlar sənin əxlaqsız əməllərindən utanır.
28 Aşşurlularla da pozğunluq etdin, çünki
doymurdun. Onlarla pozğunluq etdin, ancaq
bu da sənə kifayət etmədi. 29 Öz
pozğunluğunu ticarət ölkəsi olan Xaldey
torpağına qədər yaydın, ancaq bu da sənə
kifayət etmədi".

30 Xudavənd Rəbb bəyan edir: "Bütün
bunları edərkən ürəyin nə qədər aciz oldu, sən
həyasız fahişə kimi davrandın. 31 Hər yolun
başında fahişəlik yuvaları qurarkən, bütün
meydanlarda səcdəgahlar düzəldərkən hətta
fahişə kimi də olmadın, çünki işinin əvəzində
verilən hədiyyəyə xor baxdın. 32 Zina edən,
ərinin əvəzinə yadları qəbul edən bir qadın
oldun. 33 Bütün fahişələrə hədiyyə verirlər,
ancaq bütün oynaşlarına sən hədiyyələr
verirsən. Onlara rüşvət verirsən ki, hər
tərəfdən sənin yanına gəlsinlər və səninlə
pozğunluq etsinlər. 34 Fahişəlik etməkdə başqa
qadınlara bənzəmirsən, çünki heç kəs sənin
dalınca düşmür ki, fahişəlik edəsən, əksinə,
bunun üçün sən hədiyyə verirsən, sənə
hədiyyə verilmir. Bu cəhətdən başqalarına
bənzəmirsən".

35 Buna görə də, ey fahişə, Rəbbin sözünə
qulaq as. 36 Xudavənd Rəbb belə deyir:
"Həyasızlığın aşkara çıxdığı üçün,
oynaşlarınla fahişəlik edərkən çılpaqlığın
açıldığı üçün, bütün iyrənc bütlərindən və
onlara qurban verdiyin oğullarının qanından
ötrü – 37 bütün bunlara görə əyləndiyin bütün
oynaşlarını – sənin sevdiklərini də, nifrət
etdiklərini də bir yerə yığacağam. Onları hər
tərəfdən sənə qarşı bir yerə yığacağam.
Onların önündə səni çılpaq edəcəyəm və
ayıbını bütünlüklə görəcəklər. 38 Zina edən və
qan tökən qadınlara verilən cəza ilə səni
cəzalandıracaq, qanlı qəzəbimə və
qısqanclığıma təslim edəcəyəm. 39 Səni
oynaşlarının əlinə verəcəyəm. Fahişəlik

yuvalarını dağıdacaq, səcdəgahlarını uçuracaq,
paltarlarını əynindən soyunduracaq,
zinətlərini əlindən alacaq, səni lüt və çılpaq
qoyacaqlar. 40 Camaatı üzərinə qaldıracaq,
səni daşqalaq edəcək və qılıncları ilə tikə-tikə
doğrayacaqlar. 41 Evlərinə od vuracaq, çoxlu
qadının gözü önündə səni cəzalandıracaqlar.
Fahişəliyinə son qoyacağam və daha
oynaşlarına hədiyyə verməyəcəksən. 42 Beləcə
sənin üzərində qəzəbimi yatırdacağam,
qısqanclığımı söndürəcəyəm. Mən susacağam
və bir daha qəzəblənməyəcəyəm. 43 İndi ki sən
cavanlıq günlərini yadına salmadın və bütün
bu əməllərinlə Məni hiddətləndirdin, Mən də
əməllərinin əvəzini başına gətirəcəyəm”
bəyan edir Xudavənd Rəbb. “Bütün iyrənc
işlərinə əlavə olaraq pozğunluq etmədinmi?

44 Bax məsəl söyləyən hər kəs sənə qarşı bu
məsəli deyəcək: ‹Anası necədirsə, qızı da
elədir›. 45 Sən ərindən və övladlarından ikrah
edən ananın qızısan, sən ərlərindən və
övladlarından ikrah edən bacılarının bacısısan.
Ananız Xetli, atanız isə Emorlu idi.

46 Böyük bacın öz qızları ilə sənin şimalında
yaşayan Samariyadır. Kiçik bacın isə qızları
ilə sənin cənubunda yaşayan Sodomdur.
47 Ancaq sən onların yolu ilə də getmədin,
onların etdiyi iyrənc işlər qədər də etmədin.
Bütün bunları kiçik bir iş sayıb öz əməllərində
onlardan da pozğun oldun. 48 Varlığıma and
olsun” bəyan edir Xudavənd Rəbb, “bacın
Sodomla qızları səninlə qızlarının etdiyi işləri
etmədi. 49 Bacın Sodomun və onun qızlarının
günahı bundan ibarət idi: qürur, toxluq və
qayğısızlıq içində yaşayarkən məzluma və
fəqirə əl tutmadılar. 50 Qürurlanıb Mənim
önümdə iyrənc işlər etdilər. Mən bunu
görəndə onları rədd etdim.

51 Samariya sənin etdiyin günahların
yarısını belə, etməmişdi. İyrənc işlərdə onları
da ötüb keçdin. Beləcə etdiyin iyrənc işlərlə
bacılarını saleh kimi göstərdin. 52 Sən də öz
rüsvayçılığının yükünü daşı, çünki bacılarını
təmizə çıxardın. Etdiyin günahlar
onlarınkından da iyrənc olduğuna görə onlar
səndən saleh göründü. Xəcalətindən utan, öz
rüsvayçılığının yükünü daşı, çünki bacılarını
saleh kimi göstərdin.

53 Sodomdan və onun qızlarından sürgün
olunmuşları, Samariyadan və onun
qızlarından sürgün olunmuşları, onlarla birgə
səndən sürgün olunmuşları yenidən öz
yerlərinə qaytaracağam. 54 Onda öz
rüsvayçılığının yükünü daşıyacaqsan və
etdiyin hər işdən utanacaqsan, çünki sən
onlara təsəlli oldun. 55 Bacıların Sodomla
qızları əvvəlki vəziyyətlərinə qayıdacaq,
Samariya ilə qızları əvvəlki vəziyyətlərinə
qayıdacaq, sən və qızların da əvvəlki
vəziyyətinizə qayıdacaqsınız. 56 Pisliyin üzə
çıxmadan, qürurlu olduğun günlərdə bacın
Sodomun adını çəkməzdin. 57 İndi sən
ətrafındakıların hamısı ilə birgə Aram qızları
və Filişt qızları – səni təhqir edən ətraf xalqlar
tərəfindən rüsvay edilirsən. 58 Sən
pozğunluğunun və iyrənc əməllərinin cəzasını
çəkəcəksən” Rəbb belə bəyan edir.

59 Bəli, Xudavənd Rəbb belə deyir: “Sən
əhdi pozub anda xor baxdın. Buna görə də sən
necə etdinsə, Mən də sənə elə edəcəyəm.
60 Ancaq Mən cavanlıq günlərində səninlə
etdiyim əhdimi yada salacağam. Səninlə əbədi
bir əhd bağlayacağam. 61 Səndən böyük və
səndən kiçik bacılarını yanına aldığın zaman
öz əməllərini yada salıb utanacaqsan. Qızların
olmaq üçün onları sənə verəcəyəm, amma
səninlə bağladığım əhddə bu yox idi.
62 Səninlə yenidən əhd bağlayacağam və
biləcəksən ki, Rəbb Mənəm. 63 Eləcə bütün
etdiklərini bağışladığım zaman bunu yada
salıb utanacaqsan, rüsvayçılığından bir daha
ağzını açmayacaqsan” Xudavənd Rəbb belə
bəyan edir».

### *İsrailin qartal və tənəklə müqayisəsi*

17 1 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, İsrail nəslinə bir
tapmaca de və bir məsəl danışıb 3 söylə ki,
Xudavənd Rəbb belə deyir: “Qanadları böyük,
lələkləri uzun, üstü rəngbərəng tüklərlə dolu
iri bir qartal Livana uçdu və sidr ağacının
başından bir zoğ götürdü. 4 Onun körpə
budaqlarının başını qoparıb ticarət ölkəsinə
apardı və onu tacirlər şəhərinə qoydu. 5 O
torpağın toxumunu götürüb bərəkətli torpaqda
əkdi. Söyüd ağacı əkilən kimi onu gur axan
suların kənarında yerləşdirdi. 6 O da böyüyüb
enli, balacaboy bir üzüm meynəsi oldu.
Budaqları qartala doğru əyilirdi, kökləri isə
altında qalırdı. Beləcə şaxə verən, budaq salan
bir üzüm tənəyi oldu.

7 Böyük qanadları, çoxlu tükləri olan başqa
iri qartal da var idi. Üzüm tənəyi köklərini
ona tərəf döndərdi, budaqlarını əkildiyi
lədklərdən ona doğru uzatdı ki, sulansın. 8 O,

gur axan suların kənarında, bərəkətli torpaqda
əkildi ki, qol-budaq atsın, meyvə yetirsin və
möhtəşəm bir üzüm tənəyi olsun”.
9 Sən söylə ki, Xudavənd Rəbb belə deyir:
“Bu üzüm tənəyi bəhərli olacaqmı? Əvvəlki
qartal onun köklərini qırıb meyvələrini
qurumaq üçün qoparmayacaqmı? Onun təzə
bitən bütün pöhrələri quruyacaq. Kökündən
qırıb atmaq üçün böyük qüvvəyə yaxud çoxlu
adama ehtiyac olmayacaq. 10 O əkilsə də,
bəhrəsi olacaqmı? Şərq küləyi ona toxunan
kimi tamamilə qurumayacaqmı? Bəli, bitdiyi
ləklərdə quruyacaq”».
11 Mənə Rəbbin bu sözü nazil oldu: 12 «İndi
o asi nəslə söylə: “Bu şeylərin mə’nasını
bilmirsinizmi?” Onlara de: “Budur, Babil
padşahı Yerusəlimə gəldi, oranın padşahını və
başçılarını götürüb Babilə, öz yanına apardı.
13 Padşah nəslindən olan bir nəfəri götürərək
ona əhd kəsib and içdirdi. Ölkənin igid
adamlarını da götürüb apardı ki, 14 padşahlıq
alçaldılıb daha qalxa bilməsin və əhdinə sadiq
olub yerində qalsın. 15 Ancaq Yəhuda padşahı
atlar və çoxlu əsgər versinlər deyə elçilərini
Misirə göndərərək Babil padşahına qarşı
üsyan qaldırdı. O uğur qazanacaqmı? Bu işləri
görən salamat qalacaqmı? Əhdi pozan salamat
qalacaqmı?” 16 Xudavənd Rəbb bəyan edir:
“Varlığıma and olsun ki, hökmən onu taxta
oturdan padşahın ölkəsində – Babildə öləcək,
çünki içdiyi anda xor baxdı, bağladığı əhdi
pozdu. 17 Babillilər çoxlu adam qırmaq üçün
torpaq qalağı və mühasirə divarları
düzəldəndə fir’on güclü ordusu, böyük
qoşunu ilə müharibədə ona kömək edə
bilməyəcək. 18 Çünki o, əhdi pozaraq içdiyi
anda xor baxdı, söz verdiyi halda bütün bu
işləri etdiyinə görə özü də qaçıb qurtara
bilməyəcək”.
19 Buna görə də Xudavənd Rəbb belə deyir:
“Varlığıma and olsun ki, önümdə içdiyi anda
xor baxdığına görə, əhdimi pozduğu üçün onu
cəzalandıracağam. 20 Onun üstünə Öz torumu
sərəcəyəm, onu Öz tələmə salıb Babilə
gətirəcəyəm. Mənə xəyanət etdiyinə görə
orada onu mühakimə edəcəyəm. 21 Onun
bütün fərari əsgərləri qılıncla həlak olacaq,
yerdə qalanlar küləyin əsdiyi dörd tərəfə
dağılacaq. Onda biləcəksiniz ki, Mən Rəbb
bunu söylədim”.

22 Xudavənd Rəbb belə deyir:
“Mən hündür sidr ağacının başından
Bir zoğ götürüb əkəcəyəm.
Onun budaqlarının başından
Zərif bir budaq qoparacağam,
Onu hündür, dik bir dağın zirvəsində
əkəcəyəm.
23 Onu İsrailin uca dağına əkəcəyəm.
O, qol-budaq atıb meyvə verəcək,
Möhtəşəm bir sidr ağacı olacaq.
Hər cür quş onun altına sığınacaq,
Budaqlarının kölgəsində yuva quracaq.
24 Bütün çöl ağacları biləcək ki,
Hündür ağacı Mən Rəbb alçaltdım,
Alçaq ağacı yüksəltdim,
Yaşıl ağacı qurutdum,
Quru ağacı yaşıllaşdırdım.
Mən Rəbb bunu söylədim
Və hökmən yerinə yetirəcəyəm”».

### *Əməllər üçün cavabdehlik*

18 1 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Siz İsrail torpağı üçün
“Atalar kal üzüm yedi,
Oğulların dişi qamaşır”
məsəlini söyləyərək nə demək istəyirsiniz?
3 Xudavənd Rəbb bəyan edir: “Varlığıma and
olsun ki, daha siz İsraildə bu məsəli
söyləməyəcəksiniz. 4 Axı bütün adamlar
Mənimdir: atanın canı Mənim olduğu kimi
oğulun da canı Mənimdir. Yalnız günah
işlədən adam öləcək.
5 Əgər bir adam salehdirsə,
Ədalətli və saleh işlər görürsə,
6 Dağlarda gətirilən qurbandan yemirsə,
Gözlərini İsrail nəslinin bütlərinə
dikmirsə,
Qonşusunun arvadını ləkələmirsə,
Aybaşı olan qadınla yaxınlıq etmirsə,
7 Kimsəyə haqsızlıq etmirsə,
Borclunun girovunu qaytarırsa,
Soyğunçuluq etmirsə,
Ac olana çörək verirsə,
Çılpaq olanı geyindirirsə,
8 Sələmlə borc pul vermirsə,
Müamilə götürmürsə,
Pis əməldən çəkinirsə,
İki adam arasında ədalətlə mühakimə
edirsə,
9 Mənim qaydalarıma görə rəftar edirsə,

---

***17:12-15*** *– 2Pad. 24:15-20; 2Saln. 36:10-13*

***18:2*** *– Yer. 31:29*
***18:9*** *– Lev. 18:5*

Hökmlərimə sədaqətlə əməl edirsə,
Bu adam salehdir
Və əlbəttə, yaşayacaq"
Xudavənd Rəbb belə bəyan edir.

[10] "Deyək ki bu adamın bir oğlu olur.
Əgər bu oğul zorakılıq edib qan tökürsə,
Soydaşına qarşı bu işlərdən birini
görürsə,
[11] Atası bunlardan heç birini etmədiyi
halda,
Oğul dağlarda gətirilən qurbandan
yeyirsə,
Qonşusunun arvadını ləkələyirsə,
[12] Fəqirə və yoxsula haqsızlıq edirsə,
Soyğunçuluq edirsə,
Girovu qaytarmırsa,
Gözlərini bütlərə dikirsə,
İyrənc işlər görürsə,
[13] Sələmlə borc pul verib müamilə
götürürsə,
Belə oğul yaşayacaqmı?
Xeyr, o yaşamayacaq.
Bütün bu iyrənc işləri gördüyü üçün
öldürülməlidir.
Ölümü üçün də özü məs'uliyyət
daşıyacaq.

[14] Deyək ki bu oğulun da bir oğlu olur.
Bu oğul atasının etdiyi bütün günahları
görüb,
Diqqət edərək belə işlər etmirsə,
[15] Dağlarda gətirilən qurbandan yemirsə,
Gözlərini İsrail nəslinin bütlərinə
dikmirsə,
Qonşusunun arvadını ləkələmirsə,
[16] Kimsəyə haqsızlıq etmirsə,
Girov almırsa,
Soyğunçuluq etmirsə,
Ac olana çörək verirsə,
Çılpaq olanı geyindirirsə,
[17] Məzlumdan əl çəkirsə,
Sələm almırsa,
Müamilə götürmürsə,
Hökmlərimə əməl edib
Qaydalarıma görə rəftar edirsə,
Atasının günahına görə ölməyəcək,
Əlbəttə, yaşayacaq.
[18] Bu oğulun atası isə
İnsafsızlıqla qəddarlıq etdiyi üçün,
Soydaşını qarət etdiyinə görə,
Xalqı içində pis işlər gördüyü üçün
Öz təqsirindən ötrü, əlbəttə, öləcək.
[19] Ancaq siz ‹atanın etdiyi təqsirin
məs'uliyyətini nə üçün oğul daşımasın?›
deyirsiniz. Oğul ədalətli və saleh işlər gördü,
bütün qaydalarıma riayət edib onlara əməl
etdi. Əlbəttə, bu adam yaşayacaq. [20] Yalnız
günah işlədən adam öləcək. Oğul atanın
təqsirinin məs'uliyyətini daşımaz, ata da
oğulun təqsirinin məs'uliyyətini daşımaz.
Saleh adam salehliyinin, pis adam isə
pisliyinin əvəzini alacaq.
[21] Pis adam etdiyi bütün günahlardan
dönərsə, bütün qaydalarıma riayət edib
ədalətli və saleh işlər görərsə, əlbəttə, ölməyib
yaşayacaq. [22] Etdiyi günahlardan heç biri onun
ayağına yazılmayacaq, gördüyü saleh işlərlə
yaşayacaq". [23] Xudavənd Rəbb bəyan edir:
"Elə bilirsiniz ki, Mən pis adamın ölümündən
zövq alıram? İstəyirəm ki, o öz yolundan
dönsün və yaşasın.
[24] Ancaq saleh adam öz salehliyindən
dönüb pislik edərsə, pis adamın etdiyi bütün
iyrənc işləri görərsə, yaşayacaqmı? Etdiyi
saleh işlərindən heç biri onun ayağına
yazılmayacaq. Etdiyi xainlik və işlədiyi
günahından ötrü öləcək.
[25] Ancaq siz ‹Xudavəndin yolu düz deyil›
deyirsiniz. Ey İsrail nəsli, indi qulaq asın:
Mənimmi yolum düz deyil? Düz olmayan
sizin yollarınız deyilmi? [26] Saleh adam öz
salehliyindən dönüb pislik edərsə, buna görə
öləcək. Bəli, etdiyi pisliyə görə öləcək. [27] Pis
adam da etdiyi pislikdən dönüb ədalətli və
saleh işlər görərsə, öz həyatını qoruyar. [28] Bir
halda ki diqqət edib elədiyi bütün
günahlardan dönürsə, əlbəttə, ölməyib
yaşayacaq. [29] Ancaq İsrail nəsli ‹Xudavəndin
yolu düz deyil› deyir. Ey İsrail nəsli,
Mənimmi yollarım düz deyil? Düz olmayan
sizin yollarınız deyilmi? [30] Buna görə, ey
İsrail nəsli, sizin hər birinizi əməllərinizə görə
mühakimə edəcəyəm" Xudavənd Rəbb belə
bəyan edir. "Tövbə edib bütün
günahlarınızdan dönün ki, təqsir sizi məhvə
sürükləməsin. [31] Etdiyiniz günahların hamısını
üstünüzdən götürün, özünüzdə yeni ürək və
yeni ruh yaradın. Nə üçün ölәsiniz, ey İsrail
nəsli?" [32] Xudavənd Rəbb bəyan edir: "Mən
məhv olacaq adamın ölümündən zövq

***18:20** – Qanun. 24:16, 2Pad. 14:6; 2Saln. 25:4*

almıram. Buna görə də günahlardan dönün və yaşayın”.

### *İsrail rəhbərləri üçün mərsiyə*

19 [1] Sən İsrail rəhbərləri üçün mərsiyə oxuyub söylə:
[2] “Sənin anan nə idi?
Şirlər arasında dişi bir şir!
O, cavan aslanların içində yatardı,
Balalarını bəsləyərdi.
[3] O, balalarından birini böyütdü,
Bala cavan bir şir oldu.
Şikar etməyi öyrəndi,
Adamları yeməyə başladı.
[4] Millətlər onun xəbərini eşitdi,
Bu şir onların quyusuna düşüb ələ keçdi.
Burnuna halqa taxıb onu
Misir torpağına gətirdilər.
[5] Dişi şir boş yerə gözlədiyini,
Ümid qalmadığını görəndə
Balalarından birini götürüb
Cavan bir şir etdi.
[6] Bu bala şirlər arasında gəzirdi.
O da cavan bir şir olub
Şikar etməyi öyrəndi,
Adamları yeməyə başladı.
[7] Onların qəsrlərini dağıtdı,[4]
Şəhərlərini viran etdi.
Bu şirin nə’rə səsindən
Ölkə və onun əhalisi dəhşət içində idi.
[8] Ətraf ölkələrin millətləri
Onun üstünə gəldi,
Öz torlarını üzərinə atdı,
Bu şir onların quyusuna düşüb ələ keçdi.
[9] Onun burnuna halqa taxıb qəfəsə
saldılar.
Onu Babil padşahının yanına gətirdilər.
Sonra qalaya saldılar ki,
İsrail dağları üzərində
Bir daha səsi eşidilməsin.

[10] Sənin anan da çay kənarındakı bağında
Əkilmiş bir üzüm tənəyi kimi idi.
Bol sulardan bəhərli oldu,
Çoxlu qol-budaq verdi.
[11] Onun budaqları
Padşah əsası olacaq qədər gücləndi,
Boyu hündür ağaclara qədər ucaldı,
Onun çoxlu budaqları ilə
Hündürlüyü görünürdü.
[12] Ancaq onu qəzəblə
Kökündən çıxarıb yerə atdılar,
Şərq küləyi onun meyvəsini qurutdu,
Möhkəm budaqları qoparıldı,
Onlar qurudu,
Onları od yandırıb-yaxdı.
[13] O indi
Çöldə, quraq və susuz torpaqda əkildi.
[14] Gövdəsinin bir budağından od çıxdı,
Onun meyvəsini yandırıb yaxdı.
Onda padşah əsası olmaq üçün
Bir möhkəm budaq da qalmadı”.

Bu, bir mərsiyə idi,
Mərsiyə olaraq da qalacaq».

### *Xəyanətkar İsrail*

20 [1] Sürgünlüyümüzün yeddinci ilində,
beşinci ayın onuncu günü İsrailin
bə’zi ağsaqqalları Rəbdən soruşmaq üçün
gəlib önümdə oturdu.
[2] Mənə Rəbbin bu sözü nazil oldu: [3] «Ey
bəşər oğlu, İsrail ağsaqqallarına söyləyib
bildir ki, Xudavənd Rəbb belə deyir: “Siz
Məndən soruşmağa gəldinizmi? Varlığıma
and olsun ki, Mən sizin çağırışınıza cavab
verməyəcəyəm” Xudavənd Rəbb belə bəyan
edir. [4] Onları mühakimə edəcəksənmi, ey
bəşər oğlu, mühakimə edəcəksənmi? Onlara
atalarının iyrənc işlərini bildirib söylə ki,
[5] Xudavənd Rəbb belə bəyan edir: “O gün
Mən İsraili seçdim, Yaqub nəslinin
övladlarına and içdim, Misir torpağında
Özümü onlara aşkar etdim və ‹Allahınız Rəbb
Mənəm› deyə and içdim. [6] O gün söz verdim
ki, onları Misir torpağından özləri üçün
nəzərdə tutduğum bütün ölkələrdən gözəl olan,
süd və bal axan torpağa çıxaracağam. [7] Mən
onlara dedim: ‹Hər kəs gözünə xoş gələn
iyrənc şeyləri atsın. Özünüzü Misir bütləri ilə
murdarlamayın, Allahınız Rəbb Mənəm›.
[8] Ancaq onlar Mənə qarşı asi oldu və qulaq
asmaq istəmədi. Heç biri gözünə xoş gələn
iyrənc şeyləri atmadı və Misir bütlərindən əl
çəkmədi. Ona görə Mən dedim: ‹Misir
torpağında qəzəbimi üstlərinə tökəcəyəm,
hədsiz qızğınlığımı onlara göstərəcəyəm›.
[9] Ancaq Mən Öz adım naminə elə etdim ki,
aralarında yaşadıqları millətlərin gözündə
adım ləkələnməsin, çünki bu millətlərin gözü

---

[4] **19:7** *Qəsrlərini dağıtdı* – arami tərcüməsində belədir, ibrani mətnində isə *dul qadınlarını tanıdı.*

***20:5-6*** – *Çıx. 6:2-8*

önündə İsrail övladlarını Misirdən çıxarmaqla
Özümü onlara göstərdim.
10 Mən onları Misir torpağından çıxarıb
səhraya gətirdim. 11 Onlara qaydalarımı verib
hökmlərimi bildirdim. Əgər insan bu
hökmlərə əməl etsə, onların vasitəsilə yaşayar.
12 Onlara Öz Şənbə günlərimi də verdim ki,
Mənimlə onların arasında əlamət olsun və
onları təqdis edənin Mən Rəbb olduğunu
bilsinlər. 13 Ancaq İsrail nəsli səhrada Mənə
qarşı asi oldu. Qaydalarıma görə rəftar
etmədilər, hökmlərimi rədd etdilər. Əgər
insan bu hökmlərə əməl edərsə, onların
vasitəsilə yaşayar. Onlar Mənim Şənbə
günlərimə də heç məhəl qoymadı. Ona görə
Mən dedim: ‹Səhrada onları məhv etmək
üçün qızğınlığımı üstlərinə tökəcəyəm›.
14 Ancaq Mən Öz adım naminə elə etdim ki,
millətlərin gözündə adım ləkələnməsin, çünki
bu millətlərin gözü önündə İsrail övladlarını
Misirdən çıxarmışdım. 15 Mən də səhrada
onlara and içdim ki, onları bütün ölkələrdən
gözəl olan, özlərinə verdiyim süd və bal axan
torpağa gətirməyəcəyəm. 16 Çünki hökmlərimi
rədd etdilər, qaydalarıma görə rəftar etmədilər
və Şənbə günlərimə məhəl qoymadılar. Ona
görə ki onların ürəkləri bütlərinə tərəf meyl
edirdi. 17 Ancaq Mənim onlara yazığım gəldi,
onları həlak etmədim və səhrada qırıb-
çatmadım.
18 Səhrada onların övladlarına dedim:
‹Atalarınızın qaydasına görə rəftar etməyin,
hökmlərinə riayət etməyin və onların bütləri
ilə özünüzü murdarlamayın. 19 Allahınız Rəbb
Mənəm. Mənim qaydalarıma görə rəftar edin,
hökmlərimə riayət edin və onlara əməl edin.
20 Şənbə günlərimi təqdis edin. Qoy onlar
Mənimlə sizin aranızda əlamət olsun. Onda
biləcəksiniz ki, Allahınız Rəbb Mənəm›.
21 Ancaq övladlar da Mənə qarşı asi oldu.
Qaydalarıma görə rəftar etmədilər,
hökmlərimə riayət və əməl etmədilər. Əgər
insan bu hökmlərə əməl etsə, onların
vasitəsilə yaşayar. Onlar Mənim Şənbə
günlərimə də məhəl qoymadı. Ona görə Mən
dedim: ‹Səhrada onları məhv etmək üçün
qəzəbimi üstlərinə tökəcəyəm, hədsiz
qızğınlığımı onlara göstərəcəyəm›. 22 Ancaq
Mən onlardan əl götürdüm və bunu Öz adım
naminə etdim ki, millətlərin gözündə adım
ləkələnməsin, çünki bu millətlərin gözü
önündə İsrail övladlarını çıxarmışdım. 23 Mən
səhrada özlərinə and içib dedim ki, onları
millətlər arasına yayacağam, ölkələr arasına
səpələyəcəyəm. 24 Çünki onlar hökmlərimə
əməl etmədi, qaydalarımı rədd etdi, Şənbə
günlərimə məhəl qoymadı və gözləri
atalarının bütlərinə dikildi. 25 Mən də onlara
xeyirli olmayan qaydalar və həyat verə
bilməyən hökmlər verdim. 26 İmkan verdim ki,
hər ilk doğulan övladı oddan keçirərək qurban
etdikləri hədiyyələrlə özlərini murdarlasınlar.
Bunu etdim ki, onları dəhşətə salım, qoy
bilsinlər ki, Rəbb Mənəm”.
27 Ey bəşər oğlu, buna görə də İsrail nəslinə
müraciət edib söylə ki, Xudavənd Rəbb belə
deyir: “Atalarınız bununla yenə xəyanət
edərək Mənə küfr etdi. 28 Mən onları və’d
etdiyim torpağa gətirəndə hər yüksək təpəni,
hər qollu-budaqlı ağacı görüb qurbanlarını
orada kəsdilər, Mənim qəzəbimə səbəb olan
qurbanlarını orada təqdim etdilər, ətirli
təqdimlərini orada qoydular və maye
təqdimlərini orada səpdilər. 29 Ona görə Mən
onlara dedim: ‹Getdiyiniz o səcdəgah nədir?›
Bura indiyə qədər Bama[5] adlanır”.
30 Buna görə də İsrail nəslinə söylə ki,
Xudavənd Rəbb belə deyir: “Siz atalarınızın
yolu ilə gedib onların iyrənc işləri ilə
pozğunluq edərək özünüzü murdar
edərsinizmi? 31 İndiyə qədər hədiyyələr
gətirərək oğullarınızı oda qurban verərək
özünüzü bütlərinizlə murdar edirsiniz. Hələ
bununla da Məndən soruşmaq istəyirsiniz, ey
İsrail nəsli?” Xudavənd Rəbb bəyan edir:
“Varlığıma and olsun ki, Məndən
soruşmağınıza icazə verməyəcəyəm.
32 Ağlınıza gələn şey heç vaxt həyata
keçməyəcək. Siz deyirdiniz: ‹Millətlər,
yadelli tayfalar kimi biz də ağaca və daşa
sitayiş edəcəyik›”.
33 Xudavənd Rəbb bəyan edir: “Varlığıma
and olsun ki, sizin üzərinizdə qüvvətli əllə,
uzanan qolla və güclü qəzəblə hökmən
padşahlıq edəcəyəm. 34 Mən sizi qüvvətli əllə,
uzanan qolla və güclü qəzəblə xalqlar
arasından çıxaracağam, səpələndiyiniz

---

***20:11,13** – Lev. 18:5*
***20:12** – Çıx. 31:13-17*
***20:15** – Say. 14:26-35*
***20:23** – Lev. 26:33*
[5] **20:29** Söz oyunu: *Bama* – ibrani dilində *səcdəgah,*
həmçinin *ba – getmək,*
\ft *ma – nədir* deməkdir.

ölkələrdən bir yerə toplayacağam. 35 Sizi
xalqların səhrasına gətirəcək və orada üz-üzə
mühakimə edəcəyəm. 36 Atalarınızı Misir
torpağının səhrasında necə mühakimə etdimsə,
sizi də eləcə mühakimə edəcəyəm" Xudavənd
Rəbb belə bəyan edir. 37 "Sizi əsanın altından
keçirəcək və əhdlə bağlayacağam. 38 Sizin
aranızdan Mənə qarşı asi olanları və günah
edənləri ayıracağam. Onları müvəqqəti
qaldıqları ölkədən çıxaracağam, ancaq İsrail
torpağına girməyəcəklər. Onda biləcəksiniz ki,
Rəbb Mənəm". 39 Xudavənd Rəbb belə deyir:
"Siz ey İsrail nəsli, gedin hər biriniz öz
bütlərinizə qulluq edin. Ancaq bundan sonra
Mənə qulaq asacaq, hədiyyələriniz və
bütlərinizlə bir daha müqəddəs adımı
ləkələməyəcəksiniz".

40 Xudavənd Rəbb bəyan edir: "Müqəddəs
dağım olan İsrailin uca dağında, həmin ölkədə
hamı – bütün İsrail nəsli Mənə qulluq edəcək.
Orada onlardan razı olacağam. Bütün
müqəddəs şeylərinizlə birgə təqdimlərinizi və
ən seçmə hədiyyələrinizi sizdən qəbul
edəcəyəm. 41 Sizi xalqlar arasından çıxardığım
və səpələndiyiniz ölkələrdən topladığım
zaman ətirli təqdim kimi sizdən razı olacağam.
Millətlərin gözü önündə sizin aranızda təqdis
olunacağam. 42 Sizi atalarınıza verməyi və'd
etdiyim torpağa – İsrail torpağına gətirdiyim
zaman biləcəksiniz ki, Rəbb Mənəm. 43 Orada
əməllərinizi və bütün işlərinizi yada
salacaqsınız, bu işlərlə siz özünüzü murdar
etdiniz. Etdiyiniz bütün pisliklərə görə öz-
özünüzdən iyrənəcəksiniz. 44 Ey İsrail nəsli,
pis əməllərinizə və pozğun işlərinizə görə
deyil, ancaq Öz adım naminə sizinlə belə
rəftar edəndə biləcəksiniz ki, Rəbb Mənəm"
Xudavənd Rəbb belə bəyan edir».

45 Mənə yenə Rəbbin sözü nazil oldu: 46 «Ey
bəşər oğlu, üzünü cənuba doğru çevirib
cənuba tərəf danış və Negev meşəsinə qarşı
peyğəmbərlik et. 47 Negev meşəsinə söylə ki,
Rəbbin sözünü dinləsin. Xudavənd Rəbb belə
deyir: "Mən sənin içində od yandıracağam və
səndə olan bütün yaşıl və quru ağacları
yandırıb-yaxacaq. Alışan alov sönməyəcək,
cənubdan şimala qədər bütün üzlər odda
qovrulacaq. 48 Bütün bəşər görəcək ki, odu
Mən Rəbb alışdırdım və o sönməyəcək"».
49 Mən dedim: «Ah, ya Xudavənd Rəbb!
Onlar mənim barəmdə belə deyir: "Bu adam
ancaq məsəllərlə danışır, elə deyilmi?"»

### *Rəbbin cəza qılıncı*

21 1 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, üzünü Yerusəlimə
tərəf çevirib müqəddəs məkanlara qarşı danış
və İsrail torpağının əleyhinə peyğəmbərlik et.
3 Sən İsrail torpağına söylə ki, Rəbb belə deyir:
"Budur, Mən sənin əleyhinəyəm. Qılıncımı
qınından çıxararaq sənin içində olan salehi də,
pis adamı da qırıb-çatacağam. 4 Sənin içində
olan salehi də, pis adamı da qırıb-çatım deyə
Mənim qılıncım cənubdan şimaladək ərazidə
yaşayan bütün bəşərin üzərinə enmək üçün
qınından çıxacaq. 5 Onda bütün bəşər biləcək
ki, Mən Rəbb qılıncımı qınından çıxardım və
bir daha yerinə qayıtmayacaq".

6 İçini çək, ey bəşər oğlu, sən belini büküb
onların gözü önündə acı-acı içini çək. 7 Onlar
sənə "Nəyə görə içini çəkirsən?" söyləyəndə
onlara deyərsən: "Gələn xəbərə görə. Hər
ürək əriyəcək, hər əl yanına düşəcək, bütün
ruhlar zəifləyəcək və bütün dizlər titrəyəcək.
O xəbər gəlir, bunlar yerinə yetəcək"
Xudavənd Rəbb belə bəyan edir».

8 Mənə Rəbbin bu sözü nazil oldu: 9 «Ey
bəşər oğlu, peyğəmbərlik edib söylə ki,
Xudavənd belə deyir:

"Söylə ki, qılınc, qılınc
İtilənib, cilalanıb.
10 Öldürmək üçün itilənib,
Şimşək kimi çaxsın deyə cilalanıb.
Necə sevinə bilərik?
Qılınc oğlumun əsasına
Hər hansı bir əl ağacı kimi xor baxdı.
11 Qılınc əldə tutulmaq üçün
Cilalanmağa verildi.
Öldürənin əlinə verilsin deyə
İtilənib cilalandı.
12 Ey bəşər oğlu, fəryad edib ağla.
Çünki bu qılınc xalqıma və
Bütün İsrail rəhbərlərinə qarşı qalxıb.
Onlar xalqımla birgə
Qılınca təslim edildi.
Bunun üçün sinə döy".
13 Xudavənd Rəbb bəyan edir:
"Qarşıda sınaq var.
Qılıncın xor baxdığı əsa
Daha salamat qalmazsa, nə olar?

14 Sən ey bəşər oğlu, peyğəmbərlik et,
Əllərini bir-birinə vur.
Qoy qılınc iki, üç dəfə vursun.
O öldürən bir qılıncdır,

Çoxlu adam qıran,
İnsanı hər tərəfdən saran qılıncdır.
15 Onların ürəyi ərisin,
Yerə sərilənlər çox olsun deyə
Bütün darvazalarında qırğın qılıncı
qoydum.
Ah, o, şimşək kimi parıldadı,
Öldürmək üçün siyrildi.
16 Ey qılınc, sağa-sola dönüb kəs,
Sağa dön, sola dön,
Üzün hara çevrilsə, ora get.
17 Mən də əllərimi bir-birinə vuracağam,
Beləcə qəzəbimi yatırdacağam.
Bunu Mən Rəbb söylədim"».

18 Mənə Rəbbin bu sözü nazil oldu: 19 «Sən
ey bəşər oğlu, Babil padşahının qılıncının
gəlməsi üçün iki yol hazırla, ikisi də bir
ölkədən çıxsın. Bir yerdə nişan qoy, onu şəhər
yolunun başında qoy. 20 Qılınc Ammon
övladlarının Rabba şəhərinə, Yəhudaya və
qalalı Yerusəlimə yönəlsin deyə yol hazırla.
21 Çünki Babil padşahı yolayrıcında – iki
yolun başında falçılıq etmək üçün dayanacaq.
Oxları qarışdıracaq, ev bütlərindən soruşacaq,
kəsilən bir heyvanın qaraciyərinə baxacaq.
22 Onun sağ əlində Yerusəlimi göstərən fal var.
Orada qoçbaşı alətləri qoyacaq, öldürmək
əmri verəcək, döyüş nidası ucaldacaq, qoçbaşı
alətlərini darvazaların önündə qoyacaq, torpaq
qalağı və mühasirə divarları düzəldəcək.
23 Onunla and içib saziş bağlayanlar falın
yalan olduğunu güman edəcək. Ancaq padşah
təqsirlərini xatırlayıb onları əsir alacaq.

24 Buna görə də Xudavənd Rəbb belə deyir:
"İndi ki təqsirlərinizi və asiliyinizi
göstərməklə bunları yada saldınız, bütün
işlərinizdə günahlarınız aşkara çıxdı və yada
salındınız, mütləq əsir düşəcəksiniz. 25 Sən ey
murdar və pis olan İsrail rəhbəri, günün çatdı,
nəhayət, cəza vaxtın gəldi". 26 Xudavənd Rəbb
belə deyir: "Çalmanı və tacı götür. Daha bu
belə olmayacaq. Alçalanı yüksəlt, yüksələni
alçalt. 27 Viran, viran, viran qoyacağam şəhəri!
Haqq sahibi gələnə qədər bərpa olunmayacaq.
Mən şəhəri ona verəcəyəm".

28 Sən ey bəşər oğlu, peyğəmbərlik edib
söylə ki, Ammonlular və onların etdikləri
təhqirə görə Xudavənd Rəbb belə deyir:
"Qılınc, qılınc həlak etmək üçün siyrilib,
Qırğın üçün itilənib ki,
Şimşək kimi parlasın.
29 Elə bir zamanda ki
Sənə boş görüntülər görünür,
Sənə yalan falçılıq açırlar.
Ölməli olan pis adamların
Boyunlarına enəcəksən, ey qılınc!
Bu adamların günü çatdı,
Nəhayət, cəza vaxtı gəldi.
30 Qılınc qınına qoyulsun!
Səni yaradıldığın yerdə,
Doğulduğun ölkədə mühakimə
edəcəyəm.
31 Qəzəbimi üstünə tökəcəyəm,
Hiddətimin odunu üstünə püfləyəcəyəm,
Səni vəhşi adamlara təslim edəcəyəm.
Onlar məhv etməkdə mahirdir.
32 Sən oda qida olacaqsan,
Ölkə içində qanın töküləcək.
Daha yada salınmayacaqsan,
Çünki Mən Rəbb bunu söylədim"».

### *Yerusəlimin günahları*

22 1 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Sən ey bəşər oğlu, mühakimə
edəcəksənmi, qan tökən şəhəri mühakimə
edəcəksənmi? Gəl bütün iyrənc işlərini ona
bildir. 3 Ona söylə ki, Xudavənd Rəbb belə
deyir: "Əcəli gəlsin deyə öz içində qan tökən
bütlər düzəldərək özünü murdarlayan şəhər!
4 Sən tökdüyün qana görə təqsirkar oldun,
düzəltdiyin bütlərə görə murdar oldun. Sən
əcəlini yaxınlaşdırdın, ömrün sona çatdı.
Buna görə də səni millətlər içində rüsvayçılıq,
bütün ölkələr arasında istehza hədəfinə
çevirdim. 5 Ey adı pisliyə çıxan, fitnə dolu
şəhər, yaxın olanlar da, uzaq olanlar da sənə
istehza edəcək. 6 Budur, sənin içində olan hər
bir İsrail rəhbəri əlindən gəldiyi qədər qan
tökür. 7 Sənin içində ata-anaya hörmət edilmir,
sənin içində qəribə qarşı zorakılıq, yetimə və
dul qadına haqsızlıq edilir. 8 Müqəddəs
şeylərimə xor baxdın, Şənbə günlərimə məhəl
qoymadın. 9 Sənin içində qan tökmək istəyən
böhtançı adamlar var. Sənin içində dağlarda
gətirilən qurbandan yeyir, şəhvətə qapılırlar.
10 Sənin içində ögey anaları ilə yatanlar,
aybaşı olub murdarlanan qadınları zorlayanlar
var. 11 Sənin içində kimi qonşusunun arvadı

***21:28-32*** *– Yer. 49:1-6; Yez. 25:1-7; Amos 1:3-15; Sef. 2:8-11*

***22:7*** *– Çıx. 20:12; Qanun. 5:16*
***22:7*** *– Çıx. 22:21-22; Qanun. 24:17*
***22:8*** *– Lev. 19:30; 26:2*
***22:10-11*** *– Lev. 18:7-20*

ilə iyrənc iş edir, kimi həyasızlıqla gəlinini
murdar edir, kimi öz atasının qızını – bacısını
zorlayır. 12 Sənin içində qan tökmək üçün
rüşvət alırlar. Sələm və müamilə ilə pul
verirsən, zorakılıqla qonşularından haqsız
muzd alırsan. Beləcə Məni unutdun"
Xudavənd Rəbb belə bəyan edir.

13 "Əldə etdiyin haqsız muzddan ötrü və
sənin içində tökülən qana görə əllərimi bir-
birinə vururam. 14 Sənə qarşı hərəkətə
gəldiyim gün ürəyində taqət olacaqmı,
qollarında qüvvət qalacaqmı? Mən Rəbb bunu
söylədim və hökmən yerinə yetirəcəyəm.
15 Səni millətlər arasına yayacağam, ölkələr
arasına səpələyəcəyəm, içindəki murdarlığı
məhv edəcəyəm. 16 Millətlərin gözündə
ləkələnəcəksən. Onda biləcəksən ki, Rəbb
Mənəm"».

17 Mənə Rəbbin bu sözü nazil oldu: 18 «Ey
bəşər oğlu, mənim üçün İsrail nəsli metal
tullantısına çevrilib. Hamısı soba içində qalan
tunca, qalaya, dəmirə, qurğuşuna bənzəyir,
gümüş tullantısı kimidir. 19 Buna görə də
Xudavənd Rəbb belə deyir: "İndi ki hamınız
metal tullantısı kimi oldunuz, Mən sizi
Yerusəlimə yığacağam. 20 Əritmək üçün odu
üfürüb gümüşü, tuncu, dəmiri, qurğuşunu və
qalayı necə sobada toplayırlarsa, Mən də
eləcə sizi qəzəb və hiddətimlə toplayacağam,
sizi şəhərə qoyub əridəcəyəm. 21 Sizi toplayıb
qəzəbimin odunu üstünüzə üfürəcəyəm və
şəhərin içində əriyəcəksiniz. 22 Soba içində
gümüş necə əridilirsə, siz də şəhərin içində
əriyəcəksiniz. Onda biləcəksiniz ki, üstünüzə
qəzəbimi tökən Mən Rəbbəm"».

23 Mənə Rəbbin bu sözü nazil oldu: 24 «Ey
bəşər oğlu, ona söylə: "Sən qəzəb günündə
təmizlənməmiş, üstünə yağış yağmamış bir
torpaqsan. 25 Ölkənin peyğəmbərləri
nərildəyən, ovunu parçalayan aslan kimi
orada tələ qurdu, canlara qıydı, xəzinə və
qiymətli şeylər ələ keçirdi, şəhərdə çoxlu
qadınları dul qoydu. 26 Kahinləri Mənim
qanunumu pozdu, müqəddəs şeylərimi
murdarladı, müqəddəs şeyi adi şeydən
ayırmadı, murdar şeylə pak şey arasındakı
fərqi öyrətmədi. Onlar Mənim Şənbə
günlərimə göz yumdu və müqəddəsliyimə
e'tinasızlıq etdi. 27 Ölkə içindəki başçıları
ovunu parçalayan canavar kimidir, haqsız
muzd əldə etmək üçün qan tökür, cana
qıyırlar. 28 Peyğəmbərləri uydurma
görüntülərlə, yalan fal açaraq bu günahların
üstünə suvaq vurur. Mən Rəbb elə demədiyim
halda ‹Xudavənd Rəbb belə deyir› söyləyirlər.
29 Ölkə xalqı isə bir-birini qarət edərək
soyğunçuluqla məşğuldur. Onlar məzlumu və
fəqiri incidir, haqsız yerə qəribə zülm edir.
30 Onların içində bir adam axtardım ki, divarı
tə'mir etsin və Mənim hüzurumda ölkə
naminə divardakı dəliklərin önündə dayansın
ki, oranı yerlə yeksan etməyim, ancaq belə
adam tapmadım. 31 Buna görə də üstlərinə
qəzəbimi tökəcəyəm, hiddətimlə onları
yandırıb məhv edəcəyəm. Əməllərinin əvəzini
başlarına gətirəcəyəm" Xudavənd Rəbb belə
bəyan edir».

### *İki pozğun qadınla müqayisə*

23 1 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, eyni ananın qızları
olan iki qadın var idi. 3 Onlar cavanlıqlarında
Misirdə olarkən fahişəlik etdi. Onların döşləri
orada əlləşdirildi, qızlıq sinələrinə orada əl
sürtüldü. 4 Bu qadınlardan böyüyünün adı
Ohola, bacısınınkı isə Oholiva idi. Onlar
Mənimki oldu, oğullar və qızlar doğdu. Ohola
Samariyaya, Oholiva Yerusəlimə verilən
addır.

5 Ohola Mənimki olarkən fahişəlik etdi.
Oynaşları olan qonşu Aşşurlulara aludə oldu.
6 Onların hamısı mavi paltar geyinmiş valilər
və başçılar, cazibədar cavanlar, atlara minmiş
adamlar idi. 7 Onlarla fahişəlik etdi. Onların
hamısı Aşşurun ən seçmə adamları idi. Ohola
kimə aludə oldusa, onun bütün bütləri ilə
özünü murdar etdi. 8 Misirdə başladığı
fahişəliyindən əl çəkmədi. Çünki cavanlığında
onunla yatmışdılar, qızlıq sinəsinə əl
sürtmüşdülər, şəhvətlərini onun üstünə
tökmüşdülər. 9 Buna görə də onu aludə olduğu
oynaşlarına – Aşşur övladlarına təslim etdim.
10 Onlar Oholanın ayıbını açdı, oğullarını və
qızlarını əlindən aldı, özünü isə qılıncla
öldürdü. O, qadınlar arasında rüsvay oldu,
onun hökmünü yerinə yetirdilər.

11 Onun bacısı Oholiva bunu gördü, amma
Oholivanın şəhvəti daha qızğın, fahişəliyi
bacısından daha betər idi. 12 O da qonşuları
Aşşur övladlarına – valilərə və başçılara,
dəbdəbə ilə geyinmiş, atlara minmiş adamlara

---

***22:12** – Çıx. 23:8; Qanun. 16:19*
***22:12** – Çıx. 22:25; Lev. 25:36-37; Qanun. 23:19*
***22:26** – Lev. 10:10; Yez. 44:23*

aludə oldu. Onların hamısı cazibədar cavanlar
idi. 13 Mən gördüm ki, o da murdarlanıb və hər
iki qadın eyni yolu gedir. 14 Oholiva get-gedə
fahişəliyini artırdı, çünki divara oyulmuş
insan təsvirlərini – 15 bellərinə qurşaq,
başlarına böyük çalma bağlamış Xaldeylilərin
qırmızı rəngli şəkillərini gördü. Onların
hamısı əsillərinə görə Xaldey ölkəsindən olan
Babil zabitlərinə bənzəyirdi. 16 Oholiva görən
kimi onlara aludə oldu və onların yanına –
Xaldey ölkəsinə qasidlər göndərdi. 17 Babil
övladları Oholivanın yanına, işrət yatağına
gəlib şəhvətləri ilə onu murdarladı. O onlarla
murdar olandan sonra onlardan iyrəndi. 18 O,
fahişəliyini göstərəndə, ayıbını açanda ürəyim
bacısından iyrənən kimi ondan da iyrəndi.
19 Misir torpağında fahişəlik etdiyi gənclik
çağını yada salıb fahişəliyini daha da artırdı.
20 Cinsiyyət üzvü eşşəyinki kimi, toxumları
ayğırınkı kimi olan oynaşlarına aludə oldu.
21 Beləcə sən gənclik çağında etdiyin
pozğunluğa qayıtdın. O zaman Misirlilər
sənin sinənə əl sürtərək cavan döşlərini
əlləşdirirdi.

22 Buna görə də, ey Oholiva, Xudavənd
Rəbb belə deyir: "Bax özünün də iyrəndiyi
oynaşlarını sənə qarşı təhrik edəcək, hər
tərəfdən sənin üstünə gətirəcəyəm.
23 Babillilərlə bütün Xaldeyliləri, Peqod, Şoa
və Qoa xalqını, bütün Aşşurluları gətirəcəyəm.
Onlar cazibədar cavanlar, valilər, başçılar,
zabitlər və məşhur adamlardır. Hamısı da
atlara minib. 24 Onlar silahlarla, müharibə və
yük arabaları ilə, çoxlu xalqdan ibarət qoşunla
üstünə gələcək, sipərlə, qalxanla və dəbilqə
ilə hər tərəfdən sənə qarşı düzüləcəklər.
Hökm etmək ixtiyarını onlara verəcəyəm, öz
hökmlərinə görə səni mühakimə edəcək.
25 Qısqanclığımı sənə qarşı çevirəcəyəm,
səninlə qəzəblə rəftar edəcəklər. Burnunu və
qulaqlarını kəsib salacaqlar, sağ qalanların
qılıncla həlak olacaq. Oğullarını və qızlarını
əsir alacaqlar, sağ qalanlarını od yandırıb
məhv edəcək. 26 Sənin paltarlarını
soyunduracaq, gözəl bəzəklərini alacaqlar.
27 Beləcə Misir torpağından gətirdiyin
pozğunluğuna və fahişəliyinə son qoyacağam.
Bu şeylərin artıq həsrətini çəkməyəcək, daha
Misiri yada salmayacaqsan". 28 Çünki
Xudavənd Rəbb belə deyir: "Səni nifrət
etdiyin adamlara, özünün də iyrəndiyi
adamlara təslim edəcəyəm. 29 Onlar səninlə
nifrətlə rəftar edəcək, bütün zəhmətinin
bəhrəsini əlindən alacaq, səni lüt və çılpaq
qoyacaq. Beləcə fahişəliyinin ayıbı üzə
çıxacaq. Pozğunluğun və fahişəliyin 30 bunları
sənin başına gətirdi, çünki başqa millətlərlə
birgə fahişəlik etdin, onların bütləri ilə murdar
oldun. 31 Öz bacının yolu ilə getdin. Buna görə
də onun kasasını sənin əlinə verəcəyəm".

32 Xudavənd Rəbb belə deyir:
"Sən bacının kasasından içəcəksən.
O, dərin və genişdir.
Sənə gülüb istehza edəcəklər,
Çünki dopdolu bir kasadır.
33 Sərxoşluq və kədərlə dolacaqsan.
Bacın Samariyanın kasası
Dəhşət və viranəlik kasasıdır.
34 Bu kasadan içəcəksən,
Onu boşaldacaqsan,
Parçalarını gəmirəcəksən,
Köksünü yırtacaqsan".
Çünki bunu Mən söylədim,
Xudavənd Rəbb belə bəyan edir.

35 Buna görə də Xudavənd Rəbb belə deyir:
"İndi ki Məni unutdun, Mənə arxa çevirdin,
pozğunluğun və fahişəliyin üçün cəzanı çək"».

36 Rəbb mənə dedi: «Ey bəşər oğlu, Oholanı
və Oholivanı mühakimə edəcəksənmi? Elə isə
iyrənc işlərini özlərinə bildir. 37 Çünki onlar
xəyanət etdi və əlləri qana batıb. Onlar bütlərə
səcdə edib xəyanət etdi. Hətta Mənim üçün
doğduqları oğullarını bütlərə yemək olmaq
üçün təqdim etdilər. 38 Mənə qarşı hələ bunları
da etdilər: həmin gün müqəddəs məkanımı
murdar etdilər, Şənbə günlərimə məhəl
qoymadılar. 39 Onlar bütləri üçün övladlarını
kəsdikdən sonra həmin gün müqəddəs
məkanıma girərək oranı murdarladı. Üstəlik
bunu mə'bədimin ortasında etdilər.

40 Bundan başqa, qasidlər göndərib uzaqdan
gələn adamlar gətirtdilər. Bu adamlar gələndə
sən onlar üçün yuyundun, gözlərinə sürmə
çəkdin və bər-bəzək taxdın. 41 Möhtəşəm bir
divan üzərində oturdun. Onun önündə
hazırlanmış süfrə var idi. Mənim buxurumu
və zeytun yağımı onun üstünə qoydun.
42 Ətrafında kef edən bir dəstənin gurultusu
yüksəldi. Bayağı adamlar dəstəsi ilə səhradan
Sevalılar oraya gətirildi. O iki qadının
biləklərinə bilərziklər, başlarına şərəf tacları
qoydular.

43 Mən zinakarlıqda qarımış qadın barədə
dedim: "İndi qoy onlar bu qadınla zina etsin,

çünki o, fahişədir”. [44] Fahişənin yanına girən
kimi onun yanına girdilər. Beləcə pozğun
qadınlar olan Ohola ilə Oholivanın yanına
girdilər. [45] Amma saleh adamlar zina edən
qadına verilən cəzanı, qan tökən qadına
verilən cəzanı onlara verəcək, çünki bu
qadınlar zina edib və əlləri qana batıb.
[46] Buna görə də Xudavənd Rəbb belə deyir:
“Üstlərinə bir qoşun gətir və onları dəhşətə,
talana düçar et. [47] Bu qoşun onları daşqalaq
edəcək və qılıncla doğrayacaq. Oğullarını və
qızlarını öldürüb evlərini yandıracaqlar.
[48] Ölkədə olan pozğunluğa son qoyacağam.
Bütün qadınlar bundan dərs alıb sizin kimi
pozğunluq etməyəcək. [49] Pozğunluğunuzun
cəzasını öz başınıza gətirəcəklər. Bütlərinizə
tapınmağınızın əvəzini alacaqsınız. Onda
biləcəksiniz ki, Xudavənd Rəbb Mənəm”».

### *Paslanmış qazanla müqayisə*

24 [1] Sürgünlüyümüzün doqquzuncu
ilində, onuncu ayın onuncu günü
mənə Rəbbin bu sözü nazil oldu: [2] «Ey bəşər
oğlu, bu günün, məhz bu günün tarixini qeyd
elə. Çünki Babil padşahı məhz bu gün
Yerusəlimi mühasirəyə aldı. [3] Bu asi xalqa bir
məsəl danışıb söylə ki, Xudavənd Rəbb belə
deyir:

“Qazanı oda qoy, oda qoy,
İçinə su doldur.
[4] Ətin tikələrini, ən yaxşı tikələrini,
Budu və döşü oraya yığ.
Onu seçilmiş sümüklərlə doldur.
[5] Sürüdən ən yaxşı heyvanları götür,
Qazanın altına isə odun[6] yığ.
Qoy içindəki su qaynasın ki,
Qazandakı sümükləri də bişsin”.

[6] Buna görə də Xudavənd Rəbb belə
deyir:
“Qan tökən şəhərin vay halına!
Ora pas tutmuşdur,
Öz pasından təmizlənməmiş qazana
bənzəyir.
Püşk atmadan əti tikə-tikə qazandan
çıxarın.
[7] Çünki onun tökdüyü qan hələ içindədir.
Qanı tozla örtmək üçün hətta yerə də
tökmədi,
Düz çılpaq qayanın üstünə axıtdı.
[8] Mən də qəzəbi alovlandıraraq
Qisas alınsın deyə
Onun qanını çılpaq bir qayanın
Üstünə tökdüm ki, örtülməsin”.

[9] Buna görə də Xudavənd Rəbb belə
deyir:
“Qan tökən şəhərin vay halına!
Mən də odun qalağını böyüdəcəyəm.
[10] Odunları yığ, odu alovlandır,
Əti yaxşı bişir,
Ədviyyatını qat,
Sümüklər də yansın.
[11] Onun közləri üstünə
Qazanı boş qoy ki, qızsın,
Misi yansın,
İçindəki murdarlığı getsin,
Pası ərisin.
[12] Bütün zəhmət hədər getdi,
Qalın pası ərimək bilmir,
Pası odla da çıxmır.
[13] Etdiyin pozğunluq səni murdarladı,
Səni təmizləmək istədim,
Amma sən təmizlənmək istəmədin.
Sənə qarşı qəzəbim yatana qədər
Öz murdarlığından təmizlənməyəcəksən.
[14] Mən Rəbb bunu söylədim,
Vaxt çatdı ki, yerinə yetirim.
Çəkinməyəcəyəm, acımayacağam,
Peşman olmayacağam.
Adətlərinə və əməllərinə görə
cəzalanacaqsan”
Xudavənd Rəbb belə deyir».

### *Yezekelin arvadının ölümü*

[15] Mənə Rəbbin bu sözü nazil oldu: [16] «Ey
bəşər oğlu, gözündə çox qiymətli olan bir
nəfəri bir zərbə ilə əlindən alacağam. Amma
sən yas tutma, ağlayıb göz yaşı tökmə. [17] İçin-
için ağla, ölülər üçün yas tutma. Çalmanı
başına qoyub çarığını ayağına gey. Üzünün alt
hissəsini örtmə, yas tutanların[7] çörəyini
yemə».
[18] Mən səhər xalqa bu sözləri söylədim.
Axşamüstü arvadım öldü. Ertəsi gün səhər
mənə əmr olunanı etdim. [19] Xalq mənə dedi:
«Etdiyin bu şeylərin bizə nə dəxli var? Bizə
bildirməzsən?» [20] Mən onlara dedim: «Mənə
Rəbbin bu sözü nazil oldu: [21] İsrail nəslinə
söylə ki, Xudavənd Rəbb belə deyir:

***24:2** – 2Pad. 25:1; Yer. 52:4*
[6] **24:5** *Odun* – ibrani mətnində *sümüklər.*

[7] **24:17,22** *Yas tutanların* – arami və latın tərcümələrində belədir, ibrani mətnində isə *adamların.*

"Öyündüyünüz güc mənbəyinizi, gözünüzdə ən qiymətli olan şeyi, ürəyinizin arzusu olan müqəddəs məkanımın murdarlanmasına izin verəcəyəm. Arxada qoyduğunuz oğullarınız
və qızlarınız qılıncdan keçiriləcək. 22 Mən nə
etdimsə, siz də elə edəcəksiniz: üzünüzün alt
hissəsini örtməyəcəksiniz, yas tutanların
çörəyini yeməyəcəksiniz. 23 Çalmanız
başınızda, çarığınız ayağınızda olacaq. Yas tutmayacaq, ağlamayacaqsınız, ancaq təqsirlərinizin içində əriyib yox olacaq, baş-
başa verib inləyəcəksiniz. 24 Yezekel sizə bir
əlamət olacaq: o nə edəcəksə, siz də onu edəcəksiniz. Bu hadisələr olanda biləcəksiniz ki, Xudavənd Rəbb Mənəm".

25 Sən ey bəşər oğlu, qalalarını, sevinc və izzətlərini, gözlərindən qiymətli olan şeyi, ürəklərinin arzusunu, oğulları ilə qızlarını
onlardan aldığım vaxt – 26 o gün fəlakətdən
qaçıb qurtulan bir nəfər gəlib sənə bu xəbəri
bildirəcək. 27 O gün bu qaçağın yanında dilin
açılacaq, onunla danışacaq, artıq dinməz qalmayacaqsan. Beləcə onlar üçün bir əlamət olacaqsan. Onda biləcəklər ki, Rəbb Mənəm».

### *Ammonluların əleyhinə peyğəmbərlik*

25 1 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, üzünü Ammon
övladlarına tərəf çevir və onların əleyhinə
peyğəmbərlik et. 3 Ammon övladlarına söylə
ki, Xudavənd Rəbbin sözünü dinləsinlər. Xudavənd Rəbb belə deyir: "Siz müqəddəs məkanım ləkələnəndə, İsrail torpağı viran ediləndə və Yəhuda nəsli sürgünə gedəndə
‹nə yaxşı› dediniz. 4 Buna görə də Mən icazə
verəcəyəm ki, şərq xalqları sizin torpağınızı fəth etsin. Onlar torpağınızda yurd salacaq, çadır quracaq. Meyvələrinizi onlar yeyəcək,
südünüzü onlar içəcək. 5 Rabbanı dəvələr üçün
otlağa, Ammon övladlarının torpağını sürülər üçün ağıla çevirəcəyəm. Onda biləcəksiniz ki,
Rəbb Mənəm". 6 Xudavənd Rəbb belə deyir:
"İndi ki siz əllərinizi bir-birinə vurub ayaqlarınızı yerə döydünüz və İsrail torpağını təhqir edib fəlakətinə bütün ürəyinizlə
sevindiniz, 7 Mən də sizə qarşı əlimi uzadıb
sizi qarət malı kimi millətlər arasında bölüşdürəcək, xalqlar sırasından silib-atacaq, ölkələr içindən yox edəcək və məhv edəcəyəm. Onda biləcəksiniz ki, Rəbb Mənəm".

### *Moavlıların əleyhinə peyğəmbərlik*

8 Xudavənd Rəbb belə deyir: "Moav və
Seir xalqı deyir ki, budur, daha Yəhuda
nəslinin başqa xalqlardan fərqi yoxdur. 9 Buna
görə də Mən Moavın sərhədini açıb ölkənin şöhrəti olan sərhəd şəhərlərini – Bet-Yeşimotu, Baal-Meonu, Qiryatayimi
müdafiəsiz qoyacağam. 10 Ammonlular bir
daha xalqlar arasında yada salınmasınlar deyə Moavı Ammonluların torpağı ilə birlikdə şərq
xalqlarına verəcəyəm. 11 Beləcə Moav xalqını
cəzalandıracağam. Onda biləcəklər ki, Rəbb Mənəm".

### *Edomluların əleyhinə peyğəmbərlik*

12 Xudavənd Rəbb belə deyir: "Edom qisas
alaraq Yəhuda nəsli ilə pis rəftar etdi,
onlardan intiqam alaraq böyük təqsir etdi".
13 Buna görə də Xudavənd Rəbb belə deyir:
"Edom torpağına əlimi uzadıb insanı da, heyvanı da oradan silib-atacaq, ölkəni viran edəcəyəm. Temandan Dedana qədər
Edomlular qılıncla vurulub həlak olacaq.
14 Mən xalqım İsrail vasitəsilə Edomdan Öz
qisasımı alacağam. İsraillilər Edomda qəzəb və hiddətimə görə rəftar edəcək. Beləcə Edomlular Mənim qisasımın nə olduğunu anlayacaq" Xudavənd Rəbb belə bəyan edir.

### *Filiştlilərin əleyhinə peyğəmbərlik*

15 Xudavənd Rəbb belə deyir: "Filiştlilər
Yəhudadan qisas alaraq pis rəftar etdi, ürəklərindəki əbədi ədavətlə onu yerlə yeksan
edərək intiqam aldı". 16 Buna görə də
Xudavənd Rəbb belə deyir: "Mən Filiştlilərə qarşı əlimi uzadıb Keretliləri silib-atacağam, dəniz sahilində yaşayanlardan salamat
qalanları məhv edəcəyəm. 17 Onları şiddətlə
məzəmmətləyib böyük qisaslar alacağam. Onlardan qisas alanda biləcəklər ki, Rəbb Mənəm"».

***25:1-7*** *– Yer. 49:1-6; Yez. 21:28-32; Amos 1:13-15; Sef. 2:8-11*

***25:8-11*** *– Yeş. 15:1-16:14; 25:10-12; Yer. 48:1-47; Amos 2:1-3; Sef. 2:8-11*
***25:12-14*** *– Yeş. 34:5-17; 63:1-6; Yer. 49:7-22; Yez. 35:1-15; Amos 1:11-12; Avd. 1-14; Mal. 1:2-5*
***25:15-17*** *– Yeş. 14:29-31; Yer. 47:1-7; Yoel 3:4-8; Amos 1:6-8; Sef. 2:4-7; Zək. 9:5-7*

### *Sur şəhərinin əleyhinə peyğəmbərlik*

26 1 Sürgünlüyümüzün on birinci
ilində, ayın birinci günü mənə Rəbbin
bu sözü nazil oldu: 2 «Ey bəşər oğlu,
Yerusəlimə qarşı Sur belə dedi: "Nə yaxşı ki
xalqların qapısı olan şəhər dağıldı, darvazaları
mənim üçün açıldı. O dağıldığı üçün mən
varlanacağam". 3 Bu sözlərə görə Xudavənd
Rəbb belə deyir: "Ey Sur, Mən sənə qarşı
gəlirəm. Dəniz necə dalğalarını coşdurursa,
Mən də eləcə çoxlu milləti sənin üstünə
coşduracağam. 4 Onlar Surun divarlarını
dağıdacaq və qüllələrini uçuracaq.
Töküntülərini silib-süpürəcək, onu çılpaq bir
qayaya çevirəcəyəm. 5 Sur dənizin ortasında
torların sərildiyi bir yer olacaq, çünki Mən
bunu söylədim, Xudavənd Rəbb belə bəyan
edir. Sur millətlər üçün qarət malı olacaq.
6 Oraya tabe olan sahil şəhərlərində
yaşayanlar qılıncla öldürüləcək. Onda
biləcəklər ki, Rəbb Mənəm".

7 Xudavənd Rəbb belə deyir: "Mən
padşahlar padşahı olan Babil padşahı
Navuxodonosoru atlar, döyüş arabaları,
süvarilər, qoşun və çoxlu xalqla birgə
şimaldan Surun üstünə gətirəcəyəm. 8 Ey Sur,
o sənə tabe olan sahil şəhərlərində yaşayanları
qılıncla öldürəcək, sənə qarşı mühasirə
divarları, torpaq qalağı quracaq və sipərini
əleyhinə qaldıracaq. 9 Sənin divarlarını vurub-
dəlmək üçün qoçbaşı alətləri quracaq,
baltaları ilə qüllələrini uçuracaq. 10 Atları çox
olduğu üçün onların tozu səni örtəcək.
Divarlarında oyuq açılmış bir şəhərə girilən
tək sənin darvazalarından girdikləri zaman
atlıların, təkərlərin və döyüş arabalarının
gurultusundan divarların titrəyəcək. 11 O öz
atlarının dırnaqları ilə sənin bütün küçələrini
tapdalayıb xarab edəcək, xalqını qılıncla
öldürəcək. Möhkəm sütunların yerlə yeksan
olacaq. 12 Onlar sərvətini talan edəcək, ticarət
mallarını qarət edəcək. Sənin divarlarını
dağıdacaq, gözəl evlərini uçuracaq, daşlarını,
taxtalarını və töküntülərini suya atacaqlar.
13 Oxuduğun nəğmələrin səsinə son
qoyacağam. Liralarının sədası artıq
eşidilməyəcək. 14 Səni çılpaq bir qayaya
çevirəcəyəm, torların sərildiyi bir yer
olacaqsan. Bir daha tikilməyəcəksən", çünki
Mən Rəbb bunu söylədim, Xudavənd Rəbb
belə bəyan edir.

15 Xudavənd Rəbb Sura belə deyir: "Səndə
qırğın olanda, yaralılar inildəyəndə
dağılmağının gurultusundan sahil xalqları
titrəməyəcəkmi? 16 Bütün dəniz ölkələrinin
rəhbərləri taxtlarından enəcək, libaslarını
çıxaracaq, əlvan naxışlı paltarlarını soyunacaq,
dəhşətə bürünəcək, yerə oturacaq, hər an
titrəyəcək və sənin taleyindən heyrətə düşəcək.
17 Onlar sənin üçün mərsiyə oxuyub deyəcək:
‹Dənizçilərin yaşadığı məşhur şəhər,
Sən necə məhv oldun?
Dənizdə güclü idin.
Sən və sənin əhalin
Sahildə yaşayanların hamısını
Dəhşətə salmışdınız.
18 İndi dağıldığın gün
Adalar titrəyir,
Adalarda yaşayanlar
Sənin yıxılmağından heyrətə düşür›".

19 Xudavənd Rəbb belə deyir: "Səni
sakinsiz qalmış şəhərlər kimi xaraba bir
şəhərə çevirdiyim, əngin dənizlərlə qərq
etdiyim vaxt dərin sular səni örtəndə 20 qəbrə
enənlərlə birgə qədim zamanlarda
yaşayanların yanına endirəcəyəm. Sənin üçün
qəbrə enənlərlə birgə qədim xarabalıqlar kimi
yer üzünün dərinliklərində məskən quracağam
ki, bir daha qayıtmayasan və Mən sənə dirilər
arasında izzət verməyim. 21 Aqibətini dəhşətli
edəcəyəm. Sən artıq yox olacaqsan. Səni
axtaracaq, ancaq tapmayacaqlar" Xudavənd
Rəbb belə bəyan edir».

### *Sur şəhəri üçün mərsiyə*

27 1 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Sən ey bəşər oğlu, Sur üçün
mərsiyə oxuyub 3 ona söylə ki, sən ey dəniz
qapılarında yerləşən, çoxlu sahil xalqı ilə
ticarət edən şəhər, Xudavənd Rəbb belə deyir:
"Ey Sur, sən dedin:
‹Mən gözəllikdə qüsursuzam›.
4 Sərhədlərin dənizin qoynunda idi.
Səni tikənlər gözəlliyini kamil etdi.
5 Bütün taxtalarını
Senirin şam ağaclarından düzəltdilər.
Sənə dor qayırmaq üçün
Livandan sidr ağacları gətirdilər.

---

***26:1-28:19*** *– Yeş. 23:1-18; Yoel 3:4-8; Amos 1:9-10; Zək. 9:2-4; Mat. 11:20-22; Luk. 10:13-14*
***26:13*** *– Yeş. 24:8; Vəhy 18:22*
***26:16-18*** *– Vəhy 18:9-10*
***26:21*** *– Vəhy 18:21*

6 Avarlarını Başanın palıd ağaclarından
qayırdılar,
Göyərtəni fil sümüyü ilə bəzənən,
Kittim sahillərindən gətirilən
Şam ağaclarından düzəltdilər.
7 Sənin yelkənin, bayrağın
Misirin naxışlı kətanından oldu.
Talvarın Elişa sahillərinin
Bənövşəyi və tünd qırmızı parçalarından
idi.
8 Sidonda və Ervadda yaşayanlar
Sənin avar çəkənlərin idi.
Ey Sur, səndə bacarıqlı adamlar var idi,
Gəmiçilərin onlardan idi.
9 Gəmilərindəki yarıqları tə'mir edənlər
Gevalın təcrübəli və bacarıqlı adamları
idi.
Dənizdəki bütün gəmilər və dənizçilər
Mallarını dəyişmək üçün
Sənin yanına gəldi.
10 Fars, Lud və Put əsgərləri
Ordunda xidmət edirdi.
Qalxanlarını, dəbilqələrini
Divarlarından asdılar,
Sənə əzəmət verdilər.
11 Ervaddan və Xelekdən gələnlər
Hər tərəfdən divarlarını qorudu.
Qammadlılar qüllələrində gözətçi oldu.
Qalxanlarını divarlarından asdı,
Gözəlliyini kamil etdi.

12 Səndə hər cür mal bol olduğu üçün
Tarşiş səninlə ticarət etdi,
Mallarının əvəzinə sənə
Gümüş, dəmir, qalay və qurğuşun
verdilər.
13 Yavan, Tuval və Meşek səninlə ticarət
etdi,
Mallarının əvəzinə sənə
Qullar və tunc qablar verdilər.
14 Bet-Toqarma xalqı
Mallarının əvəzinə sənə
At, döyüş atı və qatır verdi.
15 Dedan xalqı səninlə ticarət etdi,
Çoxlu sahil xalqı sənin müştərin idi,
Səndən aldıqları malın əvəzinə
Fil sümüyü və abnos ağacı verdilər.
16 Sənin mə'mulatın çox olduğu üçün
Aram səninlə ticarət etdi,
Mallarının əvəzində sənə
Firuzə, tünd qırmızı qumaş, naxışlı
paltarlar,
İncə kətan, mərcan və yaqut verdilər.
17 Yəhuda və İsrail ölkəsi səninlə ticarət
etdi,
Mallarının əvəzinə sənə
Minnit buğdası, darı, bal,
Zeytun yağı və balzam verdilər.
18 Sənin mə'mulatın çox olduğu üçün,
Səndə hər cür mal bol olduğuna görə
Dəməşq səninlə ticarət etdi,
Helbon şərabı, Saxar yunu ilə ticarət etdi.
19 Vadan və Uzaldan gələn
Yavan səninlə ticarət etdi.
Sənə gətirilən mallar arasında
İşlənmiş dəmir, darçın
Və ətirli qamış var idi.
20 Dedan xalqı səninlə ticarət edib
Sənə yəhər üçün qumaş verdi.
21 Ərəbistan və bütün Qedar rəhbərləri
Sənin müştərilərin idi,
Quzu, qoç və təkə ilə
Səninlə ticarət etdilər.
22 Səba və Raama tacirləri
Səninlə ticarət etdi.
Mallarının əvəzinə sənə
Hər cür dəyərli ətriyyat, qiymətli daşlar
Və qızıl verdilər.
23 Xaran, Kanne, Eden, Səba tacirləri,
Aşşur və Kilmad
Səninlə ticarət etdi,
24 Onlar bazarlarında
Gözəl paltar, bənövşəyi qumaş, naxışlı
libaslar,
Sıx toxunmuş, iplərlə bağlanmış
Rəngli xalçalarla
Səninlə ticarət etdi.

25 Tarşiş gəmiləri[8] sənin mallarını daşıdı.
Dənizin qoynunda böyük yüklə doldun.
26 Avarçəkənlərin səni açıq dənizlərə
çıxartdı,
Ancaq şərq yeli dənizin qoynunda səni
parçaladı.
27 Gəmin qəzaya uğradığı gün
Var-dövlətin, malların, ticarət şeylərin,
Gəmiçilərin, sükançıların,
Tə'mirçilərin, ticarət şəriklərin,
Döyüşçülərin – içində olan bütün camaat
Dənizin dərinliklərinə batacaq.
28 Sükançıların fəryadından
Dənizin sahilləri titrəyəcək.

---

***27:25-36*** *– Vəhy 18:11-19*
[8] **27:25** *Tarşiş gəmiləri* – yaxud *ticarət gəmiləri.*

[29] Avarçəkənlərin hamısı gəmilərini tərk edəcək,
Gəmiçilərlə sükançıların hamısı
Gəmilərindən düşüb quruda dayanacaq.
[30] Uca səslə sənin üçün
Acı-acı fəryad edəcəklər.
Başlarına torpaq səpələyəcəklər,
Küldə eşələnəcəklər.
[31] Sənin üçün saçlarını ülgüclə qırxacaqlar,
Çula bürünəcəklər.
Sənin üçün acı-acı ağlayıb
Yas tutacaqlar.
[32] Yaslarında sənin üçün mərsiyə oxuyub
Belə deyəcəklər:
‹Dənizin ortasında
Sur şəhəri kimi susdurulan
Bir şəhər varmı görəsən?›
[33] Malların dənizin o tayına çatanda
Çoxlu xalqı doydururdun.
Böyük var-dövlətinlə, malınla
Dünya padşahlarını sərvət sahibi edirdin.
[34] İndi isə dənizdə, suların dərinliyində
Xarabalığa çevrildiyin zaman
Mal-dövlətin və bütün camaatın
Səninlə birlikdə batdı.
[35] Sahillərdə yaşayanların hamısı
Başına gələnlərdən heyrətə düşdü.
Onların padşahlarının tükləri biz-biz oldu,
Bənizləri soldu.
[36] Millətlərin arasındakı tacirlər
Sənə görə fit çalacaq.
Aqibətin dəhşətli oldu,
Sən əbədi olaraq yox olacaqsan”».

### *Sur padşahının əleyhinə peyğəmbərlik*

28 [1] Mənə Rəbbin bu sözü nazil oldu:
[2] «Ey bəşər oğlu, Sur hökmdarına
söylə ki, Xudavənd Rəbb belə deyir: “Sən
qürurlandın və belə söylədin:
‹Mən Allaham,
Dənizlərin qoynunda,
Allahın taxtında otururam›.
Ürəyində özünü Allah sandın,
Ancaq sən Allah deyil, insansan.
[3] Bax sən Danieldən daha müdriksən,
Heç kəs öz sirrini səndən gizləyə bilməz.
[4] Müdrikliyin və ağlınla özünə sərvət yığdın,
Xəzinələrinə qızıl-gümüş topladın.
[5] Ticarətdə çox bacarıqlı olduğun üçün
Öz sərvətini artırdın.
Var-dövlətin çoxalanda
Özünə qürrələndin”.

[6] Buna görə də Xudavənd Rəbb belə deyir:
“İndi ki ürəyində özünü Allah sandın,
[7] Mən də yadelliləri, ən rəhmsiz millətləri
Üstünə göndərəcəyəm.
Onlar sənin müdrikliyinin gözəlliyinə
Qılınc çəkib
Əzəmətini murdarlayacaq.
[8] Səni məzara endirəcəklər.
Sən dənizlərin qoynunda
Dəhşətli bir ölümlə məhv olacaqsan.
[9] Səni öldürənlərə də
‹Mən Allaham› deyəcəksənmi?
Səni öldürənlərin əlində
Sən Allah deyil, insansan.
[10] Yadellilərin əlində
Sünnətsizlərin ölümü ilə öləcəksən”.
Çünki Mən bunu söylədim,
Xudavənd Rəbb belə bəyan edir».

[11] Mənə yenə Xudavənd Rəbbin sözü nazil
oldu: «Ey bəşər oğlu, Sur padşahı üçün
mərsiyə oxuyub söylə ki, Xudavənd Rəbb
belə deyir:

[12] “Sən kamilliyin möhürüsən,
Müdrikliyin bütöv,
Gözəlliyin qüsursuz idi.
[13] Sən Allahın bağçası olan
Eden bağında idin.
Cürbəcür qiymətli daşlarla –
Yaqut, topaz, almaz,
Sarı yaqut, damarlı əqiq, yəşəm daşı,
Göy yaqut, firuzə və zümrüdlə bəzənmişdin.
Qaxma və oyma işlərin qızıldan idi.
Bunlar yaradıldığın gün hazırlanmışdı.
[14] Sən məsh edilmiş, qoruyucu bir keruv idin.
Səni bunun üçün qoymuşdum.
Allahın müqəddəs dağının üstündə idin,
Odlu daşlar arasında gəzirdin.
[15] Yaradıldığın gündən
Səndə pislik tapılana qədər
Yollarında qüsursuz idin.
[16] Bol ticarətindən ötrü
İçin zorakılıqla doldu,
Sən günah etdin.

---

***28:13*** *– Yar. 2:9*

Buna görə də səni murdar bir şey kimi
Allahın dağından atdım,
Odlu daşların arasından qovdum,
Ey qoruyucu keruv!
17 Gözəl olduğun üçün ürəyin qürurlandı,
Əzəmətinə görə müdrikliyini korladın.
Beləcə səni yerə atdım,
Padşahların önündə tamaşaya çevirdim.
18 Çoxlu təqsir etdiyin üçün,
Ticarətdə əliəyriliyinə görə
Müqəddəs məkanlarını murdarladın.
Mən içindən bir od çıxardım ki,
Səni yandırıb məhv etsin.
Bütün seyr edənlərin gözü önündə
Səni torpaq üstündə külə çevirdim.
19 Xalqlar arasında səni tanıyanlar
Fəlakətinə heyrət etdi.
Aqibətin dəhşətli oldu,
Artıq salamat qalmayacaqsan"».

### *Sidonun əleyhinə peyğəmbərlik*

20 Mənə Rəbbin bu sözü nazil oldu: 21 «Ey
bəşər oğlu, üzünü Sidona tərəf çevirib onun
əleyhinə peyğəmbərlik edərək söylə ki,
22 Xudavənd Rəbb belə deyir:
"Ey Sidon, Mən sənin əleyhinəyəm,
Sənin içində izzət qazanacağam.
Mən sakinlərini cəzalandırıb
Müqəddəsliyimi onlara göstərəndə
Biləcəklər ki, Rəbb Mənəm.
23 Əhalinin içinə vəba,
Küçələrinə qan göndərəcəyəm.
Hər tərəfdən onların üstünə gələn
qılıncla
Vurulub həlak olacaqlar.
Onda biləcəklər ki, Rəbb Mənəm.

### *Allahın İsrail xalqına və'di*

24 İsrail nəslinin ətrafında olub onları təhqir
edən heç bir xalq bir daha İsrail üçün batan
bir tikan, sancan bir qanqal olmayacaq. Onda
biləcəklər ki, Rəbb Mənəm".

25 Xudavənd Rəbb belə deyir: "İsrail xalqını
aralarına səpələdiyim xalqların içindən
yığanda, millətlərin gözü önündə
müqəddəsliyimi onlara göstərəndə qulum
Yaquba verdiyim torpaqlarında sakin
olacaqlar. 26 Orada asayiş içində yaşayacaq,
evlər tikəcək və bağlar salacaqlar. Onları
təhqir edən bütün ətraf xalqları
cəzalandırdığım zaman asayiş içində
yaşayacaqlar. Onda biləcəklər ki, Rəbb
Mənəm"».

### *Misirin əleyhinə peyğəmbərlik*

29 1 Sürgünlüyümüzün onuncu ilində,
onuncu ayın on ikinci günü mənə
Rəbbin sözü nazil oldu: 2 «Ey bəşər oğlu,
üzünü Misir padşahı olan fir'ona tərəf çevir,
onun və bütün Misirin əleyhinə peyğəmbərlik
edib söylə ki, 3 Xudavənd Rəbb belə deyir:
"Ey öz çayları içində yatan
Böyük əjdaha Misir padşahı fir'on,
Mən sənin əleyhinəyəm.
Sən deyirsən: ‹Nil çayı mənimdir,
Onu özüm üçün yaratdım›.
4 Sənin çənənə qarmaq keçirəcəyəm,
Çaylarındakı balıqları
Sənin pulcuqlarına yapışdıracağam.
Pulcuqlarına yapışmış balıqlarla birgə
Səni çaylarından çıxaracağam.
5 Səni də, çaylarındakı bütün balıqları da
Səhraya atacağam.
Çöllərə düşəcəksən,
Yığılıb basdırılmayacaqsan.
Səni yem kimi vəhşi heyvanlara,
Göydəki quşlara verəcəyəm.
6 Onda Misirdə yaşayan hər kəs
Biləcək ki, Rəbb Mənəm.
Çünki sən İsrail xalqı üçün
Qamışdan olan bir dəyənək oldun.
7 Səndən yapışdıqları zaman
Qırılıb onların çiyinlərini yardın,
Sənə söykəndikləri zaman
Qopub onların bellərini burxutdun".[9]
8 Buna görə də Xudavənd Rəbb belə deyir:
"Mən sənin üstünə qılınc gətirəcəyəm, insanı
da, heyvanı da üzərindən silib məhv
edəcəyəm. 9 Misir kimsəsiz qalacaq və
xarabalığa çevriləcək. Onda biləcəklər ki,
Rəbb Mənəm. Fir'on dedi: ‹Nil çayı
mənimdir, onu mən yaratdım›. 10 Buna görə də
Mən sənin və çaylarının əleyhinə olacağam.
Misir torpağını Miqdoldan Asvana, Kuş
sərhədinə qədər kimsəsiz qoyacağam və
xarabalığa çevirəcəyəm. 11 İçindən insan ayağı
da, heyvan ayağı da keçməyəcək, orada qırx il
adam yaşamayacaq. 12 Misiri xaraba qalan
ölkələr kimi xarabalığa çevirəcəyəm.

***28:20-26*** *– Yoel 3:4-8; Zək. 9:1-2; Mat. 11:21-22; Luk. 10:13-14*

***29:1-32:32*** *– Yeş. 19:1-25; Yer. 46:2-26*
***29:6*** *– 2Pad. 18:21; Yeş. 36:6*
[9] **29:7** *Burxutdun* – qədim yunan və süryani tərcümələrində belədir, ibrani mətnində isə *dikəltdin.*

Şəhərləri viran olmuş şəhərlər kimi qırx il
kimsəsiz qalacaq. Misirliləri millətlər arasına
yayacağam, ölkələr arasına səpələyəcəyəm”.
13 Xudavənd Rəbb belə deyir: “Qırx ildən
sonra Misirliləri səpələndikləri xalqların
arasından bir yerə yığacağam. 14 Sürgün
olunan Misirliləri Patros torpağına – öz
vətənlərinə geri qaytaracağam. Onlar orada
zəif bir padşahlıq yaradacaq. 15 Padşahlıqların
ən gücsüzü olacaqlar, bir daha millətlərin
üzərində ağalıq etməyəcəklər. Daha millətlərə
hökmran olmasınlar deyə onların sayını
azaldacağam. 16 Misir bir daha İsrail xalqının
güvəndiyi yer olmayacaq. Misirlilər onlara
Misirə qayıtmaqla günah etdiklərini
xatırladacaqlar. İsraillilər onda biləcəklər ki,
Xudavənd Rəbb Mənəm”».
17 Sürgünlüyümüzün iyirmi yeddinci ilində,
birinci ayın birinci günü mənə Rəbbin sözü
nazil oldu: 18 «Ey bəşər oğlu, Babil padşahı
Navuxodonosor Surla müharibədə öz
ordusuna çox zəhmət verdi: əsgərlərin saçı
töküldü, ağır yük daşımaqdan çiyinləri yağır
oldu. Amma Surla müharibədə ordusuna
zəhmət verməsinə baxmayaraq, bunun nə
özünə, nə də ordusuna bir xeyri oldu. 19 Buna
görə də Xudavənd Rəbb belə deyir: “Mən
Misir ölkəsini Babil padşahı Navuxodonosora
verəcəyəm. O, sərvətini aparıb ölkəni qarət və
talan edəcək. Ordusunun xeyri bu olacaq.
20 Çəkdiyi zəhmətin əvəzində Misir ölkəsini
ona verdim, çünki o da, ordusu da bu işi
Mənim üçün etdi” Xudavənd Rəbb belə bəyan
edir.
21 “O gün İsrail nəslinin gücünü özünə
qaytaracağam. Onların arasında sənin dilini
açacağam. Onda biləcəklər ki, Rəbb
Mənəm”».

### *Rəbbin Misirliləri cəzalandırması*

30 1 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, peyğəmbərlik edib
söylə ki, Xudavənd Rəbb belə deyir:
“‹Ah, o gün› deyib fəryad edin,
3 Çünki o gün yaxındır,
Rəbbin günü yaxındır.
O gün buludlu gündür,
Millətlərin qiyamət günüdür.
4 Misirin üstünə qılınc gələcək,
Kuş əzab çəkəcək.
Misirdə adamlar həlak olanda
Ölkənin sərvəti qarət olunacaq,
O öz təməlindən dağılacaq.
5 Misirlə birlikdə Kuş, Put, Lud,
Bütün Ərəbistan, Kuv
Və əhd bağladığı ölkənin adamları
Qılıncdan keçiriləcək”.

6 Rəbb belə deyir:
“Misirə arxa olanlar yıxılacaq,
Onun qürurlandığı qüdrət çökəcək.
Miqdoldan Asvana qədər ərazidə
Qılıncdan keçiriləcəklər”
Xudavənd Rəbb belə bəyan edir.
7 “Misir xaraba qalmış ölkələr kimi
Xaraba qalacaq.
Şəhərləri viran olmuş
Şəhərlər kimi viran olacaq.
8 Mən Misiri oda təslim edəndə,
Ona kömək edənlər əziləndə
Biləcəklər ki, Rəbb Mənəm.

9 O gün qayğısız Kuş əhalisini
qorxutmaq üçün
Gəmilərlə qasidlər göndərəcəyəm.
Onlar Misirin dağıldığı gün gələndə
Dəhşətə düşəcək.
Budur, o gün gəlir!”
10 Xudavənd Rəbb belə deyir:
“Babil padşahı Navuxodonosor
vasitəsilə
Misirin sərvətinə son qoyacağam.
11 O öz ordusu ilə, millətlər arasında ən
rəhmsizi ilə
Ölkəni yerlə yeksan etmək üçün
gətiriləcək.
Misirə qarşı qılınc çəkəcək,
Ölkəni ölülərlə dolduracaq.
12 Çayları qurudub,
Ölkəni pis adamlara satacağam.
Ölkəni də, orada olan hər şeyi də
Yadellilərin əli ilə viran edəcəyəm”
Mən Rəbb bunu söylədim.

13 Xudavənd Rəbb belə deyir:
“Bütləri məhv edəcəyəm,
Nofdakı[10] bütləri yox edəcəyəm.
Artıq Misirdə rəhbər qalmayacaq,
Ölkəni dəhşətə salacağam.
14 Patrosu xarabalığa çevirəcəyəm,
Soanı oda verəcəyəm,
No[11] şəhərini cəzalandıracağam.

---

[10] **30:13** *Nof* – yunan adı Memfis.
[11] **30:14** *No* – yunan adı Fiv.

[15] Qəzəbimi Misirin qalası olan
Sin üzərinə tökəcəyəm,
No şəhərinin çoxlu əhalisini yox
edəcəyəm.
[16] Misiri oda verəcəyəm,
Sin ağrıdan qıvrılacaq,
No şəhərinin divarı yarılacaq.
Gündüz vaxtı Nofda
Düşmənlər cövlan edəcək.
[17] On şəhərinin və Pi-Besetin cavanları
Qılıncdan keçiriləcək.
Oradakı əhali sürgün olunacaq.
[18] Taxpanxesdə Misirin boyunduruğunu
qırdığım zaman
Orada gündüz qaranlığa çevriləcək,
Qürurlandığı qüdrət məhv olacaq.
Şəhər buludlarla örtüləcək,
Qızları sürgün olunacaq.
[19] Beləcə Misiri cəzalandıracağam.
Onda biləcəklər ki, Rəbb Mənəm"».

[20] Sürgünlüyümüzün on birinci ilində,
birinci ayın yeddinci günü mənə Rəbbin sözü
nazil oldu: [21] «Ey bəşər oğlu, Misir padşahı
fir'onun qolunu qırdım. Qolu sağalmaq üçün
bağlanmadı, ona sarğı qoyulmadı ki, qılınc ələ
alacaq qədər güclənsin.

[22] Buna görə də Xudavənd Rəbb belə deyir:
"Mən Misir padşahı fir'onun əleyhinəyəm.
Hər iki qolunu – sağlam olanı da, sınanı da
qıracaq, qılıncı əlindən salacağam.
[23] Misirliləri millətlər arasına yayacağam,
ölkələr arasına səpələyəcəyəm. [24] Babil
padşahının qoluna güc verəcək, qılıncımı
onun əlinə verəcəyəm. Fir'onun isə qollarını
qıracağam. O, Babil padşahının önündə ağır
yaralı kimi inildəyəcək. [25] Babil padşahının
qoluna güc verəcəyəm, fir'onun qolları isə
yanına düşəcək. Qılıncımı Babil padşahının
əlinə verəndə, o da bu qılıncı Misir ölkəsinə
tuşlayanda biləcəklər ki, Rəbb Mənəm.
[26] Misirliləri millətlər arasına yayacağam və
ölkələr arasına səpələyəcəyəm. Onda
biləcəklər ki, Rəbb Mənəm"».

### *Sidr ağacı ilə müqayisə*

31 [1] Sürgünlüyümüzün on birinci ilində,
üçüncü ayın birinci günü mənə
Rəbbin bu sözü nazil oldu: [2] «Ey bəşər oğlu,
Misir padşahı fir'ona və onun camaatına söylə:
"Əzəmətdə kim səninlə müqayisə edilə
bilər?
[3] Bax Aşşur Livandakı sidr ağacına
bənzəyirdi,
Meşəyə kölgə salan gözəl budaqları var
idi,
Çox uca idi, başı buludlara çatırdı.
[4] Onu sular bəslədi,
Dərin su qaynaqları böyütdü.
Çayları əkildiyi yeri əhatə etdi,
Arxları çöldəki bütün ağaclara çatırdı.
[5] Buna görə də çöldəki bütün ağaclardan
böyük oldu,
Bol su içdiyi üçün qol-budaq atıb
Şaxələri uzandı.
[6] Bütün göy quşları onun budaqlarında
yuva qurdu,
Vəhşi heyvanlar şaxələri altında balaladı,
Bütün böyük millətlər kölgəsində yaşadı.
[7] Böyüklüyü və uzun budaqları ilə gözəl
oldu,
Çünki kökləri bol su içdi.
[8] Allahın bağçasındakı sidr ağacları da
Boyda ona çatmazdı,
Şam ağacları boyda onun budaqlarına
yetməzdi,
Çinar ağacları onun şaxələri kimi deyildi,
Allahın bağçasındakı ağaclardan heç biri
Onun kimi gözəl deyildi.
[9] Sıx budaqlarla o sidr ağacını
gözəlləşdirdim,
Allahın bağçası olan Edendəki
Bütün ağaclar ona qısqandı".

[10] Buna görə də Xudavənd Rəbb belə deyir:
"İndi ki boyu ucalıb başı buludlara çatanda
ucalığına görə ürəyi qürurlandı, [11] Mən də onu
millətlərin başçısına təslim etdim. O da
onunla pisliyinə görə rəftar edəcək. Mən onu
qovdum və [12] yadelli millətlərin ən rəhmsizi
onu kəsib yerə yıxdı. Budaqları dağlara və
bütün dərələrə düşdü. Şaxələri ölkənin bütün
vadilərində qırılıb qaldı. Yer üzünün bütün
xalqları kölgəsindən çəkilib onu tərk etdi.
[13] Göydəki bütün quşlar onun yıxılmış
gövdəsi üstünə qondu, bütün vəhşi heyvanlar
şaxələri arasında yaşadı. [14] Bu ona görə oldu
ki, bir daha suların yaxınlığında bitən heç bir
ağac boy-buxun atmasın, başını buludlara
çatdırmasın, bol su içən heç bir ağac bu qədər
yüksəlməsin. Çünki onların hamısı qəbrə enən
insanlarla birgə ölümə – yerin dərinliklərinə
təslim edildi".

[15] Xudavənd Rəbb belə deyir: "Sidr ağacı
ölülər diyarına endiyi gün ona yas tutsunlar

---

***31:8*** *– Yar. 2:9*

deyə dərin su qaynaqlarını örtdüm, çaylarını
dayandırdım, gur sularının qabağını kəsdim.
O ağac üçün Livana yas tutdurdum, bütün çöl
ağaclarını qurutdum.
16 Qəbrə enənlərlə birgə onu ölülər diyarına
endirdiyim zaman dağılmasının
gurultusundan millətləri lərzəyə saldım. O
zaman Eden bağındakı bütün ağaclar, Livanın
ən seçilmiş, ən yaxşı və bol sulanan ağacları
yerin dərinliklərində təsəlli tapdı.
17 Kölgəsində yaşayanlar, millətlər arasında
ona arxa duranlar da onunla birlikdə ölülər
diyarına – qılıncla öldürülmüş adamların
yanına endi.
18 Eden ağaclarından hansı izzət və
əzəmətdə səninlə müqayisə edilə bilər? Ancaq
sən Eden ağacları ilə birgə yerin dərinliklərinə
endiriləcək, qılıncla öldürülənlərlə birgə
sünnətsizlərin arasında yatacaqsan. Fir'onun
və onun camaatının aqibəti belə olacaq"
Xudavənd Rəbb belə bəyan edir».

### *Fir'on üçün mərsiyə*

32 1 Sürgünlüyümüzün on ikinci ilində,
on ikinci ayın birinci günü mənə
Rəbbin bu sözü nazil oldu: 2 «Ey bəşər oğlu,
Misir padşahı fir'on üçün mərsiyə oxuyub ona
söylə:

"Millətlər içində özünü cavan bir aslana
bənzətdin,
Amma sən bir dəniz əjdahası kimisən.
Çayları qarışdırırsan,
Ayaqlarınla suları çalxalayıb
Çayları bulandırırsan".
3 Xudavənd Rəbb belə deyir:
"Çoxlu xalqdan ibarət bir qoşun
göndərib
Torumu üstünə atacağam.
Onlar səni torumla dartıb çıxaracaq.
4 Səni quruya çıxaracağam,
Çölün üzünə atacağam,
Göydəki quşları üstünə qonduracağam.
Yer üzünün vəhşi heyvanlarını
Səninlə doyduracağam.
5 Bədənini dağların üstünə sərəcəyəm,
Dərələri leşinlə dolduracağam.
6 Ölkəni dağlara qədər axan qanınla
sulayacağam,
Vadilər meyitinlə dolacaq.
7 Səni məhv etdiyim zaman
Göyləri bağlayacağam,
Ulduzları qaraldacağam,
Günəşi buludla örtəcəyəm,
Ay işığını verməyəcək.
8 Sənin üzərində nur saçan
Bütün səma cisimlərini qaraldacağam,
Ölkəni qaranlığa qərq edəcəyəm"
Xudavənd Rəbb belə bəyan edir.

9 "Sənin məhv olmaq xəbərini,
Millətlərin arasına,
Tanımadığın ölkələrə çatdırdığım zaman
Bir çox xalqların ürəyini
kədərləndirəcəyəm.
10 Sənin başına gələnlərlə
Bir çox xalqı heyrətə salacağam.
Onların önündə qılıncımı yellədiyim
zaman
Sənə görə padşahlarının tükləri biz-biz
olacaq.
Yıxıldığın gün
Onların hamısı öz canları üçün
Durmadan qorxu içində titrəyəcək".

11 Xudavənd Rəbb belə deyir:
"Babil padşahının qılıncı sənin üstünə
gələcək.
12 Millətlərin ən rəhmsizi olan igidlərin
Sənin xalqını qılıncdan keçirməsinə izin
verəcəyəm.
Misirin qürurunu qıracaqlar,
Bütün ordusunu məhv edəcəklər.
13 Bol suların yanında otlayan
Bütün mal-qaranı yox edəcəyəm.
Bundan sonra insan ayağı da, heyvan
ayağı da
Suları qarışdırıb bulandırmayacaq.
14 O zaman onların sularını
duruldacağam,
Çaylarını yağ kimi axıdacağam"
Xudavənd Rəbb belə bəyan edir.
15 "Misiri xarabalığa çevirəndə,
Ölkəni hər şeydən məhrum edəndə,
Orada yaşayan hər kəsi məhv edəndə
Biləcəklər ki, Rəbb Mənəm".
16 Misir üçün oxunan mərsiyə budur.
Millətlərin qızları bu mərsiyəni oxuyacaq.
Misir və onun xalqı üçün bu mərsiyəni
oxuyacaqlar. Xudavənd Rəbb belə bəyan
edir».
17 Sürgünlüyümüzün on ikinci ilində, ayın
on beşinci günü mənə yenə Rəbbin sözü nazil

---

***32:7*** *– Yeş. 13:10; Yoel 2:10,31; 3:15; Mat. 24:29; Mrk. 13:24-25; Luk. 21:25; Vəhy 6:12-13; 8:12*

oldu: 18 «Ey bəşər oğlu, Misir xalqı üçün yas
tut. Onları və güclü millətlərin qızlarını qəbrə
enənlərlə birgə yerin dərinliklərinə endir.
19 Onlara söylə: "Məgər sən başqalarından
daha gözəlsən? Yerin altına en və oradakı
sünnətsizlərlə birgə uzan". 20 Misir xalqı
qılıncla öldürülənlərin arasına düşəcək. Bu
xalq qılıncın ixtiyarına verildi. Qoy Misir
bütün camaatı ilə birgə sürüklənsin.
21 Qüdrətli başçılar ölülər diyarından Misir və
ona arxa olanlar üçün belə söyləyəcək: "Yerin
altına endilər, qılıncla öldürülən sünnətsizlər
kimi indi burada yatırlar".

22 Aşşur və bütün ordusu oradadır.
Qılıncdan keçirilmiş, ölmüş əsgərlərinin
məzarları ətrafını bürümüşdür. 23 Onların
məzarları qəbrin lap dibində, ordusu
məzarının ətrafında uzanıb. Dirilər arasına
qorxu salanların hamısı qılıncdan keçirilib
öldürülmüşdür.

24 Elam oradadır və bütün xalqı öz
məzarlarının ətrafında uzanıb. Onların hamısı
qılıncdan keçirilmiş, ölmüş və sünnətsiz halda
yerin dərinliklərinə enmişdir. Dirilər arasına
qorxu salmışdılar, indi isə xəcalət içində
qəbrə enənlərə qoşuldular. 25 Elam üçün
öldürülənlər arasında bir yataq hazırlandı.
Bütün xalqı məzarının ətrafındadır. Onların
hamısı sünnətsiz halda qılıncdan keçirilib
öldürülmüşdür. Dirilər arasına qorxu
salmışdılar, indi isə xəcalət içində qəbrə
enənlərə qoşulub öldürülənlərin arasına
qoyuldular.

26 Meşek, Tuval oradadır və bütün xalqı öz
məzarlarının ətrafında uzanıb. Onların hamısı
sünnətsiz halda qılıncdan keçirilib
öldürülmüşdür. Dirilər arasına qorxu
salmışdılar. 27 Onlar da döyüş silahları ilə
ölülər diyarına enən, qılıncları başlarının
altına qoyulan, sünnətsiz igidlərlə birgə
məzara uzanacaq. Onların cəzası özlərinin
üzərinə gəldi. Sağ ikən bu igidlər dirilər
arasına qorxu salmışdılar.

28 Sən də, ey fir'on, qırılacaqsan, qılıncla
öldürülənlərlə birgə sünnətsizlərin arasında
uzanacaqsan.

29 Edom, padşahları və bütün rəhbərləri
oradadır. Güclü olmalarına baxmayaraq,
qılıncla öldürülənlərin yanına qoyuldular.
Qəbrə enənlərin, sünnətsizlərin yanına
uzanırlar.

30 Bütün şimal ölkələrinin başçıları, bütün
Sidonlular oradadır. Gücləri ilə qorxu
saldıqları halda öldürülənlərlə birgə
rüsvayçılıq içində yerin altına endilər.
Sünnətsiz halda qılıncla öldürülənlərlə birgə
xəcalət içində qəbrə enənlərin yanına
uzandılar.

31 "Fir'on və onun bütün ordusu qılıncla
öldürülmüş bu böyük kütləni görəndə təsəlli
tapacaq" Xudavənd Rəbb belə bəyan edir.
32 "Dirilər arasına qorxu salmasına izin
verdiyimə baxmayaraq, fir'on və onun bütün
xalqı qılıncla öldürülənlərlə birgə
sünnətsizlərin yanına uzanacaq" Xudavənd
Rəbb belə bəyan edir».

### *Rəbb Yezekeli xalqa gözətçi qoyur*

33 1 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, xalqına mənsub
olanlara belə söylə: "Deyək ki Mən bir
ölkənin üstünə qılınc göndərəndə ölkə xalqı
içindən bir nəfəri seçib özləri üçün gözətçi
qoyur. 3 Bu gözətçi də ölkənin üstünə qılıncın
gəldiyini görəndə şeypur çalıb xalqa
xəbərdarlıq edir. 4 O zaman kim şeypur səsini
eşidib xəbərdarlığa diqqət etməsə və qılınc
gəlib onu öldürsə, ölümünün məs'uliyyətini
özü daşıyır. 5 O, şeypur səsini eşitmiş, ancaq
xəbərdarlığa diqqət etməmişdir, buna görə də
ölümünün məs'uliyyətini özü daşıyır. Amma
xəbərdarlığa diqqət etsəydi, canını xilas
edərdi. 6 Lakin gözətçi gələn qılıncı görüb
şeypur çalmırsa, xalqa xəbərdarlıq edilmirsə
və qılınc da gəlib onlardan birini həlak edirsə,
o adam öz təqsirinə görə öldürülmüşdür,
ancaq ölümünün məs'uliyyətini gözətçinin
üzərinə qoyaram.

7 Sən ey bəşər oğlu, səni İsrail nəsli üçün
gözətçi qoydum. Sən sözü Mənim ağzımdan
eşidib Mənim tərəfimdən onlara xəbərdarlıq
edəcəksən. 8 Pis adama Mən ‹ey pis adam,
mütləq öləcəksən› deyəndə sən ona öz
yolundan dönmək üçün xəbərdarlıq etməsən,
o pis adam öz təqsirinə görə öləcək, ancaq
ölümünün məs'uliyyətini sənin üzərinə
qoyacağam. 9 Əgər sən pis adama öz yolundan
dönmək üçün xəbərdarlıq etsən, amma o öz
yolundan dönməsə, öz təqsirinə görə öləcək,
sənsə canını qurtarmış olursan".

10 Sən ey bəşər oğlu, İsrail evinə belə söylə:
"Siz deyirsiniz ki, üsyanlarımız və
günahlarımız bizi üzür və biz onların içində

əriyib yox oluruq. Belə halda necə yaşaya
bilərik?” 11 Onlara de: “Varlığıma and olsun,
pis adamın ölümündən yox, onun öz yolundan
dönüb yaşamasından zövq alıram” Xudavənd
Rəbb bəyan edir. “Dönün, pis yollarınızdan
dönün. Nə üçün öləsiniz, ey İsrail nəsli?”

12 Sən ey bəşər oğlu, xalqına mənsub
olanlara söylə: “Üsyan etdiyi halda salehin
salehliyi onu xilas etməz. Pis adama gəlincə,
o öz pisliyindən dönərsə, bundan ötrü həlak
olmaz. Saleh adam günah etdiyi halda öz
salehliyi ilə yaşaya bilməz. 13 Saleh adama
‹əlbəttə, yaşayacaqsan› dediyim zaman o öz
salehliyinə güvənib pislik edərsə, saleh
işlərindən heç biri yada salınmayacaq və
etdiyi pisliyə görə öləcək. 14 Pis adama
‹əlbəttə, öləcəksən› dediyim zaman
günahından dönüb ədalətli və saleh işlər
görərsə – 15 girovunu geri verərsə,
soyğunçuluqla aldığını geri qaytararsa, pislik
etmədən həyatverici qaydalara görə rəftar
edərsə, əlbəttə, ölməyib yaşayacaq. 16 Bu
adamın etdiyi günahlardan heç biri onun
əleyhinə yada salınmayacaq. Ədalətli və saleh
əməl etdiyi üçün, əlbəttə, yaşayacaq”.

17 Ancaq sənin xalqına mənsub olanlar
deyir: “Rəbbin yolu düz deyil”. Bir halda ki
onların öz yolları düz deyil. 18 Saleh adam öz
salehliyindən dönüb pislik edərsə, bundan
ötrü öləcək. 19 Pis adam öz pisliyindən dönüb
ədalətli və saleh əməl etsə, bu əməllərlə
yaşayacaq. 20 Ancaq siz deyirsiniz: “Rəbbin
yolu düz deyil”. Sizin hər birinizi öz əməlinə
görə mühakimə edəcəyəm, ey İsrail nəsli!»

### *Yerusəlimin süqut xəbəri*

21 Sürgünlüyümüzün on birinci ilində,
onuncu ayın beşinci günü Yerusəlimdən qaçıb
qurtulmuş bir nəfər gəlib mənə dedi: «Şəhər
zəbt edildi». 22 O qaçqın mənim yanıma
gəlməmişdən əvvəl axşam vaxtı Rəbbin əli
mənim üstümdə idi və mən danışa bilmirdim.
Səhər adam yanıma gəlməzdən qabaq Rəbb
dilimi açdı, dilim açıldı, artıq danışa bilirdim.

23 Onda mənə Rəbbin bu sözü nazil oldu:
24 «Ey bəşər oğlu, İsrailin xaraba qalmış
şəhərlərində yaşayanlar belə söyləyir:
“İbrahim yalqız olduğu halda ölkəni mülk aldı.
Biz isə çoxuq, ona görə də ölkə mülk olaraq
bizə verilmişdir”. 25 Bu sözlərdən ötrü onlara
söylə ki, Xudavənd Rəbb belə deyir: “Əti qanı
ilə yeyirsiniz, bütlərinizə güvənirsiniz və qan
tökürsünüz. Belə olduğu halda ölkəni mülk
ala biləcəksinizmi? 26 Qılıncınıza
arxalanırsınız, iyrənc işlər görürsünüz, hər kəs
öz qonşusunun arvadını murdar edir. Belə
olduğu halda ölkəni mülk ala
biləcəksinizmi?”

27 Onlara söylə ki, Xudavənd Rəbb belə
deyir: “Varlığıma and olsun ki, xaraba qalan
şəhərlərdə yaşayanlar hökmən qılıncla həlak
olacaq. Çöldə qalanları yem olsunlar deyə
vəhşi heyvanlara verəcəyəm. Qalalarda və
mağaralarda olanlar vəbadan öləcək. 28 Ölkəni
xaraba və sakinsiz qoyacağam.
Qürurlandıqları qüdrət heç olacaq. İsrail
dağları sakinsiz qalacaq, oradan kimsə
keçməyəcək. 29 Etdikləri bütün iyrənc işlərdən
ötrü ölkəni xaraba və sakinsiz qoyduğum
zaman biləcəklər ki, Rəbb Mənəm.

30 Sənə gəlincə, ey bəşər oğlu, xalqına
mənsub olanlar divarların dibində, evlərin
qapısı qarşısında sənin barəndə danışır. Bir-
birlərinə deyirlər: ‹Gəl gedək, Rəbb
tərəfindən nazil olan sözə qulaq asaq›. 31 Xalq
hər vaxt olduğu kimi sənin yanına gəlir.
Mənim xalqım olduqları halda önündə oturur,
sözlərinə qulaq asır, amma dediklərini
etmirlər. Dilləri ilə səmimi olduqlarını iddia
edirlər, ancaq ürəkləri haram qazanc dalınca
gedir. 32 Sən onlar üçün gözəl səslə sevgi
nəğmələri oxuyan yaxşı bir çalğıçı kimisən.
Sözlərinə qulaq asır, ancaq dediklərini
etmirlər. 33 Lakin bütün bunlar doğru çıxanda
– mütləq doğru çıxacaq – aralarında bir
peyğəmbər olduğunu başa düşəcəklər”».

### *İsrail başçılarına müraciət*

34 1 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, peyğəmbərlik et,
İsrailin çobanlarına qarşı peyğəmbərlik edib
onlara söylə ki, Xudavənd Rəbb belə deyir:
“Yalnız özlərini bəsləyən İsrail çobanlarının
vay halına! Çobanlar sürünü bəsləməli
deyilmi? 3 Yağdan yeyir, yundan paltar geyir,
bəslənmiş qoyun-keçini kəsirsiniz, ancaq
sürünün qayğısına qalmırsınız. 4 Zəiflərə
qüvvət vermədiniz, xəstə olanı sağaltmadınız,
yaralanana sarğı qoymadınız, azanı geri
qaytarmadınız, itəni axtarmadınız. Ancaq zor
və qəddarlıqla onlara ağalıq etdiniz. 5 Onlar da

---

***33:21*** *– 2Pad. 25:3-10; Yer. 39:2-8; 52:4-14*

***34:5*** *– Say. 27:17; 1Pad. 22:17; 2Saln. 18:16; Zək. 10:2; Mat. 9:36; Mrk. 6:34*

çoban olmadığı üçün dağılışdı və vəhşi
heyvanlara yem oldu. 6 Mənim sürüm bütün
dağları və yüksək təpələri avara dolaşdı.
Onlar bütün yer üzünə dağılışdı. Bir soruşan,
bir axtaran yox”.
7 Buna görə də, ey çobanlar, Rəbbin sözünə
qulaq asın. 8 Xudavənd Rəbb bəyan edir:
“Varlığıma and olsun, indi ki çoban olmadığı
üçün sürüm qarət edildi, bütün vəhşi
heyvanlara yem oldu, çobanlarım da sürümü
axtarmadı və bəsləmədi, ancaq öz-özlərini
bəslədi – 9 bütün bunlara görə, ey çobanlar,
Rəbbin sözünə qulaq asın. 10 Xudavənd Rəbb
belə deyir: ‹Mən bu çobanların əleyhinəyəm.
Sürüm üçün hesab vermələrini tələb
edəcəyəm. Sürünü otarmaq işini bir daha
onlara həvalə etməyəcəyəm. Artıq çobanlar
özlərini bəsləməyəcək. Sürümü onların
dişlərindən qurtaracağam, bir daha onlara
yem olmayacaqlar›”.
11 Çünki Xudavənd Rəbb belə deyir: “Mən
Özüm qoyunlarımı soruşub axtaracağam.
12 Dağılışmış qoyunlarının arasında olan bir
çoban sürüsünü necə yoxlayırsa, Mən də
qoyunlarımı eləcə yoxlayacağam. Buludlu və
qaranlıq bir gündə ətrafa səpələndikləri hər
yerdən onları qurtaracağam. 13 Onları
xalqların arasından çıxaracağam, ölkələrdən
toplayıb öz torpaqlarına gətirəcəyəm. İsrail
dağlarında, vadilərdə, ölkənin bütün məskuni
yerlərində onları otaracağam. 14 Onları gözəl
bir otlaqda otaracağam. Yaylaqları İsrailin
uca dağları üzərində olacaq. Orada gözəl bir
yaylaqda yatacaqlar. İsrail dağları üzərində
olan sıx otlaqda otlayacaqlar. 15 Sürümü Mən
Özüm otaracağam, onları Mən Özüm
yatıracağam” Xudavənd Rəbb belə bəyan edir.
16 “İtəni axtaracaq, azanı geri qaytaracaq,
yaralı olana sarğı qoyacaq, xəstə olana qüvvət
verəcək, ancaq bəslənmiş və güclü olanları
həlak edəcəyəm. Mən qoyunlarımı ədalətlə
otaracağam”.
17 Siz ey Mənim sürüm, Xudavənd Rəbb
belə deyir: “Qoyunla qoyun arasında, qoçlarla
təkələr arasında Mən hökm edəcəyəm.
18 Gözəl otlaqda otlamağınız sizə az idi ki,
otlaqlarınızın qalanını da ayaqlarınız altında
tapdalayırsınız? Duru su içməyiniz sizə az idi
ki, artığını da ayaqlarınızla bulandırırsınız?
19 Mənim qoyunlarım isə sizin ayaqlarınızla
tapdaladıqlarınızı yeyir, ayaqlarınızla
bulandırdıqlarınızı içir”.
20 Buna görə də Xudavənd Rəbb onlara belə
deyir: “Mən bəslənmiş qoyunla zəif qoyunun
arasında hökm edəcəyəm. 21 Siz bütün zəif
qoyunları böyrünüzlə və çiyninizlə itələyir,
kənara çıxarmaq üçün buynuzlarınızla
vurursunuz. 22 Buna görə də Mən sürümü xilas
edəcəyəm. Onlar daha qarət malı olmayacaq
və qoyunla qoyun arasında Mən hökm
edəcəyəm. 23 Başlarına onları otaran yeganə
çoban olaraq qulum Davudu qoyacağam.
Onları o otaracaq, çobanları da o olacaq.
24 Mən Rəbb onların Allahı olacağam, qulum
Davud da onların içində rəhbər olacaq” Mən
Rəbb bunu söylədim.
25 “Onlarla bir sülh əhdi bağlayacağam,
ölkədən zərərli heyvanları qovacağam ki,
onlar çöldə asayiş içində yaşayıb meşələrdə
yatsın. 26 Onların özlərinə də, təpəmin
ətrafındakı yerlərə də bərəkət verəcəyəm.
Yağışı vaxtında yağdıracağam, bərəkətli
yağışlar olacaq. 27 Çöldəki ağaclar meyvə
yetirəcək, torpaq məhsul verəcək. Xalq öz
torpağında asayiş içində yaşayacaq.
Boyunduruq iplərini qırıb onları qul edənlərin
əlindən qurtardığım zaman biləcəklər ki,
Rəbb Mənəm. 28 Artıq millətlərin qarət malı
olmayacaq, vəhşi heyvanların yemi
olmayacaqlar. Asayiş içində yaşayacaqlar,
onları qorxudan olmayacaq. 29 Onlar üçün
şöhrətli bir şitillik yetişdirəcəyəm. Daha
ölkədə aclıqdan tələf olmayacaq, millətlərin
təhqirlərinə mə’ruz qalmayacaqlar. 30 Onda
biləcəklər ki, Mən – özlərinin Allahı Rəbb
onlarlayam, onlar – İsrail nəsli də Mənim
xalqımdır” Xudavənd Rəbb belə bəyan edir.
31 “Mənim qoyunlarım, otlağımın qoyunları
siz insanlarsınız, Mən də sizin Allahınızam”
Xudavənd Rəbb belə bəyan edir».

### *Edomun əleyhinə peyğəmbərlik*

35 1 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, üzünü Seir dağına
çevir və onun əleyhinə peyğəmbərlik edib
3 söylə ki, Xudavənd Rəbb belə deyir: “Ey
Seir dağı, Mən sənin əleyhinəyəm. Mən əlimi
sənə qarşı uzadacaq, səni xaraba və sakinsiz
bir yerə çevirəcəyəm. 4 Şəhərlərini viran

---

***34:23*** *– Vəhy 7:17*
***34:24*** *– Yez. 37:24*
***35:1-15*** *– Yeş. 34:5-17; 63:1-6; Yer. 49:7-22; Yez. 25:12-14; Amos 1:11-12; Avd. 1-14; Mal. 1:2-5*

edəcəyəm və sən xarabalığa çevriləcəksən.
Onda biləcəksən ki, Rəbb Mənəm.
5 Sən İsraillilərə həmişə kin bəsləmisən,
fəlakətə düşdükləri və cəzalandırıldıqları vaxt
zirvəyə yetəndə onları qılınca təslim etmisən”.
6 Buna görə də Xudavənd Rəbb bəyan edir:
“Varlığıma and olsun ki, səni qana
bulaşdıracağam, qan səni izləyəcək, qan
tökməkdən imtina etmədiyinə görə qan səni
izləyəcək. 7 Mən Seir dağını sakinsiz bir yerə
və xarabalığa çevirəcəyəm. Oraya gedib-
gələnin ayağını kəsəcəyəm. 8 Dağlarını
ölülərlə dolduracağam, qılıncdan keçirilənlər
sənin təpələrində, dərələrində, vadilərində
yıxılıb həlak olacaq. 9 Səni əbədi olaraq
xarabalığa çevirəcəyəm, şəhərlərində heç kəs
yaşamayacaq. Onda biləcəksən ki, Rəbb
Mənəm.
10 Sən belə söylədin: ‹Rəbb o yerlərdə olsa
da, bu iki millət, bu iki ölkə mənim olacaq,
onları özümə mülk edəcəyəm›”. 11 Buna görə
də Xudavənd Rəbb belə bəyan edir:
“Varlığıma and olsun ki, xalqıma kin
bəslədiyinə görə onlarla necə qəzəb və
qısqanclıqla rəftar etdinsə, Mən də səninlə elə
rəftar edəcəyəm. Səni mühakimə etdiyim
zaman onlara da Özümü göstərəcəyəm. 12 O
zaman biləcəksən ki, Mən Rəbb İsrail
dağlarına qarşı söylədiyin təhqirlərin hamısını
eşitmişəm. Sən belə demişdin: ‹Yerlə yeksan
oldular, yeyilmək üçün bizə verildilər›.
13 Ağzınızla Mənə qarşı qürurla danışdınız,
Mənim əleyhimə hörmətsiz sözlər dediniz.
Mən Rəbb də bunları eşitdim”.
14 Xudavənd Rəbb belə deyir: “Bütün yer
üzü sevindiyi halda Mən səni viran edəcəyəm.
15 İsrail xalqının irsi yerlə yeksan olanda sən
necə sevindinsə, Mən də səninlə elə rəftar
edəcəyəm. Ey Seir dağı, viran olacaqsan,
bütün Edom da viran olacaq. Onda biləcəklər
ki, Rəbb Mənəm”.

### *Allahın İsrailə xeyir-duası*

36 1 Sən ey bəşər oğlu, İsrail dağları
üçün peyğəmbərlik edib söylə ki, ey
İsrail dağları, Rəbbin sözünü eşidin.
2 Xudavənd Rəbb belə deyir: “Düşmən sizin
barənizdə ‹nə yaxşı, bu qədim təpələr bizim
mülkümüz oldu› dedi”. 3 Buna görə də
peyğəmbərlik edib söylə ki, Xudavənd Rəbb
belə deyir: “Sizi viran etdilər, hər tərəfdən
sıxışdırıb tapdaladılar, başqa millətlər
mülkünüzə sahib oldu, dillərə düşdünüz və
xalqın dedi-qodusuna çevrildiniz”. 4 Bütün
bunlara görə, ey İsrail dağları, Xudavənd
Rəbbin sözünü eşidin. Xudavənd Rəbb
dağlara, təpələrə, vadilərə, dərələrə,
ətrafındakı başqa millətlərə, qarət və kinayə
hədəfi olan viran olmuş xarabalıqlara, tərk
edilmiş şəhərlərə belə deyir. 5 Buna görə də,
Xudavənd Rəbb belə deyir: “Başqa millətlərə,
xüsusilə bütün Edoma qarşı qızğın
qısqanclığımla danışdım. Onlar bütün ürəkləri
ilə sevinib həqarət edərək ölkəmə sahib çıxdı
ki, onun otlaqlarını qarət etsin”. 6 Buna görə
də İsrail ölkəsi üçün peyğəmbərlik edib
dağlara, təpələrə, vadilərə və dərələrə söylə ki,
Xudavənd Rəbb belə deyir: “Millətlərin
təhqirinə hədəf olduğunuz üçün qısqanc
qəzəbimlə danışdım”. 7 Buna görə də
Xudavənd Rəbb belə deyir: “And içirəm ki,
ətrafınızdakı millətlər də mütləq təhqir
olunacaq.
8 Ey İsrail dağları, siz qol-budaq atacaq,
xalqım İsrail üçün meyvə verəcəksiniz, ona
görə ki xalqım İsrail tezliklə öz yurduna
qayıdacaq. 9 Çünki Mən sizin tərəfinizdəyəm,
sizə tərəf dönəcəyəm. Torpağınız şumlanıb
əkiləcək. 10 Ölkənizdə adamların sayını, bəli,
bütün İsrail nəslinin sayını çoxaldacağam.
Şəhərlər məskunlaşacaq, xarabalıqlar abad
ediləcək. 11 Ölkənizdə adamların və
heyvanların sayını çoxaldacağam, törəyib
çoxalacaqlar. Keçmişdə olduğu kimi ölkənizi
insanlarla məskunlaşdıracaq və sizə
əvvəlkindən də artıq yaxşılıq edəcəyəm. Onda
biləcəksiniz ki, Rəbb Mənəm. 12 Ölkənizdə
xalqım İsraildən olan insanları gəzdirəcəyəm
və onlar sizə sahib olacaq. Siz də onların irsi
olacaqsınız. Onları bir daha övladlarından
məhrum etməyəcəksiniz”.
13 Xudavənd Rəbb belə deyir: “Ey ölkə,
insanlar sənə adam yeyən, millətini övladdan
məhrum edən bir ölkə deyir. 14 Ancaq bundan
sonra sən daha adam yeməyəcək, millətini
övladdan məhrum etməyəcəksən” Xudavənd
Rəbb belə bəyan edir. 15 “Artıq Mən
millətlərin təhqirlərini eşitdirməyəcəyəm,
daha xalqların kinayəsinə düçar
olmayacaqsan. Millətini bir daha
büdrətməyinə izin verməyəcəyəm” Xudavənd
Rəbb belə bəyan edir».
16 Mənə Rəbbin sözü nazil oldu: 17 «Ey
bəşər oğlu, İsrail nəsli öz torpağında

yaşayanda adət və əməlləri ilə onu murdar
etdi. Onların adətləri mənim önümdə qadının
aybaşı olduğu vaxtdakı murdarlığı kimi idi.
18 Mən də qəzəbimi onların üstünə tökdüm,
çünki ölkədə qan tökdülər, bütləri ilə onu
murdar etdilər. 19 Onları millətlər arasına
yaydım, ölkələr arasına səpələndilər. Onları
adətlərinə və əməllərinə görə mühakimə
etdim. 20 Millətlərin arasında, getdikləri hər
yerdə müqəddəs adımı ləkələdilər. Çünki
onlar üçün belə deyildi: "Bu xalq Rəbbin
xalqı olduğu halda ölkəsindən çıxmağa
məcbur oldu". 21 İsrail nəslinin getdiyi
millətlər arasında ləkələdiyi müqəddəs adımın
izzətdən düşməsi üçün təəssüfləndim.

22 Buna görə də İsrail nəslinə söylə ki,
Xudavənd Rəbb belə deyir: "Ey İsrail nəsli,
bunu sizin naminizə deyil, ancaq getdiyiniz
millətlər arasında ləkələdiyiniz müqəddəs
adım naminə edirəm. 23 Millətlər arasında
ləkələdiyiniz böyük adımın müqəddəsliyini
yenə göstərəcəyəm. Millətlərin gözü önündə
sizin içinizdə müqəddəsliyimi göstərən zaman
biləcəklər ki, Rəbb Mənəm" Xudavənd Rəbb
belə bəyan edir. 24 "Çünki sizi millətlərin
arasından götürəcək, bütün ölkələrdən
toplayacaq və öz torpağınıza gətirəcəyəm.
25 Üstünüzə təmiz su səpəcəyəm, pak
olacaqsınız. Sizi bütün murdarlıqlarınızdan və
bütlərinizdən təmizləyəcəyəm. 26 Mən sizə
yeni ürək verəcək, daxilinizə yeni ruh
qoyacağam. Köksünüzdən daş ürəyi çıxarıb
sizə ətdən olan ürək verəcəyəm. 27 Öz
Ruhumu sizin daxilinizə qoyacağam. Elə
edəcəyəm ki, siz qaydalarıma görə rəftar
edəsiniz, hökmlərimə diqqətlə riayət edəsiniz.
28 O zaman atalarınıza verdiyim ölkədə
yaşayacaqsınız. Siz Mənim xalqım, Mən də
sizin Allahınız olacağam. 29 Sizi bütün
murdarlıqlarınızdan xilas edəcəyəm. Buğdaya
əmr edib onu çoxaldacaq, üstünüzə aclıq
gətirməyəcəyəm. 30 Bir daha millətlər içində
aclıq rüsvayçılığını çəkməyəsiniz deyə ağacın
meyvəsini, tarlanın məhsulunu çoxaldacağam.
31 O zaman pis əməllərinizi, xeyirsiz işlərinizi
yada salacaqsınız. Təqsirlərinizdən və iyrənc
işlərinizdən ötrü özünüzdən iyrənəcəksiniz.
32 Bilin ki, bunu sizin naminizə etmirəm"
Xudavənd Rəbb belə bəyan edir,
"adətlərinizdən utanıb xəcalət çəkin, ey İsrail
nəsli!"

33 Xudavənd Rəbb belə deyir: "Sizi bütün
təqsirlərinizdən təmizlədiyim vaxt şəhərləri
məskunlaşdıracaq, xaraba yerləri abad
edəcəyəm. 34 Boş qalmış ölkə şumlanacaq,
halbuki hər yoldan keçənin nəzərində o, bir
viranə idi. 35 Onda deyəcəklər: ‹Viran olan bu
torpaq Eden bağı kimi oldu. Xaraba və viran
qalmış, dağıdılmış şəhərlərin istehkamları
tikildi, onların içində adamlar yaşayır›.
36 Onda ətrafınızda qalan millətlər biləcək ki,
dağıdılmış yerləri Mən Rəbb tikdim, çölə
çevrilmiş yerləri Mən abad etdim. Mən Rəbb
bunu söylədim və hökmən yerinə
yetirəcəyəm".

37 Xudavənd Rəbb belə deyir: "Mən İsrail
nəslinin xahişini qəbul edib onlar üçün bunu
edəcəyəm: əhalisini sürü kimi çoxaldacağam.
38 Bayram günlərində Yerusəlimdə qurbanlıq
heyvan sürüləri necə çox olursa, viran edilmiş
şəhərlər də eləcə insan sürüləri ilə dolu olacaq.
Onda biləcəklər ki, Rəbb Mənəm"».

### *Quru sümüklə müqayisə*

37 1 Rəbbin əli üzərimdə idi. Rəbb Öz
Ruhu ilə məni bayıra çıxarıb vadinin
ortasına qoydu. Vadi sümüklərlə dolu idi. 2 O
məni onların üstündə gəzdirib hər tərəfə
apardı. Gördüm ki, vadinin üstündə saysız-
hesabsız sümük var. Onlar bərk qurumuşdu.
3 Rəbb mənə dedi: «Ey bəşər oğlu, bu
sümüklər dirilə bilərmi?» Mən cavab verdim:
«Ey Xudavənd Rəbb, bunu Sən bilirsən». 4 O
mənə dedi: «Bu sümüklər üçün peyğəmbərlik
edib onlara söylə ki, ey quru sümüklər,
Rəbbin sözünü eşidin. 5 Xudavənd Rəbb bu
sümüklərə belə deyir: "Mən sizin daxilinizə
ruh qoyacağam və siz diriləcəksiniz.
6 Üstünüzə vətərlər qoyacaq, ət bitirəcək, sizi
dəri ilə örtəcəyəm, daxilinizə ruh qoyacağam
və siz diriləcəksiniz. Onda biləcəksiniz ki,
Rəbb Mənəm"».

7 Mənə əmr olunduğu kimi peyğəmbərlik
etdim. Mən peyğəmbərlik edərkən bir gurultu
qopdu, bir taqqıltı eşidildi. Sümüklər
yaxınlaşdı, sümük sümüyə bitişdi. 8 Mən
baxıb gördüm ki, onların üstünə vətərlər gəldi,
ət bitdi, bunları isə dəri örtdü. Ancaq onlarda
nəfəs yox idi. 9 Rəbb mənə dedi: «Ey bəşər
oğlu, nəfəs üçün peyğəmbərlik et,
peyğəmbərlik edib nəfəsə söylə ki, Xudavənd

***36:26-28*** – *Yez. 11:19-20*

Rəbb belə deyir: "Ey nəfəs, küləyin əsdiyi dörd səmtdən gəl, bu öldürülən adamların üzərinə üfür ki, dirilsinlər"». 10 Mənə əmr olunduğu kimi peyğəmbərlik etdim. Nəfəs onların daxilinə girdi və onlar dirilib ayaq üstə qalxdı. Çox böyük bir kütlə yarandı.

11 Rəbb mənə dedi: «Ey bəşər oğlu, bu sümüklər bütün İsrail nəslinin rəmzidir. Onlar belə deyir: "Sümüklərimiz qurudu, ümidimiz yox oldu, işimiz bitdi". 12 Buna görə də peyğəmbərlik edib onlara söylə ki, Xudavənd Rəbb belə deyir: "Ey xalqım, Mən qəbirlərinizi açıb sizi oradan çıxaracaq və İsrail torpağına gətirəcəyəm. 13 Ey xalqım, Mən qəbirlərinizi açanda, sizi qəbirlərinizdən çıxaranda biləcəksiniz ki, Rəbb Mənəm. 14 Mən daxilinizə Öz Ruhumu qoyacağam və siz diriləcəksiniz. Sizi öz torpağınıza yerləşdirəcəyəm. Onda biləcəksiniz ki, Mən Rəbb bunu söylədim və hökmən yerinə yetirəcəyəm" Rəbb belə bəyan edir».

### *Yəhuda və İsrailin birləşməsi*

15 Mənə Rəbbin bu sözü nazil oldu: 16 «Sən ey bəşər oğlu, əlinə bir əsa götür və onun üstünə "Yəhuda və müttəfiqləri olan İsrail övladları" sözlərini yaz. Sonra başqa bir əsa götür və onun üstünə "Yusif və müttəfiqləri olan bütün İsrail nəsli" sözlərini yaz. Bu, Efrayimin əsasıdır. 17 Bu əsaları bir-birinin üstünə qoyaraq öz əlində birləşdir. Elə et ki, əlində bir əsa olsun. 18 Əgər sənin xalqına mənsub olanlar "Etdiklərinin mə'nası nədir, bizə bildirməzsən?" deyə soruşsa, 19 onlara söylə ki, Xudavənd Rəbb belə deyir: "Efrayimin əlindəki əsanı – Yusif və onun müttəfiqləri olan İsrail qəbilələrinin əsasını götürərək Yəhudanın əsası ilə birləşdirib bir əsa edəcəyəm. Onlar əlimdə bir olacaq. 20 Üstünə yazı yazdığın əsaları onların görə biləcəyi şəkildə əlində tut. 21 Sonra onlara söylə ki, Xudavənd Rəbb belə deyir: İsrail övladlarını yanlarına getdikləri millətlərin arasından götürəcək, onları hər yerdən toplayıb öz torpaqlarına qaytaracağam. 22 Onları ölkədə, İsrail dağları üzərində vahid bir millət edəcəyəm. Hamısının vahid padşahı olacaq. Daha iki ayrı millət olmayacaq, iki padşahlığa bölünməyəcəklər. 23 Artıq bütləri, iyrənc şeyləri və üsyanları ilə özlərini murdar etməyəcəklər. Onları yaşadıqları və içində günah etdikləri yerlərdən qurtarıb pak edəcəyəm. Onlar Mənim xalqım, Mən də onların Allahı olacağam.

24 Qulum Davud onların padşahı olacaq, onların hamısına vahid çoban olacaq. Onlar Mənim hökmlərimə görə rəftar edəcək, qaydalarımı saxlayıb yerinə yetirəcək. 25 Qulum Yaquba verdiyim, atalarının yaşadıqları ölkədə yaşayacaqlar, özləri, oğulları və nəvələri əbədi olaraq orada yaşayacaq. Qulum Davud da əbədi olaraq onların rəhbəri olacaq. 26 Mən onlarla sülh əhdi bağlayacağam. Bu onlarla əbədi bir əhd olacaq. Onları orada yerləşdirəcək və saylarını çoxaldacağam. Müqəddəs məkanımı əbədi olaraq onların arasında quracağam. 27 Mənim məskənim onların arasında olacaq. Mən onların Allahı, onlar da Mənim xalqım olacaq. 28 Müqəddəs məkanım əbədi olaraq onların arasında yerləşəndə millətlər biləcək ki, İsraili təqdis edən Mən Rəbbəm"».

### *Qoq əleyhinə peyğəmbərlik*

38 1 Mənə Rəbbin bu sözü nazil oldu: 2 «Ey bəşər oğlu, Maqoq ölkəsindən olan Roşun, Meşekin və Tuvalın rəhbəri Qoqa üz tut və onun əleyhinə peyğəmbərlik edib söylə ki, 3 Xudavənd Rəbb belə deyir: "Ey Roşun, Meşekin və Tuvalın rəhbəri Qoq, Mən sənin əleyhinəyəm. 4 Səni geri qaytaracağam, çənələrinə çəngəllər taxacağam. Səni, bütün ordunu, atları, tam təchiz olunmuş atlıları, hamısı qalxan, sipər və qılıncla silahlanmış böyük qoşunu qovub çıxaracağam. 5 Onlarla birgə hamısı qalxan və dəbilqəyə bürünmüş Farsları, Kuşluları, Putluları, 6 Qomeri və onun bütün qoşunlarını, ucqar şimaldan Toqarma nəslini və onun bütün qoşunlarını, bunlarla birgə bir çox xalqları qovub çıxaracağam.

7 Hazır ol! Ətrafında toplanmış böyük bir qoşunla birgə hazırlaş. Onları sən qoruyacaqsan. 8 Uzun müddət sonra döyüşə çağırılacaqsan. Gələcək illərdə qılıncdan qurtulub rahatlanan ölkəyə hücum edəcəksən. O ölkənin sakinləri çoxlu xalqlar içindən İsrail dağlarına toplanmışdı. Bu dağlar həmişə xarabalıq idi, ancaq indi sakinləri xalqlar arasından geri qaytarılacaq və hamısı asayiş

*37:10 – Vəhy 11:11*

*37:24 – Yez. 34:24*
*37:27 – Lev. 26:11-12; 2Kor. 6:16; Vəhy 21:3*
*38:2 – Vəhy 20:8*

içində yaşayacaq. 9 Sən, bütün qoşunun və
səninlə birgə bir çox xalq çıxıb tufan kimi
gələcəksiniz, ölkənin üzərini tutan buluda
bənzəyəcəksiniz”.
10 Xudavənd Rəbb belə deyir: “O gün ağlına
bə’zi düşüncələr gələcək, pis niyyətlər qurub
11 deyəcəksən: ‹Divarsız kəndləri olan bir
ölkəyə hücum edib asayiş və əmin-amanlıq
içində yaşayan adamların üstünə gedəcəyəm.
Bu kəndlərin hamısı divarsızdır, darvazaları
da, sürgüləri də yoxdur. 12 Viran olmuş
şəhərlərdə yaşayan xalqı qarət edib malını
talayacağam›. Sürüsü və malı olan, dünyanın
ortasında yaşayan bu millətlərin arasından
toplanmış xalqa qarşı əlini uzadacaqsan.
13 Səba, Dedan, Tarşiş tacirləri və bütün
kəndlərinin əhalisi sənə deyəcək: ‹Qarət
üçünmü gəldin? Talan etmək, qızıl-gümüş
götürmək, mal-qara və əşya aparmaq, bol
qənimət ələ keçirmək üçünmü qoşun
topladın?›”
14 Buna görə də, ey bəşər oğlu,
peyğəmbərlik edib Qoqa söylə ki, Xudavənd
Rəbb belə deyir: “O gün xalqım İsrail asayiş
içində yaşayanda bunu dərk
etməyəcəksinizmi? 15 Sən və özünlə birgə bir
çox xalqlardan olan və hamısı ata minmiş
böyük bir qoşun, güclü bir ordu öz yerindən –
uzaq şimaldan gələcəksən. 16 Ölkəni bürüyən
bir bulud kimi xalqım İsrailin üstünə hücum
edəcəksən. Ey Qoq, gələcəkdə səni öz
ölkəmin üstünə gətirəcəyəm ki, gözləri
önündə müqəddəsliyimi sənin vasitənlə
göstərdiyim zaman millətlər məni tanıya
bilsin”.
17 Xudavənd Rəbb belə deyir: “Məgər sən
qədim zamanlarda İsrail peyğəmbərləri
vasitəsilə haqqında danışdığım adam deyilsən?
Bu peyğəmbərlər o zaman səni onların üstünə
gətirəcəyim barədə illərlə peyğəmbərlik etdi.
18 O gün Qoq İsrail torpağına hücum etdiyi
gün qəzəbim alovlanacaq” deyir Xudavənd
Rəbb. 19 “Qısqanclığımla və şiddətli
qəzəbimlə deyirəm ki, o gün İsrail torpağında
böyük bir zəlzələ olacaq. 20 Dənizdəki balıqlar,
göydəki quşlar, çöldəki heyvanlar, yerdə
sürünən bütün canlılar və yer üzündəki bütün
insanlar önümdə titrəyəcək. Dağlar yerlə
yeksan olacaq, sıldırım qayalar uçacaq, bütün
divarlar yıxılacaq. 21 Bütün dağlarımda qılıncı
Qoqun üstünə getməyə çağıracağam”
Xudavənd Rəbb belə bəyan edir, “hər kəs bir-
birinin üstünə qılınc çəkəcək. 22 Üstünə vəba
gətirib qanını tökərək onu cəzalandıracağam.
Onun, ordularının və yanında gələn çoxlu
xalqların üstünə leysan yağış, iri dolu dənələri,
od və kükürd yağdıracağam. 23 Beləcə
əzəmətimi və müqəddəsliyimi göstərəcək, bir
çox millətlərin gözü önündə Özümü
tanıdacağam. Onda biləcəklər ki, Rəbb
Mənəm”.

### *Qoqun məğlub olması*

39 1 Sən ey bəşər oğlu, Qoqun əleyhinə
peyğəmbərlik edib söylə ki, Xudavənd
Rəbb belə deyir: “Ey Roşun, Meşekin və
Tuvalın rəhbəri Qoq, Mən sənin əleyhinəyəm.
2 Səni geri qaytarıb aparacağam, uzaq
şimaldan çıxaracağam və İsrail dağları
üzərinə gətirəcəyəm. 3 Sol əlindən kamanını,
sağ əlindən oxlarını vurub salacağam. 4 Sən
bütün ordularınla, yanında olan xalqlarla
birgə İsrail dağları üzərində həlak olacaqsan.
Səni qida olmaq üçün hər cür yırtıcı quşa və
vəhşi heyvanlara verəcəyəm. 5 Açıq çöldə
həlak olacaqsan, çünki Mən bunu söylədim,
Xudavənd Rəbb belə bəyan edir. 6 Mən
Maqoqun və sahil ölkələrində əmin-amanlıq
içində yaşayanların üstünə od göndərəcəyəm.
Onda biləcəklər ki, Rəbb Mənəm. 7 Xalqım
İsrailin arasında müqəddəs adımı tanıdacağam,
artıq müqəddəs adımın ləkələnməsinə izin
verməyəcəyəm. Onda millətlər biləcəklər ki,
Mən Rəbbəm, İsraildə Müqəddəs Olanam.
8 Budur, o vaxt gəlir və mütləq baş verəcək”
Xudavənd Rəbb belə bəyan edir, “bu gün
Mənim dediyim gündür. 9 Onda İsrail
şəhərlərində yaşayanlar çıxıb od qalayacaq.
Silahlarını, qalxanlarını, sipərlərini,
kamanlarını, oxlarını, toppuzlarını və
nizələrini bu odda yandıracaqlar. Onları yeddi
il ərzində yandıracaqlar. 10 Çöldən odun
daşımayacaq, meşələrdən ağac kəsməyəcəklər,
çünki silahlarla od qalayacaqlar. Onları qarət
edənləri qarət edəcək, mallarını talan edənləri
talan edəcəklər” Xudavənd Rəbb belə bəyan
edir.
11 “O gün Duz dənizinin şərqində,
Səyyahlar dərəsində Qoqa İsraildə bir
qəbiristanlıq verəcəyəm. Orada Qoq və bütün
qoşunu basdırılacaq. Bu yerə Hamon-Qoq[12]
dərəsi deyiləcək. Oradan yol keçənlərin

***38:22*** *– Vəhy 8:7; 14:9-10*

[12] **39:11** *Hamon-Qoq* – ibrani dilində *Qoq qoşunu.*

qabağı kəsiləcək. 12 Ölkəni təmizləmək üçün
İsrail nəsli yeddi ay onları basdırmaqla
məşğul olacaq. 13 Onları bütün ölkə xalqı
basdıracaq. Mənim izzətləndiyim gün onlar
üçün əlamətdar olacaq" Xudavənd Rəbb belə
bəyan edir. 14 "Ölkəni təmizləmək üçün
adamlara iş tapşırılacaq. Bə'ziləri ölkəni
dayanmadan dolaşacaq, bə'ziləri isə yerdə
qalan cəsədləri basdıracaq. Yeddi aydan sonra
axtarışlara başlayacaqlar. 15 Bu adamlar
ölkənin hər yerini dolaşacaq. İnsan sümüyü
görəndə qəbirqazanlar onu Hamon-Qoq
dərəsində basdırana qədər yanına bir nişan
qoyacaq. 16 Orada Hamona adlı bir şəhər
olacaq. Beləcə ölkəni təmizləyəcəklər".

17 Sən ey bəşər oğlu, Xudavənd Rəbb belə
deyir: "Hər cür quşa və hər cür vəhşi heyvana
söylə ki, toplaşıb gəlsinlər. Sizin üçün
kəsəcəyim qurbanın – İsrail dağları üzərindəki
böyük qurbanın yanına hər tərəfdən yığılın.
Orada ət yeyib qan içəcəksiniz. 18 Başanın
bəslənmiş heyvanlarının – qoçların, quzuların,
təkələrin və buğaların ətini yeyib qanını
içdiyiniz kimi igidlərin ətini yeyəcək, dünya
rəhbərlərinin qanını içəcəksiniz. 19 Sizin üçün
kəsdiyim qurbandan doyunca yağ yeyəcək,
sərxoş olunca qan içəcəksiniz. 20 Süfrəmdə
atlardan, süvarilərdən, igidlərdən və hər cür
əsgərdən bol-bol yeyib-doyacaqsınız"
Xudavənd Rəbb belə bəyan edir.

21 "İzzətimi millətlər arasında göstərəcəyəm.
Bütün millətlər onlara verdiyim cəzanı və
üstlərinə qoyduğum əlimi görəcək. 22 Bu
gündən sonra İsrail nəsli biləcək ki, onların
Allahı Rəbb Mənəm. 23 Onda millətlər biləcək
ki, İsrail nəsli öz təqsirlərindən ötrü sürgünə
getdi. Çünki onlar Mənə xəyanət etdi, Mən
onlardan üz döndərdim, onları düşmənlərinə
təslim etdim, hamısı qılıncla həlak oldu.
24 Murdarlıqlarına və üsyanlarına görə onlarla
rəftar etdim, onlardan üz döndərdim".

25 Buna görə Xudavənd Rəbb belə deyir:
"Yaqub nəslindən sürgün olunanları indi geri
qaytaracaq, bütün İsrail nəslinə mərhəmət
edəcək və müqəddəs adım naminə qısqanc
olacağam. 26 Torpaqlarında əmin-amanlıq
içində yaşayanda, onları qorxudan bir kəs
olmayanda rüsvayçılıqlarını və Mənə etdikləri
bütün xəyanətləri unudacaqlar. 27 Onları
millətlər arasından geri qaytarıb düşmən
ölkələrdən topladığım zaman onların
vasitəçiliyi ilə bir çox millətə müqəddəsliyimi
göstərəcəyəm. 28 Onda biləcəklər ki, onların
Allahı Rəbb Mənəm. Çünki onları millətlər
arasına sürgünə göndərdim. Amma öz
torpaqlarına da qaytaracağam, artıq heç birini
qaldığı ölkəsində qoyub getməyəcəyəm. 29 Bir
daha onlardan üz döndərməyəcəyəm, çünki
İsrail nəsli üzərinə Öz Ruhumu tökəcəyəm"
Xudavənd Rəbb belə bəyan edir».

***Yeni mə'bəd barədə vəhy***

40 1 Sürgünlüyümüzün iyirmi beşinci
ilində, birinci ayın onuncu günü,
Yerusəlim şəhərinin süqutunun on dördüncü
ili – həmin o gün Rəbbin əli mənim üstümdə
idi. O məni oraya apardı. 2 Görüntüdə Allah
məni İsrail ölkəsinə aparıb çox uca bir dağın
başına qoydu. Dağın cənubunda şəhərə bənzər
tikililər var idi. 3 Allah məni oraya apardı.
Mən orada görünüşcə tunca bənzər adam
gördüm. Onun əlində bir kətan ip və ölçmək
üçün bir qamış var idi. O, darvazada
durmuşdu. 4 O adam mənə dedi: «Ey bəşər
oğlu, gözünlə görüb, qulağınla eşit və sənə
göstərəcəyim hər şeyə yaxşı-yaxşı bax. Ona
görə buraya gətirildin ki, bunları sənə
göstərim. Gördüyün hər şeyi İsrail nəslinə
bildir».

***Şərq qapısı***

5 Mən mə'bədi hər tərəfdən əhatəyə alan bir
divar gördüm. Ölçmək üçün o adamın əlində
olan qamışın uzunluğu altı qulac idi. Hər
qulaca bir ovuc uzunluq əlavə edilmişdi.[13] O
adam divarı ölçdü: qalınlığı bir qamış,
hündürlüyü bir qamış idi. 6 Sonra şərqə tərəf
olan darvazaya tərəf getdi və onun
pilləkənləri ilə yuxarı qalxdı. Darvazanın
kandarını ölçdü: eni bir qamış idi. Bir
kandarın eni bir qamış idi. 7 Keşikçi
otaqlarının hər birinin uzunluğu və eni bir
qamış idi. Keşikçi otaqlarının arası beş qulac
idi. Mə'bədə baxan eyvanın yanındakı
darvaza kandarı bir qamış uzunluğunda idi.
8 Sonra o, darvaza eyvanını ölçdü: 9 eni səkkiz
qulac idi. Yan taxtaların qalınlığı iki qulac idi.

***39:17-20*** *– Vəhy 19:17-18*

***40:2*** *– Vəhy 21:10-11*
***40:3*** *– Vəhy 11:1; 21:15*
***40:5-42:20*** *– 1Pad. 6:1-38; 2Saln. 3:1-9*
[13] **40:5** 40-48-ci fəsillərdə işlədilən qulac xüsusi ölçüyə malik qulacdır. Adi qulacın ölçüsü 45 sm, buradakı qulacın ölçüsü isə 53 sm-dir.

Darvaza eyvanı mə'bədə baxırdı. 10 Şərq
darvazasının hər iki yanında üç-üç keşikçi
otağı var idi. Üçünün də ölçüsü bir idi. Hər iki
tərəfdə olan bölmə divarlarının da ölçüsü bir
idi. 11 O, darvazanın astanasının enini ölçdü:
on qulac idi. Darvazanın uzunluğu isə on üç
qulac idi. 12 Hər iki tərəfdə olan keşikçi
otaqlarının qarşısında bir qulac yüksəkliyində
bir-bir arakəsmə var idi. Hər iki tərəfdə
keşikçi otaqları dördbucaqlı idi. Kənarları hər
tərəfdən altı qulac idi. 13 Sonra o, darvazanın
enini – girişləri bir-birinin qarşısında olan
keşikçi otaqlarının arxa divarlarının arasını
ölçdü: iyirmi beş qulac idi. 14 Sütunları ölçdü:
altmış qulac idi. Darvazanın ətrafındakı həyət
sütunlara qədər uzanırdı. 15 Darvazanın
astanasından eyvanın sonuna qədər məsafə
əlli qulac idi. 16 Darvazanın içəri tərəfinin hər
yanında keşikçi otaqlarının və bölmə
divarlarının içəriyə baxan qəfəsli pəncərələri
var idi. Eyvanlarda da belə idi. Hər yanın içəri
tərəfindən pəncərələr var idi. Bölmə divarları
üzərində xurma ağacı təsvirləri var idi.

### *Bayır həyət*

17 O adam məni bayır həyətə gətirdi. Orada
bayır həyəti əhatəyə alan otaqlar və daş yol
var idi. Daş yol boyunca otuz otaq var idi.
18 Darvazaların hər iki tərəfindəki daş yolun
eni qapıların uzunluğu qədər idi. Bu, aşağı daş
yol idi. 19 O adam həyətin enini aşağı
darvazadan içəri həyətin darvazasına qədər
ölçdü: şərqdə və şimalda olan məsafə yüz
qulac idi.

20 O adam bayır həyətin şimala baxan
darvazasının uzunluğunu və enini ölçdü.
21 Buranın hər iki tərəfində üç-üç keşikçi otağı
var idi. Bölmə divarları və eyvanları birinci
darvazanın ölçüsünə bərabər idi: uzunluğu əlli
qulac, eni iyirmi beş qulac idi. 22 Pəncərələrin,
eyvanın və xurma ağacı təsvirlərinin ölçüsü
şərqə baxan darvazanın ölçüsünə bərabər idi.
Oraya yeddi pilləkənlə çıxırdılar, bunların
qarşısında eyvan var idi. 23 Şərq darvazasında
olduğu kimi şimal darvazasına da baxan bir
içəri həyət darvazası var idi. O adam bu iki
darvaza arasındakı məsafəni ölçdü: yüz qulac
idi.

### *Cənub darvazası*

24 O adam məni cənuba doğru apardı. Orada
cənuba baxan bir darvaza gördüm. O,
darvazanın yan taxtalarını və eyvanı ölçdü:
ölçüləri o birilərinin ölçülərinə bərabər idi.
25 O birilərində olduğu kimi bu darvaza ilə
eyvanın hər tərəfində də pəncərələr var idi.
Eyvanın uzunluğu əlli qulac, eni iyirmi beş
qulac idi. 26 Oraya yeddi pilləkənlə çıxırdılar.
Bunların qarşısında eyvan var idi. Darvazanın
yan taxtaları hər iki tərəfdən bir xurma ağacı
təsviri ilə bəzənmişdi. 27 İçəri həyətin cənuba
baxan bir darvazası var idi. O adam bu içəri
darvazadan cənuba baxan darvazaya qədər
olan məsafəni ölçdü: yüz qulac idi.

### *İçəri həyətin darvazaları*

28 O adam məni cənub darvazasından içəri
həyətə apardı. Cənub darvazasını ölçdü:
ölçüləri o birilərinin ölçülərinə bərabər idi.
29 Keşikçi otaqlarının, bölmə divarlarının və
eyvanın ölçüləri o birilərinin ölçülərinə
bərabər idi. Darvaza ilə eyvanın hər tərəfində
pəncərələr var idi. Darvazanın uzunluğu əlli
qulac, eni iyirmi beş qulac idi. 30 Hər tərəfdə
uzunluğu iyirmi beş qulac, eni beş qulac olan
eyvanlar var idi. 31 Eyvanı bayır həyətə
baxırdı. Darvazanın yan taxtaları xurma ağacı
təsvirləri ilə bəzənmişdi. Oraya səkkiz
pilləkənlə çıxırdılar.

32 O adam məni şərqdəki içəri həyətə apardı.
Oradakı darvazanı ölçdü. Ölçüsü o birilərinin
ölçüsünə bərabər idi. 33 Keşikçi otaqlarının,
bölmə divarlarının və eyvanının ölçüsü o
birilərinin ölçüsünə bərabər idi. Darvaza ilə
eyvanının hər tərəfində pəncərələr var idi.
Darvazanın uzunluğu əlli qulac, eni iyirmi beş
qulac idi. 34 Eyvanı bayır həyətə baxırdı.
Darvazanın yan taxtaları iki tərəfdən xurma
ağacı təsvirləri ilə bəzənmişdi. Oraya səkkiz
pilləkənlə çıxırdılar.

35 Sonra o adam məni şimal darvazasının
yanına apardı. O, qapını ölçdü: ölçüsü o
birilərinin ölçüsünə bərabər idi. 36 Keşikçi
otaqlarının, bölmə divarlarının və eyvanının
ölçüsü o birilərinin ölçüsünə bərabər idi.
Darvazanın hər tərəfində pəncərələr var idi.
Darvazanın uzunluğu əlli qulac, eni iyirmi beş
qulac idi. 37 Yan taxtaları bayır həyətə baxırdı.
Darvazanın yan taxtaları hər iki tərəfdən
xurma ağacı təsvirləri ilə bəzənmişdi. Oraya
səkkiz pilləkənlə çıxırdılar.

### *Qurbanların hazırlandığı otaqlar*

38 İçəri həyətin darvazalarındakı eyvanların
yanında qapısı eyvana açılan bir otaq var idi.
Yandırma qurbanları burada yuyulurdu.

[39] Darvaza eyvanının hər iki tərəfində iki sıra
qoşa masa var idi. Yandırma qurbanı, günah
qurbanı və təqsir qurbanı olacaq heyvanlar bu
masaların üstündə kəsilirdi. [40] Eyvanın bayır
divarının yanında, şimal darvazasının
pilləkənlərinin hər iki tərəfində iki sıra qoşa
masa da var idi. [41] Beləcə qurbanlıq
heyvanları kəsmək üçün darvazanın hər iki
tərəfində dörd-dörd olmaqla səkkiz masa var
idi. [42] Yandırma qurbanları üçün yonulmuş
daşdan dörd masa var idi. Hər masanın
uzunluğu və eni bir yarım qulac, hündürlüyü
bir qulac idi. Yandırma qurbanlarının və
başqa qurbanların kəsilməsində istifadə
olunan alətləri bunların üstünə qoyurdular.
[43] Otağın divarlarına qarmaqlar asılmışdı: hər
biri bir ovuc uzunluğunda idi. Masalar təqdim
edilən heyvanın əti üçün nəzərdə tutulmuşdu.

### *Kahinlər üçün ayrılan otaqlar*

[44] İçəri darvazanın bayır hissəsində, içəri
həyətdə ilahiçilər üçün otaqlar var idi.
Bunlardan biri şimal darvazasının yanında idi
və cənuba baxırdı, o biri cənub[14] darvazasının
yanında idi və şimala baxırdı. [45] O adam mənə
dedi: «Cənuba baxan otaq mə'bəd üçün
cavabdeh olan kahinlərə məxsusdur. [46] Şimala
baxan otaq isə qurbangah üçün cavabdeh olan
kahinlərə məxsusdur. Onlar Levinin nəslindən
olan və Rəbbə xidmət etmək üçün Ona
yaxınlaşan Sadoq övladlarıdır». [47] O adam
həyəti ölçdü: həyət dördbucaqlı olub,
uzunluğu yüz qulac, eni də yüz qulac idi.
Mə'bədin önündə qurbangah var idi.

### *Mə'bəd*

[48] Sonra o adam məni mə'bədin eyvanına
aparıb eyvanın qapısının yan taxtalarını ölçdü.
Darvazanın hər iki tərəfindəki sütunların eni
beş qulac idi. Darvazanın hər iki tərəfinin eni
isə üç qulac idi. [49] Eyvanın uzunluğu iyirmi
qulac, eni on iki qulac idi. Oraya pilləkənlə
çıxırdılar. Darvazanın yan taxtalarının
yanında iki sütun var idi: biri bu tərəfində,
digəri isə o tərəfində idi.

# 41

[1] Sonra o adam məni mə'bədin əsas
hissəsinə gətirib oradakı darvazanın
yan taxtalarını ölçdü: yan taxtaların eni hər
tərəfdən altı qulac idi. [2] Girişinin eni on qulac,
ona hər iki tərəfdən bitişən hər divarının eni
isə beş qulac idi. O adam mə'bədin əsas
hissəsini də ölçdü: uzunluğu qırx, eni iyirmi
qulac idi.
[3] Sonra o içəri otağa girib girişin yan
taxtalarını ölçdü: hər birinin eni iki qulac idi.
Girişin eni altı qulac, ona hər iki tərəfdən
bitişən divarların eni yeddi qulac idi. [4] O adam
əsas hissənin o biri tərəfindəki içəri otağı
ölçdü: həm uzunluğu, həm də eni iyirmi qulac
idi. O mənə «bura Ən Müqəddəs yerdir» dedi.
[5] Sonra mə'bədin divarını ölçdü: qalınlığı
altı qulac idi. Mə'bədin ətrafındakı yan
otaqlardan hər birinin eni dörd qulac idi. [6] Bu
yan otaqlar üç mərtəbə idi, hər mərtəbədə
otuz otaq var idi. Mə'bədin divarları boyu yan
otaqlar üçün dayaq olan çıxıntılar var idi ki,
dayaqlar mə'bəd divarlarına girməsin.
[7] Mə'bədin ətrafındakı yan otaqlar yuxarı
mərtəbəyə tərəf çıxdıqca genişlənirdi.
Mə'bədin ətrafındakı tikilinin yuxarıya qalxan
bir pilləkəni var idi. Yuxarıya doğru çıxdıqca
yan otaqlar genişlənirdi. Pilləkənlə aşağı
mərtəbədən orta mərtəbəyə, oradan da üst
mərtəbəyə çıxırdılar.
[8] Mə'bədin ətrafında yan otaqların
bünövrəsini təşkil edən uca bir döşəmə
gördüm: uzunluğu bir qamış, yə'ni altı qulac
idi. [9] Yan otaqların bayır divarının qalınlığı
beş qulac idi. Mə'bədin yan otaqları ilə kahin
otaqları arasında açıq bir sahə var idi.
[10] Mə'bədin ətrafı boyunca uzanan sahənin eni
iyirmi qulac idi. [11] Yan otaqların girişləri açıq
sahəyə baxırdı: biri şimalda, o biri isə
cənubda idi. Açıq sahəyə bitişən bünövrənin
eni hər tərəfdən beş qulac idi.
[12] Mə'bədin qərbində açıq sahəyə baxan bir
tikili var idi: eni yetmiş qulac idi. Divarının
qalınlığı hər tərəfdən beş qulac, uzunluğu
doxsan qulac idi.
[13] Sonra o adam mə'bədi ölçdü: uzunluğu
yüz qulac idi. Açıq sahə, tikili və onun
divarları yüz qulac uzunluğunda idi.
[14] Şərqdəki mə'bədin açıq sahəsinin eni
mə'bədin ön tərəfi ilə birgə yüz qulac idi.
[15] O adam mə'bədin arxasındakı açıq
sahəyə baxan tikilinin və hər iki tərəfindəki
dəhlizlərin uzunluğunu ölçdü: yüz qulac idi.
Mə'bədin əsas hissəsi, içəri otaq, həyətə
baxan eyvan, [16] darvaza astanaları, qəfəsli
pəncərələr, astananın qarşısında üç mərtəbəni
əhatə edən dəhlizlər döşəmədən pəncərələrə

---

[14] **40:44** *Cənub* – qədim yunan tərcüməsində belədir, ibrani mətnində isə *şərq*.

qədər ağacla örtülmüşdü. Pəncərələr açılıb-
bağlanırdı.
17 Girişin üstü, içəri otaq, onun bayırı, bütün
içəri və bayır divarlar nizamlı aralıqlarla,
18 keruv və xurma ağacı oyma təsvirləri ilə
düzəldilmişdi. İki keruv arasında bir xurma
ağacı təsviri var idi. Hər keruvun iki üzü var
idi: 19 bir yandan xurma ağacına baxan insan
üzü, o biri yandan xurma ağacına baxan şir
üzü. Mə'bəd başdan-başa bu oyma təsvirləri
ilə bəzənmişdi. 20 Döşəmədən girişin
üstündəki hissəyə qədər mə'bədin əsas
hissəsinin divarları keruv və xurma
ağaclarının oyma təsvirləri ilə düzəldilmişdi.
21 Əsas hissənin qapısının yan taxtaları
dördbucaqlı şəklində idi. Ən Müqəddəs yerin
önündəki qapının yan taxtaları da bunlara
bənzəyirdi. 22 Orada üç qulac hündürlüyündə,
iki qulac uzunluğunda, iki qulac enində
ağacdan düzəldilmiş bir qurbangah var idi.
Onun küncləri, altlığı[15] və yanları da ağacdan
idi. O adam mənə «Rəbbin önündə olan masa
budur» dedi. 23 Əsas hissənin və Ən
Müqəddəs yerin cüt qanadlı qoşa qapısı var
idi. 24 Hər qapının iki tərəfə iki qanadı var idi:
bir qapı üçün iki qanad, o biri qapı üçün iki
qanad. 25 Divarlar üzərində olduğu kimi əsas
hissənin qapılarında da keruv və xurma
ağaclarının oyma təsvirləri düzəldilmişdi.
Bayırda, eyvanın önündə ağacdan olan bir
asma tavan var idi. 26 Eyvanın yan
divarlarındakı qəfəsli pəncərələrin hər iki
tərəfi xurma ağaclarının oyma təsvirləri ilə
örtülmüşdü. Mə'bədin yan otaqları ilə asma
tavanları da bu cür idi.

### *Kahinlərin otaqları*

42 1 O adam məni şimala gedən yoldan
bayır həyətə çıxardı, mə'bədin açıq
sahəsinə və bayır həyətin şimalındakı
tikililərə baxan otaqlara apardı. 2 Qapısı
şimala baxan bu tikilinin uzunluğu yüz, eni
əlli qulac idi. 3 İçəri həyətin iyirmi qulaclıq
hissəsi ilə bayır həyətin daş yoluna baxan üç
mərtəbənin dəhlizləri qarşı-qarşıya idi.
4 Otaqların qabağında eni on qulac, uzunluğu
isə yüz[16] qulac olan bir içəri dəhliz var idi.
Qapıları şimala baxırdı. 5 Tikilinin üst
mərtəbədəki otaqları alt və orta mərtəbədəki
otaqlardan daha dar idi, çünki üst mərtəbədəki
dəhlizlər daha çox yer tuturdu. 6 Həyətlərdə
sütunlar olduğu halda üçmərtəbəli otaqların
sütunları yox idi. Buna görə də üst
mərtəbədəki otaqlar alt və orta mərtəbədəki
otaqlardan daha dar idi. 7 Otaqların qabağında,
otaqlarla və bayır həyətlə yanaşı bir bayır
divar var idi: əlli qulac uzunluğunda idi.
8 Çünki bayır həyətin yanındakı yanbayan
otaqların uzunluğu əlli qulac idi. Mə'bədin
əsas hissəsinə daha yaxın yanbayan otaqların
uzunluğu isə yüz qulac idi. 9 Bu otaqların
aşağıda bayır həyətdən girmək üçün şərqə
tərəf bir qapısı var idi.
10 İçəri həyətin cənubu[17] boyu açıq sahəyə
və bayır həyətdəki tikililərə baxan başqa
otaqlar var idi. 11 Şimal tərəfdəki otaqlarda
olduğu kimi bu otaqların qabağında da bir
keçid var idi. Otaqların uzunluğu və eni eyni
idi, çıxışları və ölçüləri şimal tərəfdə olan
otaqlarınkı kimi idi. Cənubdakı otaqların
qapıları da şimaldakılar kimi idi. 12 Keçidin
başlanğıcında bir qapı var idi. Arxa divarlar
boyunca şərqə uzanan bu keçid otaqlara
açılırdı.
13 Sonra o adam mənə dedi: «Mə'bədin açıq
sahəsinə baxan şimaldakı və cənubdakı
otaqlar müqəddəsdir. Rəbbin önündə xidmət
edən kahinlər orada ən müqəddəs
təqdimlərdən yeyəcək. Ən müqəddəs
təqdimləri – taxıl təqdimlərini, günah
qurbanlarını və təqsir qurbanlarını orada
qoyacaqlar, çünki ora müqəddəsdir.
14 Kahinlər müqəddəs yerə girəndə xidmət
edərkən əyinlərindəki geyimləri orada
qoymadan bayır həyətə çıxmasın, çünki bu
geyimlər müqəddəsdir. Onlar xalqın olduğu
yerlərə getməzdən qabaq başqa paltarlar
geyməlidir».
15 O adam mə'bədin sahəsini içəridən ölçüb
qurtarandan sonra məni şərq qapısından
bayıra apardı və hər tərəfdən bu sahənin
bayırını ölçdü. 16 Şərq tərəfini qamışla ölçdü:
uzunluğu beş yüz qulac idi. 17 Şimal tərəfini
də qamışla ölçdü: uzunluğu beş yüz qulac idi.
18 Cənub tərəfini də qamışla ölçdü: uzunluğu
beş yüz qulac idi. 19 Qərb tərəfinə dönüb onu
qamışla ölçdü: uzunluğu beş yüz qamış idi.

---

[15] **41:22** *Altlığı* – qədim yunan tərcüməsində belədir, ibrani mətnində isə *uzunluğu.*

[16] **42:4** *Yüz* – qədim yunan və süryani tərcümələrində belədir, ibrani mətnində isə *bir.*

[17] **42:10** *Cənubu* – qədim yunan tərcüməsində belədir, ibrani mətnində isə *şərqi.*

20 Beləcə sahənin dörd tərəfini ölçdü.
Müqəddəs olanı müqəddəs olmayandan
ayırmaq üçün sahənin ətrafında bir divar var
idi: uzunluğu və eni hər biri beş yüz qulac idi.

### *Rəbbin hüzurunun mə'bədə qayıtması*

43 1 O adam məni şərqə baxan
darvazanın yanına gətirdi. 2 Mən
gördüm ki, şərq yolundan İsrail Allahının
izzəti gəlir. Onun səsi gur axan suların səsi
kimi idi, izzətindən yer parıldayırdı.
3 Gördüyüm görüntü Allah şəhəri məhv
etməyə gəldiyi vaxt və Kevar çayı sahilində
gördüyüm görüntülərə bənzəyirdi. Mən bu
zaman üzüstə yerə yıxıldım. 4 Rəbbin izzəti
şərqə baxan darvazanın yolundan mə'bədə
girdi. 5 Ruh məni qaldırıb içəri həyətə gətirdi.
Mən gördüm ki, Rəbbin izzəti mə'bədi
doldurub.

6 Adam yanımda durarkən mə'bəddən
mənimlə danışan bir nəfərin səsini eşitdim.
7 O mənə belə dedi: «Ey bəşər oğlu, taxtımın
yeri, ayaqlarımın dabanları dəyən, İsrail
övladları arasında əbədi yaşayacağım yer
buradır. Bundan sonra İsrail xalqı ilə
padşahları pozğunluqları və ölən padşahların
cəsədləri ilə bir daha müqəddəs adımı
murdarlamayacaq. 8 Onlar astanalarını
astanama, qapılarının yan taxtalarını qapımın
yan taxtalarına bitişdirdi. Mənimlə onların
arasında yalnız bir divar var idi. Etdikləri
murdar işləri ilə müqəddəs adımı
murdarladılar. Mən də qəzəbimlə onları qırıb-
çatdım. 9 İndi pozğunluqlarını və
padşahlarının cəsədlərini Məndən
uzaqlaşdırsınlar, Mən də əbədi olaraq onların
arasında yaşayaram.

10 Sən ey bəşər oğlu, bu mə'bədi İsrail
nəslinə təsvir et ki, üsyanlarından utansınlar
və mə'bədin layihəsini ölçsünlər. 11 Əgər
etdikləri bütün işlərdən utanırlarsa, mə'bədin
şəklini, nizamını, giriş-çıxış yerlərini – bütün
şəkillərini, bütün qaydalarını, quruluşlarını və
qanunlarını onlara bildir. Onların gözü
önündə bunları bir yerə yaz. Qoy bütün
quruluş və qaydalarına əməl edib onları
yerinə yetirsinlər. 12 Mə'bədlə bağlı qanun
budur: dağın başında hər tərəfdən onun bütün
ərazisi çox müqəddəs olacaq. Bəli, mə'bədin
qanunu budur.

### *Qurbangah*

13 Qurbangahın qulacla ölçüləri belədir.
Hər qulaca bir ovuc əlavə edilmişdir:
qurbangahı əhatəyə alan xəndəyin dərinliyi
bir qulac, eni bir qulac, ətrafındakı çıxıntı bir
qarış olacaq. Qurbangahın hündürlüyü isə
belədir: 14 qurbangahın yerdəki xəndəkdən alt
çıxıntıya qədərki hissəsinin hündürlüyü iki
qulac, eni bir qulac, kiçik çıxıntıdan böyük
çıxıntıya qədərki hissənin hündürlüyü dörd
qulac, eni bir qulac, 15 qurbangahın qurban
yandırılan üst hissəsinin hündürlüyü dörd
qulac olacaq. Üst hissədən yuxarıya doğru
dörd buynuz uzanacaq. 16 Qurbangahın üst
hissəsi dördbucaqlı şəklində olacaq. Onun
uzunluğu on iki, eni on iki qulac olacaq. 17 Üst
çıxıntının dörd tərəfdən uzunluğu və eni hər
biri on dörd qulac olacaq. Ətrafındakı kənar
yarım qulac, xəndəyin dövrəsi bir qulac
olacaq. Qurbangahın pilləkənləri şərqə
baxacaq».

18 O adam yenə dedi: «Ey bəşər oğlu,
Xudavənd Rəbb belə deyir: "Qurbangah
tikildiyi gün üstündə yandırma qurbanları
gətirmək və qan tökmək barədə olan qaydalar
belədir. 19 Mənə xidmət etmək üçün hüzuruma
çıxan, Sadoq nəslindən Levili kahinlərə günah
qurbanı olaraq bir buğa ver" Xudavənd Rəbb
belə bəyan edir. 20 "Buğanın qanından götürüb
qurbangahın dörd buynuzuna, çıxıntının dörd
küncünə və ətrafındakı kənarın üstünə sürt.
Beləcə qurbangahı pak edib onun üçün
kəffarə ver. 21 Günah qurbanı olaraq buğanı
götürüb müqəddəs məkandan kənarda,
mə'bədin tə'yin edilmiş yerində yandır.

22 İkinci gün günah qurbanı olaraq qüsursuz
bir təkə təqdim et. Qurbangah buğanın qanı
ilə pak edildiyi kimi təkənin qanı ilə də pak
edilsin. 23 Pak etmək işini qurtarandan sonra
qüsursuz bir buğa ilə sürüdən bir qoç qurban
gətir. 24 Onları Rəbbin önünə gətir. Kahinlər
onların üstünə duz səpib Rəbbə yandırma
qurbanı olaraq təqdim etsin. 25 Yeddi günün
günah qurbanı olaraq hər gün bir təkə hazırla.
Qüsursuz bir buğa ilə sürüdən bir qoç da
hazırlansın. 26 Qoy yeddi gün qurbangah üçün
kəffarə versinlər, onu pak edib təqdis etsinlər.
27 Yeddi gün tamamlanandan sonra kahinlər
səkkizinci gün və ondan sonra yandırma və

***43:2*** *– Yez. 10:3-4,18-19; 11:22-23*

***43:13-17*** *– Çıx. 27:1-2; 2Saln. 4:1*
***43:18-27*** *– Çıx. 29:35-37*

ünsiyyət qurbanlarınızı qurbangahın üstündə
təqdim etsin. O zaman sizdən razı olacağam”
Xudavənd Rəbb belə bəyan edir».

### *Mə’bəddə xidmət edənlər*

44 1 O adam məni müqəddəs məkanın
şərqə baxan bayır darvazası yolundan
geri qaytardı. Darvaza bağlı idi. 2 Rəbb mənə
dedi: «Bu darvaza bağlı qalacaq, açılmayacaq,
heç kəs oradan içəri girməyəcək, çünki
İsrailin Allahı Rəbb oradan içəri girmişdir,
buna görə də bağlı qalacaq. 3 Yalnız rəhbər
rəhbərliyinə görə Rəbbin önündə çörək yemək
üçün orada oturacaq. Darvaza eyvanı
yolundan girib, o yoldan da çıxacaq».

4 O adam məni şimal darvazası yolundan
mə’bədin önünə gətirdi. Mən baxıb gördüm ki,
Rəbbin izzəti Öz mə’bədini doldurub. Bu
zaman üzüstə düşdüm. 5 Rəbb mənə dedi: «Ey
bəşər oğlu, Rəbbin mə’bədinin bütün qayda-
qanunları ilə bağlı deyəcəyim sözləri yaxşı-
yaxşı dinlə, onlara qulaq as, hər şeyə diqqətlə
bax. Müqəddəs məkana kimin girib-
çıxacağına diqqət et. 6 Asi olan İsrail nəslinə
söylə ki, Xudavənd Rəbb belə deyir: “Ey
İsrail nəsli, artıq bəsdir! Etdiyiniz iyrənc
işlərə daha son qoyun. 7 Ürəyi və bədəni
sünnət edilməmiş yadelliləri müqəddəs
məkanıma gətirdiniz, Mənə qida olmaq üçün
piy və qan təqdim etməklə mə’bədimi
murdarladınız. Beləcə iyrənc işlərinizlə
əhdimi pozdunuz. 8 Müqəddəs şeylərim
üzərində vəzifənizi yerinə yetirmədiniz.
Müqəddəs məkanımda bu şeylərə nəzarət
etməyi başqalarına tapşırdınız”. 9 Xudavənd
Rəbb belə deyir: “İsrail xalqı arasında
yaşayan ürəyi və bədəni sünnət edilməmiş heç
bir yadelli müqəddəs məkanıma girməsin.

10 İsrail yoldan azdığı zaman Məndən
uzaqlaşan və yoldan azıb bütlərinə sitayiş
edən Levililər öz günahlarının cəzasını
çəkəcək, 11 lakin müqəddəs məkanımda bu
işləri görəcək: mə’bədin darvazalarına nəzarət
edəcək, mə’bədin xidmət işlərini görəcək,
xalq üçün yandırma qurbanları və başqa
qurbanlıq heyvanları kəsəcək, xalqın önündə
durub onlara xidmət edəcək. 12 İndi ki onlar
bütlərinin önündə İsrail nəslinə xidmət edərək
xalqı günaha batırdı, Mən Rəbb də onları
günahlarına görə cəzalandıracağıma and
içdim” Xudavənd Rəbb belə bəyan edir.
13 “Onlar kahin kimi xidmət etmək üçün Mənə
yaxınlaşmayacaq, bütün müqəddəs şeylərimə,
ən müqəddəs qurbanlarıma toxunmayacaq.
Etdikləri iyrənc əməllərinin rüsvayçılığını
çəkəcəklər. 14 Bundan sonra mə’bədin xidmət
vəzifəsini və orada görülən bütün işləri onlara
tapşıracağam.

15 Ancaq İsrail Məni qoyub yoldan azdığı
zaman müqəddəs məkanımın xidmət
vəzifəsini yerinə yetirən Sadoq nəslindən
Levili kahinlər önümdə xidmət etmək üçün
Mənə yaxınlaşacaq. Onlar piy və qan təqdim
etmək üçün hüzuruma çıxacaq” Xudavənd
Rəbb belə bəyan edir. 16 “Yalnız onlar
müqəddəs məkanıma girəcək, yalnız onlar
önümdə xidmət etmək üçün süfrəmə
yaxınlaşıb buyruğumu yerinə yetirəcək.

17 Kahinlər içəri həyətin darvazalarından
girəcəkləri zaman kətan geyim əyinlərində
olsun, içəri həyətin darvazalarında yaxud
mə’bəddə xidmət edərkən yun paltar
geyməsinlər. 18 Başlarına kətan çalma
sarısınlar, bellərinə kətan alt paltarı geysinlər.
Bədənlərini tərlədən bir şey geyinməsinlər.
19 Bayır həyətə, bayır həyətdə olan xalqın
yanına çıxmazdan qabaq xidmət edərkən
əyinlərindəki geyimləri çıxarıb müqəddəs
otaqlara qoysunlar və başqa paltarlar
geysinlər ki, geyimləri ilə xalqı təqdis
etməsinlər. 20 Kahinlər başlarını qırxmasın,
saçlarını uzatmasın, yalnız saçlarını kəsib
düzəltsin. 21 İçəri həyətə girəcəyi vaxt heç bir
kahin şərab içməsin.

22 Kahinlər dul yaxud boşanmış arvad
almasın, ancaq İsrail nəslindən olan bir bakirə
qız yaxud da başqa kahindən dul qalmış
arvadı ala bilərlər. 23 Onlar Mənim xalqıma
müqəddəs olan şeyi adi şeydən, murdar şeyi
pak şeydən ayırmağı öyrədəcək. 24 Mübahisəli
işlərdə onlar hakimlik edəcək, hökmlərimə
görə qərar verməlidirlər. Bayramlarımla bağlı
qayda-qanunlarıma əməl etməli, Şənbə
günlərimi müqəddəs saymalıdırlar.

25 Kahin bir ölüyə yaxınlaşıb özünü
murdarlamasın, ancaq ölü anası, atası, oğlu,
qızı, qardaşı yaxud ərə getməmiş bacısı olsa,
özünü murdarlaya bilər. 26 Pak olduqdan sonra

---

***44:17-18*** *– Çıx. 28:39-43; Lev. 16:4*
***44:19*** *– Lev. 16:23*
***44:20*** *– Lev. 21:5*
***44:21*** *– Lev. 10:9*
***44:22*** *– Lev. 21:7,13-14*
***44:23*** *– Lev. 10:10; Yez. 22:26*
***44:25*** *– Lev. 21:1-4*

hələ yeddi gün gözləsin. 27 Mə’bəddə xidmət etmək üçün içəri həyətə girəcəyi gün özü üçün bir günah qurbanı təqdim etsin” Xudavənd Rəbb belə bəyan edir.

28 “Kahinlərin irsi var: onların irsi Mənəm. İsraildə onlara mülk verməyin. Onların mülkü Mənəm. 29 Kahinlər taxıl təqdimlərini, günah və təqsir qurbanlarını yesin. İsraildə Rəbbə həsr olunan hər şey onlarınkı olsun. 30 Bütün nübarların ən yaxşısı və bütün xüsusi hədiyyələriniz kahinlərinki olsun. Evinizə bərəkət yağsın deyə taxılınızın ilkini onlara verin. 31 Kahinlər ölü halda tapılmış yaxud vəhşi heyvanlar tərəfindən parçalanmış heç bir quş və heyvan yeməsin.

### *Rəbbə verilən torpaq payı*

45 1 Ölkəni irs olaraq payladığınız zaman Rəbb üçün torpaqdan pay kimi iyirmi beş min qulac uzunluğunda, on min qulac enində müqəddəs bir bölgə ayırın. Bütün bu bölgə müqəddəs olacaq. 2 Bu bölgədən dördbucaqlı şəklində uzunluğu və eni beş yüz qulaclıq bir hissə müqəddəs məskən üçün, əlli qulaclıq bir yer isə ətrafındakı açıq sahə üçün ayrılsın. 3 Bu ölçü ilə bir hissə ölç: uzunluğu iyirmi beş min qulac və eni on min qulac olsun. Müqəddəs məkan – Ən Müqəddəs yer orada olacaq. 4 Bu, ölkənin müqəddəs payı olacaq. Bu yer mə’bəddə xidmət etmək üçün Rəbbə yaxınlaşan kahinlərə ayrılacaq. Burada kahinlərin evləri, müqəddəs məkan üçün müqəddəs yer olacaq. 5 Mə’bəddə xidmət edən Levililərə mülk olaraq iyirmi beş min qulac uzunluğunda, on min qulac enində bir bölgə verilsin. Orada yaşamaları üçün onlara məxsus şəhərlər olacaq.[18]

6 Müqəddəs bölgəyə düşən hissə ilə birlikdə şəhər üçün eni beş min, uzunluğu iyirmi beş min qulac olan bir hissə ayırın. Bu bütün İsrail xalqı üçündür.

### *Başçıya verilən torpaq payı*

7 Müqəddəs bölgəyə düşən hissə ilə şəhərə düşən hissənin hər iki tərəfindəki torpaqlar rəhbərə veriləcək. Bu torpaqlar qərbdən-qərbə, şərqdən-şərqə doğru uzanacaq və qərb sərhədindən şərq sərhədinə qədər uzunluğu bir İsrail qəbiləsinə düşən hissə qədərdir. 8 Bu torpaq İsrail rəhbərinin payı olacaq. Bundan sonra rəhbərlərim xalqıma bir daha zülm etməyəcək, ancaq ölkəni qəbilələrinə görə İsrail nəslinə verəcək”.

9 Xudavənd Rəbb belə deyir: “Ey İsrail rəhbərləri, artıq bəsdir! Zorakılıqdan və ziyankarlıqdan əl çəkin, ədalətli və saleh əməllər edin. Xalqımı öz torpaqlarından qovmayın” Xudavənd Rəbb belə bəyan edir. 10 “Düzgün tərəzi ilə çəkin. Çəkdiyiniz efa da, bat da düzgün olsun. 11 Efa ilə bat eyni çəkidə olsun. Bat xomerin onda birinə, efa da xomerin onda birinə bərabər olmalıdır. İkisinin çəkisi də xomerə görə olsun. 12 Bir şekel iyirmi geraya bərabər olmalıdır. İyirmi, iyirmi beş, on beş şekel birlikdə bir minaya bərabər olmalıdır.

### *Qurbanlar və bayramlar*

13 Gətirəcəyiniz təqdimlər bunlardır: hər xomer buğdadan efanın altıda biri qədər buğda, hər xomer arpadan efanın altıda biri qədər arpa verin. 14 Zeytun yağını isə bat çəkisinə görə ölçün və hər kor zeytun yağından batın onda biri qədər təqdim edin. Bir kor on bat yaxud bir xomerə bərabərdir. 15 İsrailin sulu otlaqlarındakı sürüdən iki yüz qoyundan bir qoyun götürülsün. Bu qoyunlardan taxıl təqdimləri, yandırma qurbanları və ünsiyyət qurbanları üçün istifadə edilsin ki, xalq kəffarə olunsun” Xudavənd Rəbb belə bəyan edir. 16 “Bütün ölkə xalqı bu təqdimi İsrail rəhbərinə verəcək. 17 İsraildə keçirilən bütün bayramlarda – şənliklərdə, Təzə Ay mərasimlərində və Şənbə günlərində yandırma qurbanları, taxıl və maye təqdimlərini tə’min etmək rəhbərin işi olacaq. Günah qurbanını, taxıl təqdimini, yandırma qurbanı və ünsiyyət qurbanlarını rəhbər tə’min edəcək ki, İsrail nəsli üçün kəffarə versin”.

18 Xudavənd Rəbb belə deyir: “Birinci ayın birinci günü qüsursuz bir buğa götürüb müqəddəs məkanı pak et. 19 Kahin günah qurbanının qanından götürüb mə’bədin darvazasının yan taxtalarına, qurbangahın üst çıxıntısının dörd küncünə, içəri həyətin darvazasının yan taxtalarına sürtsün. 20 Səhvən

***44:28** – Say. 18:20*
***44:29-30** – Say. 18:8-19*
***44:31** – Lev. 22:8*
[18] **45:5** *Orada yaşamaları üçün onlara məxsus şəhərlər olacaq* – qədim yunan tərcüməsində belədir, ibrani mətnində isə *orada mülk olaraq iyirmi otaq alacaqlar.*

***45:10** – Lev. 19:36*

yaxud bilmədən günah etmiş adam üçün də
həmin ayın yeddinci günü eyni şeyi et. Beləcə
mə'bədi pak edəcəksən.
[21] Birinci ayın on dördüncü günü Pasxa
bayramını yeddi gün keçirin və mayasız çörək
yeyin. [22] O gün rəhbər özü və bütün ölkə xalqı
üçün günah qurbanı olaraq bir buğa hazırlasın.
[23] Yeddi gün bayram ərzində hər gün Rəbbə
yandırma qurbanı olaraq qüsursuz yeddi buğa
ilə yeddi qoç, günah qurbanı olaraq bir təkə
tə'min etsin. [24] Taxıl təqdimi olaraq hər buğa
və qoç üçün bir efa taxıl, hər efa üçün bir hin
zeytun yağı tə'min etsin.
[25] Yeddinci ayın on beşinci günü başlayan
və yeddi gün davam edən bayramda rəhbər
günah qurbanlarını, yandırma qurbanlarını,
taxıl təqdimlərini və zeytun yağını hər gün
eyni miqdarda tə'min etsin".

# 46

[1] Xudavənd Rəbb belə deyir: "İçəri
həyətin şərqə baxan darvazası altı iş
günü bağlı qalmalı, Şənbə günləri və Təzə Ay
mərasimi günləri isə açıq olmalıdır. [2] Rəhbər
bayırdan, darvaza eyvanı yolundan içəri girib
darvazanın yan taxtalarının yanında dursun.
Kahinlər onun yandırma qurbanını və
ünsiyyət qurbanlarını təqdim etsin. Rəhbər
darvaza kandarında ibadət etsin, sonra bayıra
çıxsın, ancaq darvaza axşama qədər açıq
qalsın. [3] Şənbə günləri və Təzə Ay mərasimi
günləri ölkə xalqı bu darvazanın girişində
Rəbbin önündə ibadət etsin.
[4] Rəhbər Şənbə günü Rəbbə yandırma
qurbanı olaraq verdiyi qüsursuz altı quzu, bir
qoç təqdim etsin. [5] Qoç üçün veriləcək taxıl
təqdimi bir efa olsun, quzular üçün isə istədiyi
qədər taxıl təqdimi verə bilər. Hər efa taxıl
üçün bir hin zeytun yağı versin. [6] Təzə Ay
mərasimi günü qüsursuz bir buğa, altı quzu və
bir qoç qurban gətirsin. [7] Buğa və qoç üçün
taxıl təqdimi olaraq hərəsinə bir efa taxıl
tə'min etsin. Quzular üçün istədiyi qədər taxıl
tə'min edə bilər. Hər efa taxıl üçün bir hin
zeytun yağı tə'min etsin. [8] Rəhbər içəri
girəcəyi zaman darvaza eyvanından girsin,
həmin yolla da bayıra çıxsın.
[9] Ölkə xalqı bayramlarda Rəbbin önünə
gəldiyi zaman ibadət etmək üçün şimal
darvazasından girən adam cənub
darvazasından çıxsın, cənub darvazasından
girən adam şimal darvazasından çıxsın. Heç
kəs girdiyi darvazadan çıxmasın, hər kəs
girdiyi darvazanın qarşısındakı darvazadan
çıxsın. [10] Rəhbər xalqın arasında olsun, xalqla
birgə girsin, xalqla birgə çıxsın.
[11] Bayramlarda və müqəddəs günlərdə buğa
və qoç üçün taxıl təqdimi olaraq hərəsinə bir
efa taxıl versin. Quzular üçün isə istədiyi
qədər taxıl tə'min edə bilər. Hər efa taxıl üçün
bir hin zeytun yağı versin.
[12] Rəhbər Rəbbə könüllü olaraq verdiyi
yandırma qurbanı yaxud ünsiyyət qurbanları
təqdim edəcəyi zaman şərqə baxan darvaza
onun üzünə açılsın. Yandırma qurbanı yaxud
ünsiyyət qurbanlarını Şənbə günü qurban
gətirdiyi kimi tə'min etsin, sonra bayıra çıxsın.
O çıxdıqdan sonra darvaza bağlansın.
[13] Hər gün səhərlər yandırma qurbanı olaraq
Rəbbə bir yaşında qüsursuz bir quzu tə'min et.
[14] Bununla yanaşı, hər səhər taxıl təqdimi
olaraq efanın altıda biri qədər taxıl və narın
unu islatmaq üçün bir hinin üçdə biri qədər
zeytun yağı tə'min et. Bu taxıl təqdiminin
Rəbbə verilməsi daimi bir qayda olsun.
[15] Beləcə hər səhər daimi yandırma qurbanı
olaraq quzu, taxıl təqdimi və zeytun yağı
tə'min edilsin".

### *Rəhbərə düşən mülk*

[16] Xudavənd Rəbb belə deyir: "Əgər rəhbər
oğullarından birinə öz mülkündən pay verərsə,
öz irsi kimi nəslinə də keçsin, irs olaraq bu
pay onların mülkü olsun. [17] Lakin rəhbər öz
mülkündən qulluqçularından birinə pay
verərsə, bu pay azadlıq ilinə qədər
qulluqçununku olsun, sonra isə rəhbərə
qaytarılsın. Rəhbərin irsi ancaq oğullarına
keçə bilər və onların olsun. [18] Lakin rəhbər
xalqı mülkündən qovaraq irsindən məhrum
etməməlidir. O, oğullarına yalnız öz
mülkündən irs verə bilər, ona görə ki
xalqımdan olan heç kəs mülkünü tərk edib
kənara getməsin"».

### *Mə'bədin mətbəxləri*

[19] Sonra o adam məni darvazanın yanındakı
girişdən şimala baxan, kahinlərə məxsus
müqəddəs otaqlara gətirdi və mənə qərb
tərəfdə bir yer göstərdi. [20] O mənə dedi:
«Kahinlərin təqsir qurbanı ilə günah
qurbanının ətini qaynadacaqları və taxıl

***45:21*** *– Çıx. 12:1-20; Say. 28:16-25*
***45:25*** *– Lev. 23:33-36; Say. 29:12-38*
***46:17*** *– Lev. 25:10*

təqdimini bişirəcəkləri yer buradır. Ona görə
ki bunları bayır həyətə çıxarıb xalqı təqdis
etməsinlər».
21 Sonra o adam məni bayır həyətə çıxarıb
həyətin dörd küncündən keçirdi. Gördüm ki,
həyətin hər küncündə kiçik bir həyət var.
22 Həyətin dörd küncündə olan bu qapalı
həyətlərin hər birinin uzunluğu qırx, eni isə
otuz qulac idi. Künclərdəki həyətlər eyni
boyda idi. 23 Dörd həyətin hər birinin ətrafında
daş divar var idi. Divarın dibində yemək
bişirmək üçün yerlər düzəldilmişdi. 24 O adam
mənə dedi: «Bunlar mətbəxdir. Mə'bəd
xidmətçiləri xalqın qurbanlıq ətlərini burada
qaynadacaq».

### *Mə'bəddən axan su*

47 1 O adam yenə məni mə'bədin
girişinə gətirdi. Mə'bədin kandarının
altından şərqə tərəf sular axdığını gördüm.
Mə'bəd şərqə baxırdı. Sular mə'bədin cənub
tərəfinin altından, qurbangahın cənubundan
aşağıya axırdı. 2 O məni oradan – şimal
darvazasından çıxarıb bayır yoldan şərqə
baxan bayır darvazasına apardı. Sular cənub
tərəfdən axırdı.
3 O adam əlində ölçmək üçün bir iplə şərqə
tərəf getdi. O, min qulac ölçdü və məni
topuğa qədər çıxan suların içinə gətirdi.
4 Daha min qulac ölçdü və məni dizə qədər
çıxan suların içinə gətirdi. Yenə min qulac
ölçdü və məni belə qədər çıxan suların içinə
gətirdi. 5 Daha min qulac ölçdü və sular
keçilməz bir çaya döndü. Sular artmışdı,
içindən piyada keçmək mümkün deyildi,
adam üzən qədər dərin bir çaya çevrilmişdi.
6 O adam mənə dedi: «Ey bəşər oğlu, bunu
görürsənmi?» Sonra məni götürüb yenə çayın
sahilinə gətirdi. 7 Oraya çatanda çayın hər iki
sahilində çoxlu ağac gördüm. 8 O adam mənə
dedi: «Bu sular şərq bölgəsinə tərəf axır,
oradan Arava vadisinə, sonra isə Duz dənizinə
tökülür. Dənizə tökülən kimi oradakı su şirin
suya çevriləcək. 9 O zaman çayın axdığı
yerlərdə hər cür qaynaşan canlı məxluq
yaşayacaq, çoxlu balıq olacaq, çünki bu sular
oraya axır, oradakı duzlu suyu şirin suya
çevirir. Çay axdığı hər yerə həyat gətirəcək.
10 Çayın sahili boyu balıqçılar dayanacaq. En-
Gedidən En-Eqlayimə qədər tor sərilən yerlər
olacaq. Orada da Böyük dənizdəki kimi çoxlu
balıq növləri olacaq. 11 Ancaq Duz dənizinin
palçıqlı və bataqlıq yerləri şirin suya
çevrilməyəcək, şoranlıq olaraq qalacaq.
12 Çayın hər iki sahilində hər cür meyvə ağacı
yetişəcək. Onların yarpaqları solmayacaq,
meyvələri tükənməyəcək. Hər ay meyvə
verəcəklər, çünki müqəddəs məkandan çıxan
sular oraya axır. Meyvələrindən yemək,
yarpaqlarından şəfa vermək üçün istifadə
olunacaq».

### *Ölkənin sərhədləri*

13 Xudavənd Rəbb belə deyir: «Ölkəni irs
olaraq İsrailin on iki qəbiləsi arasında bu
sərhədlərlə bölün: Yusifə iki pay düşsün.
14 Ölkəni on iki qəbilə arasında hər birinə
bərabər olaraq paylayın. Mən ölkəni sizin
atalarınıza verəcəyimə and içdim. Bu ölkə
sizə irs olaraq veriləcək.
15 Ölkənin sərhədi belə olacaq: şimalda
Böyük dənizdən Xetlon yolu ilə Xamat
keçidinə, Sedada,[19]
16 Berotaya və Dəməşq ilə Xamatın
torpaqları arasında yerləşən Sivrayimə,
Xavran sərhədində olan Xaser-Hattikona
qədər uzanacaq. 17 Sərhəd dənizdən Xasar-
Enona, Dəməşqin şimal sərhədi boyunca
uzanacaq, Xamat sərhədi şimalda olacaq.
Şimal sərhədi belədir.
18 Şərqdə sərhədi Xavranla Dəməşq
arasından başlayıb Gileadı İsraildən ayıran
İordan çayı boyunca Şərq dənizinə qədər
ölçün. Şərq sərhədi belədir.
19 Cənubda sərhəd Tamardan Meriva-Qadeş
sularına, Misir vadisi boyunca Böyük dənizə
qədər uzanacaq. Cənub sərhədi belədir.
20 Qərbdə Xamat keçidinin qarşısındakı
yerə qədər Böyük dəniz sərhəd olacaq. Qərb
sərhədi belədir.
21 Bu ölkəni İsrail qəbilələrinə görə öz
aranızda bölüşdürün. 22 Ölkəni öz aranızda və
aranızda yaşayarkən övladları doğulan
yadellilərlə irs olaraq bölüşdürün. Onları da
İsrail övladları arasında yerlilər kimi hesab
edin. Onların da İsrail qəbilələri arasında sizin
kimi irsləri olacaq. 23 Yadelli hansı qəbilədə
yaşayırsa, orada ona düşən payı irs olaraq
verin» Xudavənd Rəbb belə bəyan edir.

---

***47:1** – Zək. 14:8; Yəh. 7:38; Vəhy 22:1*

[19] **47:15** *Xamat keçidinə, Sedada* – qədim yunan tərcüməsində belədir, ibrani mətnində isə *Sedad keçidinə, Xamata.*

### *Torpağın bölüşdürülməsi*

48 [1] «Qəbilələrin adları belədir: şimal
sərhədində olan Dana bir pay
veriləcək. Danın sərhədi Xetlon yolundan
Xamat keçidinə qədər uzanacaq. Xasar-Enon
və Xamata yaxın Dəməşqin şimal sərhədi
şərqdən qərbə qədər uzanan sərhədin bir
hissəsini tutacaq. [2] Aşerə bir pay veriləcək.
Sərhədi Danın şərqdən qərbə qədər uzanan
sərhədinə bitişik olacaq. [3] Naftaliyə bir pay
veriləcək. Sərhədi Aşerin şərqdən qərbə qədər
uzanan sərhədinə bitişik olacaq. [4] Menaşşeyə
bir pay veriləcək. Sərhədi Naftalinin şərqdən
qərbə qədər uzanan sərhədinə bitişik olacaq.
[5] Efrayimə bir pay veriləcək. Sərhədi
Menaşşenin şərqdən qərbə qədər uzanan
sərhədinə bitişik olacaq. [6] Ruvenə bir pay
veriləcək. Sərhədi Efrayimin şərqdən qərbə
qədər uzanan sərhədinə bitişik olacaq.
[7] Yəhudaya bir pay veriləcək. Sərhədi
Ruvenin şərqdən qərbə qədər uzanan
sərhədinə bitişik olacaq.

[8] Yəhudanın şərqdən qərbə qədər uzanan
sərhədinə bitişik torpaqlar ayıracağınız xüsusi
pay olacaq. Eni iyirmi beş min qulac, şərqdən
qərbə uzunluğu isə bir qəbiləyə düşən pay
qədər olacaq. Müqəddəs məkan oranın
ortasında olacaq. [9] Rəbbə xüsusi olaraq
verəcəyiniz payın uzunluğu iyirmi beş min
qulac, eni on min qulac olacaq. [10] Bu, kahinlər
üçün müqəddəs pay olacaq. Şimalda uzunluğu
iyirmi beş min qulac, qərbdə eni on min qulac,
şərqdə eni on min qulac, cənubda uzunluğu
iyirmi beş min qulac olacaq. Rəbbin
müqəddəs məkanı oranın ortasında olacaq.
[11] Bu bölgə Sadoq nəslindən təqdis olunmuş
kahinlər üçün olacaq. Onlar buyruğumu
yerinə yetirdi, İsrail xalqı yoldan azan zaman
Levililər də yoldan azdı, ancaq onlar yoldan
azmadı. [12] O yer ölkənin müqəddəs payından
xüsusi bir pay olaraq onlara veriləcək. Ora
Levililərin torpaqlarına bitişik çox müqəddəs
bir bölgə olacaq.

[13] Kahinlərin sərhədi yaxınlığında
Levililərin iyirmi beş min qulac uzunluğunda,
on min qulac enində bir payları olacaq. Bu
bölgənin uzunluğu iyirmi beş min qulac, eni
on min qulac olacaq. [14] Levililər oranı
satmasın və başqa yerə dəyişməsin. Bu,
ölkənin ən yaxşı hissəsidir və başqa adamın
əlinə keçməməlidir, çünki ora Rəbbə həsr
edilmişdir.

[15] Rəbbə verdiyiniz bu xüsusi payın qalan
iyirmi beş min qulac uzunluqda və beş min
qulac enindəki hissəsi müqəddəs deyil və
şəhər üçündür. Bu yer evlərə, otlaqlara
ayrılacaq. Şəhər onun ortasında olacaq.
[16] Şəhərin ölçüləri belə olacaq: şimal tərəfi
dörd min beş yüz qulac, cənub tərəfi dörd min
beş yüz qulac, şərq tərəfi dörd min beş yüz
qulac, qərb tərəfi dörd min beş yüz qulac.
[17] Şəhər üçün ayrılan otlağın ölçüləri belə
olacaq: şimalda iki yüz əlli qulac, cənubda iki
yüz əlli qulac, şərqdə iki yüz əlli qulac,
qərbdə iki yüz əlli qulac. [18] Müqəddəs
bölgənin sərhədində qalan yerin həm şərq
tərəfi, həm də qərb tərəfi on min qulac olacaq.
Müqəddəs bölgəyə bitişik torpaqlarda yetişən
məhsul şəhərdə işləyənlərə məxsus olacaq.
[19] İsrailin hər qəbiləsindən şəhərdə işləyənlər
torpağı şumlayacaq. [20] Bu bölgənin ərazisi
dördbucaqlı şəklindədir, hər yanı iyirmi beş
min qulacdır. Siz xüsusi bir pay olaraq
şəhərin mülkü ilə birlikdə müqəddəs bölgəyə
düşən payı ayırın.

[21] Müqəddəs bölgəyə aid olan hissə ilə
şəhərə aid olan hissədən başqa, ayırdığınız
xüsusi paydan hər iki tərəfdə qalan torpaqlar
rəhbərə veriləcək. Bu torpaqlar müqəddəs
bölgəyə aid olan iyirmi beş min qulaclıq
hissənin şərqindən və qərbindən ölkənin şərq
və qərb sərhədlərinə qədər uzanacaq.
Qəbilələrə düşən paylar boyunca uzanan bu
iki bölgə rəhbərə məxsus olacaq. Müqəddəs
yerə aid olan hissə ilə mə’bədin müqəddəs
məkanı oranın ortasında olacaq. [22] Beləcə
Levililərə düşən mülklə şəhərə aid olan mülk
rəhbərə verilən torpaqların arasında qalacaq.
Rəhbərə veriləcək torpaqlar Yəhuda ilə
Binyaminin sərhədi arasında olacaq.

[23] Qalan qəbilələrə düşən pay belədir:
Binyaminə bir pay veriləcək. Sərhədi şərqdən
qərbə qədər uzanacaq. [24] Şimeona bir pay
veriləcək. Sərhədi Binyaminin şərqdən qərbə
qədər uzanan sərhədinə bitişik olacaq.
[25] İssakara bir pay veriləcək. Sərhədi
Şimeonun şərqdən qərbə qədər uzanan
sərhədinə bitişik olacaq. [26] Zevuluna bir pay
veriləcək. Sərhədi İssakarın şərqdən qərbə
qədər uzanan sərhədinə bitişik olacaq. [27] Qada
bir pay veriləcək. Sərhədi Zevulunun şərqdən
qərbə qədər uzanan sərhədinə bitişik olacaq.
[28] Qadın sərhədi ölkənin cənub sərhədi olub
Tamardan Meriva-Qadeş sularına, oradan da

Misir vadisi boyunca Böyük dənizə qədər
uzanacaq. 29 İrs olaraq İsrail qəbilələri
arasında bölüşdürəcəyiniz torpaq budur.
Onlara düşəcək paylar bunlardır» Xudavənd
Rəbb belə bəyan edir.

### *Şəhərin darvazaları*

30 «Şəhərin çıxış yerləri bunlardır: dörd min
beş yüz qulac uzunluğunda olan şimal tərəfdə
darvazalar olacaq. 31 Şəhərin darvazalarına
İsrail qəbilələrinin adları veriləcək. Şimal
tərəfdə üç darvaza olacaq: bir Ruven
darvazası, bir Yəhuda darvazası, bir Levi
darvazası. 32 Dörd min beş yüz qulac
uzunluğunda olan şərq tərəfdə üç darvaza
olacaq: bir Yusif darvazası, bir Binyamin
darvazası, bir Dan darvazası. 33 Dörd min beş
yüz qulac uzunluğunda olan cənub tərəfdə üç
darvaza olacaq: bir Şimeon darvazası, bir
İssakar darvazası, bir Zevulun darvazası.
34 Dörd min beş yüz qulac uzunluğunda olan
qərb tərəfdə üç darvaza olacaq: bir Qad
darvazası, bir Aşer darvazası, bir Naftali
darvazası. 35 Şəhərin dairəsi on səkkiz min
qulac olacaq və o gündən sonra şəhər Yahve-
Şamma[20] adlanacaq».

---

***48:30-34*** – *Vəhy 21:12-13*
[20] **48:35** *Yahve-Şamma* – ibrani dilində *Rəbb oradadır.*